Konsolidasiya edilmiş maliyyə hesabatlarına görə rəhbərliyin və idarəetməyə məsul şəxslərin məsuliyyəti

Rəhbərlik konsolidasiya edilmiş maliyyə hesabatlarının MHBS Uçotu Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, eləcə də fırıldaqçılıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik Qrupu ləğv etmək və ya fəaliyyətini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, Qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fəaliyyətin fasiləsizliyinə dair məlumatların açıqlanmasına və fəaliyyətin fasiləsizliyi prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetməyə məsul şəxslər Qrupun maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti

Bizim məqsədimiz bütövlükdə konsolidasiya edilmiş maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kifayət qədər əminlik əldə etmək və rəyimizin daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik əminliyin yüksək səviyyəsidir, lakin Beynəlxalq Audit Standartlarına uyğun olaraq auditin aparılması zamanı mövcud olan bütün əhəmiyyətli təhriflərin həmişə aşkar olunacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində yarana bilər və fərdi və ya məcmu olaraq istifadəçilərin konsolidasiya edilmiş maliyyə hesabatları əsasında qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmək ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

Beynəlxalq Audit Standartlarına uyğun aparılan auditin bir hissəsi olaraq, biz audit zamanı peşəkar mühakimə tətbiq edir və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Konsolidasiya edilmiş maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olması riskini müəyyən edir və qiymətləndirir, həmin risklərə qarşı audit prosedurlarını hazırlayır və həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhvlər nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən daha yüksəkdir, çünki fırıldaqçılığa gizli sövdələşmə, saxtakarlıq, məlumatların bilərəkdən göstərilməməsi, yanlış təqdimat və ya daxili nəzarət sistemində sui-istifadə halları daxil ola bilər.

- Qrupun daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarını işləyib hazırlamaq üçün daxili nəzarət sistemi üzrə məlumat əldə edirik.

- Rəhbərlik tərəfindən istifadə edilən uçot siyasətlərinin uyğunluğunu, habelə uçot təxminləri və müvafiq açıqlamaların münasibliyini qiymətləndiririk.

- Fəaliyyətin fasiləsizliyi prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Qrupun fasiləsiz fəaliyyət göstərmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və şəraitlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair qənaətə gəlirik. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu qənaətinə gəldikdə, auditor rəyimizdə konsolidasiya edilmiş maliyyə hesabatlarındakı müvafiq məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması yetərli olmadıqda, rəyimizdə dəyişiklik etməliyik. Nəticələrimiz auditor

hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və şəraitlər Qrupun fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.

- Məlumatların açıqlanması da daxil olmaqla, konsolidasiya edilmiş maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin konsolidasiya edilmiş maliyyə hesabatlarında düzgün təqdim edilib-edilmədiyini qiymətləndiririk.

- Konsolidasiya edilmiş maliyyə hesabatlarına dair rəy formalaşdırmaq üçün əsas kimi Qrup daxilindəki müəssisələrin və ya struktur vahidlərinin maliyyə məlumatlarına dair yetərli müvafiq audit sübutları əldə etmək üçün qrup auditini planlaşdırır və həyata keçiririk. Biz qrup auditinin məqsədləri üçün yerinə yetirilmiş audit işinin istiqamətləndirilməsi, nəzarəti və təhlil edilməsinə görə cavabdehik. Biz auditor rəyimizə görə tam məsuliyyət daşıyırıq.

Biz idarəetməyə məsul şəxslərə digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar barədə məlumat veririk.

PricewaterhouseCoopers Audit Azerbaijan LLC

Bakı, Azərbaycan Respublikası

29 dekabr 2025-ci il

Min Azərbaycan Manatı ilə	Qeyd	31 dekabr 2024	31 dekabr 2023 (düzəliş edilmiş)	1 yanvar 2023 (düzəliş edilmiş)
AKTİVLƏR				
Uzunmüddətli aktivlər				
Əsas vəsaitlər	8	1,556,186	1,461,242	1,226,408
İstifadə hüquqlu aktivlər	9	354,327	303,160	519,170
Qeyri-maddi aktivlər	10	14,982	7,412	6,748
Borc qiymətli kağızlara investisiyalar	15	10,000	-	-
Verilmiş avanslar	11	202,186	165,280	75,037
Sair uzunmüddətli aktivlər	12	33,384	27,041	34,172
Cəmi uzunmüddətli aktivlər		**2,171,065**	**1,964,135**	**1,861,535**
Qısamüddətli aktivlər				
Mal-material ehtiyatları	13	100,396	70,205	33,629
Ticarət və digər debitor borcları	14	363,100	364,280	256,263
Pul vəsaitləri və onların ekvivalentləri	16	264,870	215,982	88,289
Müddətli depozitlər		30,000	-	-
Sair qısamüddətli aktivlər		1,295	298	463
Cəmi qısamüddətli aktivlər		**759,661**	**650,765**	**378,644**
CƏMİ AKTİVLƏR		**2,930,726**	**2,614,900**	**2,240,179**
KAPİTAL				
Nizamnamə kapitalı	17	823,975	823,975	823,975
Əlavə kapital qoyuluşu		2,626,091	271,233	215,758
Yığılmış zərər		(1,365,348)	(1,582,014)	(1,768,612)
Sair ehtiyatlar	29	43,855	-	-
CƏMİ KAPİTAL		**2,128,573**	**(486,806)**	**(728,879)**
ÖHDƏLİKLƏR				
Uzunmüddətli öhdəliklər				
Borc vəsaitləri	18	203,754	808,045	850,342
İcarə öhdəlikləri	9	77,998	123,038	330,319
Təxirə salınmış mənfəət vergisi öhdəlikləri	26	95,910	99,002	75,926
Təxirə salınmış gəlirlər	20	10,004	6,144	20,543
Cəmi uzunmüddətli öhdəliklər		**387,666**	**1,036,229**	**1,277,130**
Qısamüddətli öhdəliklər				
Borc vəsaitləri	18	28,462	1,795,701	1,473,187
İcarə öhdəlikləri	9	117,985	55,562	66,253
Ticarət və digər kreditor borcları	22	172,597	130,558	78,853
Qazanılmamış gəlir	19	85,215	77,945	60,487
Təxirə salınmış gəlirlər	20	1,706	1,309	5,074
Sair qısamüddətli öhdəliklər		8,522	4,402	8,074
Cəmi qısamüddətli öhdəliklər		**414,487**	**2,065,477**	**1,691,928**
CƏMİ ÖHDƏLİKLƏR		**802,153**	**3,101,706**	**2,969,058**
CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR		**2,930,726**	**2,614,900**	**2,240,179**

26 dekabr 2025-ci il tarixində dərc olunmaq üçün təsdiqlənmiş və imzalanmışdır:

Samir Rzayev
İdarə Heyətinin sədri

Zaur Dibirov
Maliyyə və Mühasibat Uçotu idarəsinin rəisi

Min Azərbaycan Manatı ilə	Qeyd	2024	2023 (düzəliş edilmiş)
Daşımalar və digər xidmətlər üzrə gəlirlər	23	1,954,533	1,467,143
Əməliyyat icarəsi üzrə gəlirlər		17,860	6,018
Dövlətdən alınmış subsidiyalar		22,400	21,240
Yanacaq xərcləri		(456,141)	(331,939)
İşçi heyəti üzrə xərclər		(250,112)	(171,625)
Amortizasiya xərcləri		(206,076)	(157,113)
Hava gəmilərinə və digər əsas vəsaitlərə texniki xidmət xərcləri		(153,109)	(77,549)
Sair əməliyyat xərcləri	24	(624,362)	(449,086)
Maliyyə aktivləri üzrə xalis dəyərsizləşmə zərərinin (yaradılması)/qaytarılması	14	(8,361)	1,769
Sair gəlirlər	8	24,240	5,476
Əməliyyat mənfəəti		**320,872**	**314,334**
Maliyyə gəlirləri – faiz gəlirləri		9,515	3,415
Maliyyə xərcləri	25	(40,512)	(161,088)
Məzənnə fərqi üzrə xalis zərər		(3,045)	(11,217)
Vergidən əvvəlki mənfəət		**286,830**	**145,444**
Mənfəət vergisi xərci	26	(70,164)	(28,846)
İL ÜZRƏ MƏNFƏƏT		**216,666**	**116,598**
İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR		**216,666**	**116,598**

Min Azərbaycan Manatı ilə	Qeyd	Nizamnamə kapitalı	Əlavə kapital qoyuluşu	Sair ehtiyatlar	Yığılmış zərər	Cəmi
31 dekabr 2022-ci il tarixinə düzəlişdən əvvəlki qalıq		**823,975**	**171,258**	**-**	**(1,767,498)**	**(772,265)**
Səhvlərin düzəldilməsi (vergilər çıxılmaqla)	3	-	44,500	-	(1,114)	43,386
1 yanvar 2023-cü il tarixinə düzəlişdən sonrakı qalıq		**823,975**	**215,758**		**(1,768,612)**	**(728,879)**
İl üzrə mənfəət (düzəliş edilmiş)		-	-	-	116,598	116,598
2023-cü il üzrə cəmi məcmu gəlir (düzəliş edilmiş)		-	-	-	116,598	116,598
Əlavə kapital qoyuluşunun tanınmasının dayandırılması		-	(70,000)	-	70,000	-
Səhmdar tərəfindən kapital qoyuluşu		-	125,475	-	-	125,475
31 dekabr 2023-cü il tarixinə düzəlişdən sonrakı qalıq		**823,975**	**271,233**		**(1,582,014)**	**(486,806)**
31 dekabr 2023-cü il tarixinə düzəlişdən əvvəlki qalıq		**823,975**	**226,733**		**(1,579,815)**	**(529,107)**
1 yanvar 2024-cü il tarixinə düzəlişdən sonrakı qalıq		**823,975**	**271,233**		**(1,582,014)**	**(486,806)**
İl üzrə mənfəət		-	-	-	216,666	216,666
2024-cü il üzrə cəmi məcmu gəlir		**-**	**-**	**-**	**216,666**	**216,666**
Bizneslərin birləşməsi	29	-	-	43,855	-	43,855
Borc öhdəliyinin ləğv edilməsi	18	-	2,354,858	-	-	2,354,858
31 dekabr 2024-cü il tarixinə qalıq		**823,975**	**2,626,091**	**43,855**	**(1,365,348)**	**2,128,573**

Min Azərbaycan Manatı ilə	Qeyd	2024	2023 (düzəliş edilmiş)
Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti			
Vergidən əvvəlki mənfəət		286,830	145,444
Düzəlişlər:			
Köhnəlmə və amortizasiya xərcləri	8,9,10	206,076	157,113
Ticarət və digər debitor borcları və verilmiş avanslar üzrə ehtiyatlarda dəyişiklik	14	8,361	(1,249)
Mal-material ehtiyatlarının köhnəlməsi üzrə ehtiyatda dəyişiklik	13	3,563	5,916
Əvəzləşdirilə bilən ƏDV üzrə ehtiyatda dəyişiklik		(140)	(1,184)
Əsas vəsaitlər və istifadə hüquqlu aktivlərin dəyərsizləşməsi	8,9	19,232	18,620
Əsas vəsaitlərin satışı üzrə gəlir çıxılmaqla zərər		3,801	89
Maliyyə gəlirləri		(9,515)	(3,415)
Maliyyə xərcləri	25	40,512	161,088
Məzənnə fərqi üzrə xalis zərər		3,045	11,217
Qudvilin dəyərsizləşməsi	29	7,657	-
Sair		412	-
Dövriyyə kapitalında dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti		**569,834**	**493,639**
Ticarət və digər debitor borclarında artım		(63,758)	(176,514)
Mal-material ehtiyatlarında artım		(32,582)	(35,184)
Ticarət və digər kreditor borclarında artım		3,604	77,289
Təxirə salınmış gəlirlərdə artım/(azalma)		4,257	(18,164)
Qazanılmamış gəlirdə artım		7,270	17,458
Sair qısamüddətli öhdəliklərdə (azalma)/artım		(39,090)	1,073
Dövriyyə kapitalında dəyişikliklər			
Əldə edilmiş faiz gəlirləri		9,404	3,415
Ödənilmiş faizlər		(31,365)	(36,975)
Əməliyyat fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri		**427,574**	**326,037**
İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti			
Əsas vəsaitlərin alınması		(166,692)	(54,316)
Əsas vəsaitlər və istifadə hüquqlu aktivlər üzrə ödənilmiş avanslar		(42,405)	(115,719)
İstifadə hüquqlu aktivlər üzrə əlavələr		(3,099)	(4,232)
Törəmə müəssisənin alınması, əldə edilmiş pul vəsaitləri çıxılmaqla	29	5,535	-
Sair məcmu gəlirdə ədalətli dəyərlə əks etdirilən borc qiymətli kağızlarının alınması	15	(10,000)	-
Müddətli depozitlərin yerləşdirilməsi		(30,000)	-
Qeyri-maddi aktivlərin alınması	10	(9,926)	(2,458)
İnvestisiya fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri		**(256,587)**	**(176,725)**
Maliyyələşdirmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti			
Borc vəsaitləri üzrə daxilolmalar		-	232,900
Borc vəsaitləri üzrə ödənişlər		(25,959)	(74,797)
İcarə öhdəlikləri üzrə əsas borcun ödənilməsi		(91,656)	(299,345)
Səhmdar tərəfindən kapital qoyuluşları (səhm emissiyasından başqa)		-	125,475
Maliyyələşdirmə fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri		**(117,615)**	**(15,767)**
Məzənnə dəyişikliklərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri		(4,484)	(5,852)
İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri	16	**215,982**	**88,289**
İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri	16	**264,870**	**215,982**

1 "Azərbaycan Hava Yolları" QSC və onun fəaliyyəti

Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatları Beynəlxalq Maliyyə Hesabatı Standartlarına ("MHBS Uçotu Standartları") uyğun olaraq 31 dekabr 2024-cü il tarixində başa çatan il üzrə "Azərbaycan Hava Yolları" QSC ("Şirkət") və onun törəmə müəssisələri ("Qrup") üçün hazırlanmışdır.

Şirkət dövlət konserni kimi 17 avqust 1992-ci ildə təsis edilmişdir və Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmışdır. 2008-ci ilin aprel ayında Azərbaycan Respublikası Prezidentinin sərəncamı əsasında Şirkət Qapalı Səhmdar Cəmiyyəti kimi yenidən təşkil edilmişdir. Şirkət Azərbaycan Respublikasının Milli aviadaşıyıcısı kimi müəyyən edilmişdir. 31 dekabr 2024 və 2023-cü il tarixlərinə Şirkətin yeganə mülkiyyətçisi Azərbaycan Dövlətidir ("Dövlət").

2021-ci ilin fevral ayında Şirkətin idarəetməsi Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən Maliyyə Nazirliyindən tamamilə dövlət mülkiyyətində olan Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilmişdir. 2024-cü ilin noyabr ayında Şirkətin idarəetməsi Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən Azərbaycan İnvestisiya Holdinqindən (AİH) tamamilə dövlət mülkiyyətində olan Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinə (AZCON) ötürülmüşdür.

Əsas fəaliyyət istiqamətləri. Qrupun əsas fəaliyyət istiqamətlərinə aşağıdakılar daxildir:

- Kommersiya əsaslı hava ilə daşıma xidməti olan sərnişin və yük daşımaları;
- Aeronaviqasiyası xidmətləri – Azərbaycan Respublikası üzərindən uçuşların təmin edilməsi və marşrut üzrə aeronaviqasiya, habelə ölkə ərazisində meteoroloji xidmətlərin göstərilməsi;
- Hava gəmilərinə yanacaqdoldurma xidmətləri – Azərbaycan Respublikasında uçuş həyata keçirən yerli və xarici sərnişin və yük aviaşirkətlərinə yanacaqdoldurma xidmətlərinin göstərilməsi;
- Azərbaycan Respublikasının hava limanlarında terminalları və infrastruktura sahiblik və onların istismarı, habelə aviasiya təhlükəsizliyi xidmətlərinin göstərilməsi; və
- Digər aidiyyəti xidmətlər.

28 iyul 2023-cü il tarixində Qrup 2023-cü ilin oktyabr ayında Azərbaycan Hava Yolları və Buta Hava Yollarının (aşağı büdcəli aviadaşıyıcı və Qrupun struktur bölməsi) vahid AZAL adı altında birləşəcəyini elan etmişdir.

Azərbaycan Respublikasının qanunvericiliyində Qrup təbii monopoliya və hava limanı əməliyyatlarını, qalxma-enmə zolaqlarını və qurğularını təmin edən, həmçinin sərnişin aviasiya xidmətlərini göstərən yeganə təşkilat kimi nəzərdə tutulur. Qrupun başlıca məqsədi Azərbaycanda mülki aviasiyanın inkişaf etdirilməsi və təkmilləşdirilməsidir.

Hüquqi və faktiki ünvanı. Şirkətin hüquqi ünvanı aşağıdakı kimidir: Azadlıq prospekti 11, AZ1000, Bakı şəhəri, Azərbaycan Respublikası. Qrupun faktiki ünvanı aşağıdakı kimidir: AZ1045, Bakı şəhəri, Xəzər rayonu, Heydər Əliyev Beynəlxalq Aeroportu.

Təqdimat valyutası. Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarındakı məbləğlər başqa valyuta göstərilmədiyi halda, Azərbaycan manatı ilə ("AZN") təqdim edilir.

2 Qrupun fəaliyyət mühiti

Azərbaycan Respublikası. Azərbaycan iqtisadiyyatında inkişaf etməkdə olan bazarlara xas müəyyən xüsusiyyətlər müşahidə edilir. Azərbaycan iqtisadiyyatının mövcud və gələcək artımı və dayanıqlığı hökumətin həyata keçirdiyi fiskal və monetar tədbirlərin effektivliyindən, eləcə də xam neft və qazın qiymətlərindən və Azərbaycan manatının sabitliyindən əhəmiyyətli dərəcədə asılıdır.

2024-cü il ərzində Azərbaycan iqtisadiyyatı qlobal geosiyasi və geoiqtisadi risklərin yaratdığı qeyri-müəyyənliklər, qlobal iqtisadi aktivliyin zəifləməsi, enerji qiymətlərində volatillik, o cümlədən, yüksək inflyasiya təzyiqləri fonunda formalaşmışdır. Azərbaycan iqtisadiyyatı hələ də neft-qaz hasilatından asılıdır, lakin ölkənin iqtisadi artımı əsasən qeyri-neft-qaz sektoru hesabına təmin edilir. Neft-qaz qiymətlərində əsasən azalma tendensiyası müşahidə olunsa da, hələ də yüksək olaraq qalmaqdadır. Dövr ərzində neft-qaz sektorunda istehsal olunmuş əlavə dəyərdə azalma, qeyri neft-qaz sektorunda isə artım müşahidə olunmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə 2024-cü ilin ilk yarısında qeyri-neft sektorunun bir çox sahələri üzrə artım müşahidə olunmuşdur. Ən böyük artım turizm sektoru üzrə qeydə alınmışdır ki, bu da pandemiyadan sonra ölkədə bu sektorun sürətlə inkişaf etməsi ilə əlaqədardır.

2 Qrupun fəaliyyət mühiti (davamı)

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən antiinflyasiya xarakterli pul siyasəti üzrə tədbirlər davam etdirilmişdir. Qəbul edilmiş pul siyasəti qərarları inflyasiya təzyiqlərini yumşaltmışdır. İnflyasiya ötən illə müqayisədə azalsa da, pandemiyadan əvvəlki dövrlə müqayisədə yüksək olaraq qalmaqdadır. Fiskal xərclər işğaldan azad edilmiş ərazilərin bərpasının sürətləndirilməsi məqsədilə artırılmışdır. İqtisadi artımın dəstəklənməsi, habelə əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində və işğaldan azad olunmuş ərazilərin bərpası fonunda tədbirlər həyata keçirilmişdir.

Valyuta ehtiyatlarının uzunmüddətli artım dinamikası davam etmişdir. Bütövlükdə ölkənin valyuta ehtiyatları 3.1% artmışdır. 2024-cü il ərzində beynəlxalq reytinq agentlikləri Azərbaycanın xarici və yerli valyutalarda əvvəlki müsbət suveren kredit reytinqlərini təkrar təsdiqləyiblər.

Siyasi və iqtisadi vəziyyətin mövcud təsirini proqnozlaşdırmaq çətindir, lakin bunun Azərbaycan iqtisadiyyatına təsiri daha çox ola bilər. Qrupun rəhbərliyi mövcud iqtisadi mühitdə baş verən prosesləri müşahidə edir və Qrupun yaxın gələcəkdə fəaliyyətinin dayanıqlığını və inkişafını təmin etmək üçün qabaqlayıcı tədbirlər görür. Buna baxmayaraq, mövcud iqtisadi vəziyyətin gələcək təsirini qabaqcadan proqnozlaşdırmaq nisbətən mürəkkəb olduğuna görə rəhbərliyin iqtisadi mühitlə bağlı cari proqnozları və təxminləri faktiki nəticələrdən fərqli ola bilər.

Rusiya və Ukrayna arasında müharibə. Cari iqtisadi vəziyyətin uzunmüddətli təsirlərini qabaqcadan proqnozlaşdırmaq çətin olduğundan, rəhbərliyin mövcud iqtisadi mühitə dair proqnoz və təxminləri faktiki nəticələrdən fərqli ola bilər.

İqlim dəyişmələri. Rəhbərlik iqlim dəyişmələrinin Qrupa mümkün təsirləri ilə bağlı məlumatları nəzərə alır. Hazırkı mərhələdə bu amilin konsolidasiya edilmiş maliyyə hesabatlarına əhəmiyyətli təsiri müşahidə olunmur və iqlim dəyişmələrinin Qrupun fəaliyyətinə və biznes planlarına gələcək təsirini proqnozlaşdırmaq çətindir. Bununla belə, rəhbərlik bu sahədə hadisələrin inkişafını izləməklə yanaşı, Qrupun dayanıqlı inkişafını təmin etmək məqsədilə zəruri tədbirlərin görülməsini, həmçinin fəaliyyət göstərdiyi sahədə dövlət tərəfindən qəbul ediləcək bütün göstəriş və təlimatlara riayət olunmasını təmin edəcəkdir.

3 Maliyyə hesabatlarının tərtibatının əsasları

Maliyyə hesabatlarının tərtibatının əsasları. Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatları maliyyə alətlərini və sair məcmu gəlirdə ədalətli dəyərlə əks etdirilən maliyyə alətlərini ilkin olaraq ədalətli dəyərlə tanımaqla, Beynəlxalq Maliyyə Hesabatı Standartlarına ("MHBS Uçotu Standartları") uyğun olaraq ilkin dəyər metoduna əsasən hazırlanmışdır. Bu konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanmasında istifadə edilən mühüm mühasibat uçotu prinsipləri hər bir müvafiq Qeyddə açıqlanır. Həmin uçot prinsipləri başqa cür nəzərdə tutulmadığı halda, təqdim edilən bütün dövrlərə ardıcıl şəkildə tətbiq edilmişdir (Qeyd 5-ə və aşağıda açıqlanan səhvlərin düzəldilməsi və maliyyə hesabatlarının təqdimatında dəyişikliklərə baxın).

Konsolidasiya edilmiş maliyyə hesabatlarının MHBS Uçotu Standartlarına uyğun olaraq hazırlanması bəzi əhəmiyyətli uçot təxminlərinin istifadəsini tələb edir. Bundan əlavə, uçot siyasətini tətbiq edərkən rəhbərlik öz mülahizələrini irəli sürməlidir. Daha yüksək mülahizə tələb edən və ya mürəkkəb olan sahələr, həmçinin konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanmasında uçot təxminləri və fərziyyələrin əhəmiyyətli olduğu sahələr Qeyd 4-də açıqlanır.

Əməliyyatlar və qalıqlar. Monetar aktivlər və öhdəliklər Azərbaycan Respublikası Mərkəzi Bankının ("AMB") müvafiq hesabat dövrünün sonuna qüvvədə olan rəsmi valyuta məzənnəsinə uyğun olaraq hər bir müəssisənin əməliyyat valyutasına çevrilir. Belə əməliyyatlar üzrə hesablaşmaların həyata keçirilməsi və monetar aktiv və öhdəliklərin AMB-nin ilin sonuna müəyyən etdiyi rəsmi məzənnə ilə hər bir müəssisənin əməliyyat valyutasına çevrilməsi nəticəsində yaranan gəlir və zərər mənfəət və ya zərərdə "məzənnə fərqi üzrə xalis zərər" kimi tanınır. Borc öhdəlikləri və pul vəsaitləri və onların ekvivalentləri ilə bağlı məzənə fərqlərindən yaranan gəlir və zərər konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda "maliyyə gəlirləri və ya xərcləri" kimi təqdim edilir. İlin sonuna qüvvədə olan məzənnə ilə çevrilmə ilkin dəyərlə qiymətləndirilən qeyri-monetar maddələrə tətbiq edilmir.

Maliyyə hesabatlarının təqdimatında dəyişikliklər və səhvlərin düzəldilməsi. Qrup maliyyə hesabatlarının təqdimatı və səhvlərin düzəldilməsi ilə bağlı bir sıra dəyişikliklər etmişdir. Konsolidasiya edilmiş maliyyə hesabatlarının yenidən təqdim edilməsinə səbəb olan dörd ayrı hal mövcuddur. Bu halların hər birinin konsolidasiya edilmiş maliyyə hesabatlarına təsiri aşağıdakı cədvəllərdə "Düzəliş 1", "Düzəliş 2", "Düzəliş 3" və "Düzəliş 4" başlıqları altında təsvir edilmişdir. Bu düzəlişlərin əsaslandırılması müvafiq cədvəllərdən sonra ayrıca açıqlanmışdır.

3 Maliyyə hesabatlarının tərtibatının əsasları (davamı)

Yenidən təsnifləşdirmələrin və səhvin düzəldilməsinin 31 dekabr 2023-cü il tarixinə konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabata təsiri aşağıdakı kimi olmuşdur:

Min Azərbaycan Manatı ilə	Düzəlişlərdən əvvəlki qalıq	Düzəliş 1	Düzəliş 2	Hər sətir maddəsi üzrə düzəlişlərin ümumi təsiri	31 dekabr 2023-cü il tarixinə düzəlişlərdən sonrakı qalıq
Dövlət subsidiyası üzrə öhdəlik	42,301	(42,301)	-	(42,301)	-
Əlavə kapital qoyuluşu	226,733	44,500	-	44,500	271,233
Yığılmış zərər	(1,579,815)	(2,199)	-	(2,199)	(1,582,014)
Ticarət və digər debitor borcları	389,897	-	(25,617)	(25,617)	364,280
Ticarət və digər kreditor borcları	(156,175)	-	25,617	25,617	(130,558)

Yenidən təsnifləşdirmələrin və səhvin düzəldilməsinin 1 yanvar 2023-cü il tarixinə konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabata təsiri aşağıdakı kimi olmuşdur:

Min Azərbaycan Manatı ilə	Düzəlişlərdən əvvəlki qalıq	Düzəliş 1	Düzəliş 2	Hər sətir maddəsi üzrə düzəlişlərin ümumi təsiri	1 yanvar 2023-cü il tarixinə düzəlişlərdən sonrakı qalıq
Dövlət subsidiyası üzrə öhdəlik	43,386	(43,386)	-	(43,386)	-
Əlavə kapital qoyuluşu	171,258	44,500	-	44,500	215,758
Yığılmış zərər	(1,767,498)	(1,114)	-	(1,114)	(1,768,612)
Ticarət və digər debitor borcları	257,315	-	(1,052)	(1,052)	256,263
Ticarət və digər kreditor borcları	(79,905)	-	1,052	1,052	(78,853)

Yenidən təsnifləşdirmələrin və səhvin düzəldilməsinin 31 dekabr 2023-cü il tarixinə konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabata təsiri aşağıdakı kimi olmuşdur:

Min Azərbaycan Manatı ilə	Düzəlişlərdən əvvəlki qalıq	Düzəliş 1	Düzəliş 3	Düzəliş 4	Hər sətir maddəsi üzrə düzəlişlərin ümumi təsiri	31 dekabr 2023-cü il tarixinə düzəlişlərdən sonrakı qalıq
Əməliyyat xərcləri	(1,177,336)	(1,085)	1,187,312	(8,891)	1,177,336	-
Sair gəlirlər	-	-	-	5,476	5,476	5,476
Maliyyə gəlirləri	-	-	-	3,415	3,415	3,415
Yanacaq xərcləri	-	-	(331,939)	-	(331,939)	(331,939)
İşçi heyəti üzrə xərclər	-	-	(171,625)	-	(171,625)	(171,625)
Köhnəlmə və amortizasiya xərcləri	-	-	(157,113)	-	(157,113)	(157,113)
Hava gəmilərinə və digər əsas vəsaitlərə texniki xidmət xərcləri	-	-	(77,549)	-	(77,549)	(77,549)
Sair əməliyyat xərcləri	-	-	(449,086)	-	(449,086)	(449,086)

3 Maliyyə hesabatlarının tərtibatının əsasları (davamı)

Səhvin düzəldilməsinin 31 dekabr 2023-cü il tarixinə konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabata təsiri aşağıdakı kimi olmuşdur:

Min Azərbaycan Manatı ilə	Düzəlişlərdən əvvəlki qalıq	Düzəliş 1	Hər sətir maddəsi üzrə düzəlişlərin ümumi təsiri	31 dekabr 2023-cü il tarixinə düzəlişlərdən sonrakı qalıq
Əlavə kapital qoyuluşu	226,733	44,500	44,500	271,233
Yığılmış zərər	(1,579,815)	(2,199)	(2,199)	(1,582,014)

Səhvin düzəldilməsinin 1 yanvar 2023-cü il tarixinə konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabata təsiri aşağıdakı kimi olmuşdur:

Min Azərbaycan Manatı ilə	Düzəlişlərdən əvvəlki qalıq	Düzəliş 1	Hər sətir maddəsi üzrə düzəlişlərin ümumi təsiri	1 yanvar 2023-cü il tarixinə düzəlişlərdən sonrakı qalıq
Əlavə kapital qoyuluşu	171,258	44,500	44,500	215,758
Yığılmış zərər	(1,767,498)	(1,114)	(1,114)	(1,768,612)

Yenidən təsnifləşdirmələrin və səhvin düzəldilməsinin 31 dekabr 2023-cü il tarixinə konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabata təsiri aşağıdakı kimi olmuşdur:

Min Azərbaycan Manatı ilə	Düzəlişlərdən əvvəlki qalıq	Düzəliş 1	Düzəliş 4	Hər sətir maddəsi üzrə düzəlişlərin ümumi təsiri	31 dekabr 2023-cü il tarixinə düzəlişlərdən sonrakı qalıq
Vergidən əvvəlki mənfəət	146,529	(1,085)	-	(1,085)	145,444
Dövlət subsidiyasının amortizasiyası	(1,085)	1,085	-	1,085	-
Maliyyə gəlirləri	-	-	(3,415)	(3,415)	(3,415)
Alınmış faiz gəlirləri	-	-	3,415	3,415	3,415

Hər bir yenidən təsnifləşdirmə düzəlişinin təfərrüatları aşağıda təqdim olunur:

Düzəliş 1. Hesabat ilində Qrup hökumətin təşəbbüsü ilə 2021-ci ilin dekabr ayında Qrupa ötürülmüş "Füzuli Beynəlxalq Hava Limanı" MMC-nin konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda təsnifatını "dövlət subsidiyası" kateqoriyasından "kapital qoyuluşu" kateqoriyasına dəyişdirmişdir. Bu səhvin düzəldilməsi konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir, konsolidasiya edilmiş kapitalda dəyişikliklər və konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatlara da təsir etmişdir.

Hava limanı işğaldan azad edilmiş və az inkişaf etmiş ərazidə yerləşdiyi və əsasən yüksək səviyyəli dövlət rəsmilərinin, xarici nümayəndə heyətlərinin və regionun bərpasında iştirak edən biznes nümayəndələrinin səfərlərinə xidmət edən məhdud kommersiya sərnişin reysləri ilə fəaliyyət göstərdiyi üçün ötürülmə tarixinə yaxın gələcəkdə mənfəət gətirəcəyi gözlənilmirdi. Belə ötürülmə Qrupun mövcud fəaliyyətini təkmilləşdirməkdə onu dəstəkləmədiyi və ya yardım göstərilmədiyi halda onu yeni fəaliyyətə təşviq etmək məqsədi daşımadığı üçün dövlət yardımı kimi qiymətləndirilə bilməzdi. Bu əməliyyatın əsas məqsədi dövlətə məxsus bütün aviasiya infrastrukturunu vahid hüquqi və idarəetmə strukturu altında birləşdirmək olmuşdur. "Füzuli Beynəlxalq Hava Limanı" MMC biznes subyekti hesab edilmədiyindən, bu əməliyyat aktivlər qrupunun əldə edilməsi kimi qiymətləndirilmişdir. Rəhbərlik hesab edir ki, hökumət MUBS 20 standartına əsasən bu əməliyyatda dövlət yardımı göstərən orqan kimi deyil, səhmdar qismində çıxış etmişdir.

3 Maliyyə hesabatlarının tərtibatının əsasları (davamı)

Düzəliş 2. Hesabat ili ərzində Qrup qüvvədə olan vergi qanunvericiliyinin belə qarşılıqlı əvəzləşdirməyə icazə verdiyi hallara uyğun olaraq, konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda vergi üzrə debitor və kreditor borclarını qarşılıqlı əvəzləşdirilmiş şəkildə təqdim etmişdir. Vergi üzrə debitor və kreditor borcları əlavə dəyər vergisi, ödəmə mənbəyində tutulan vergi, əmlak vergisi, torpaq vergisi və fiziki şəxslərin gəlir vergisindən yaranır. Bu əvəzləşdirmə Qrupun hər bir hüquqi şəxsi üzrə ayrıca aparılmışdır. Rəhbərlik bu düzəlişləri MUBS 12 standartına əsasən vergi üzrə debitor və kreditor borclarının əvəzləşdirilməsi meyarlarının hər ikisinin yerinə yetirildiyini nəzərə alaraq etmişdir.

Düzəliş 3. Qrup əvvəlki illərdə əməliyyat xərclərinin tərkibində göstərilmiş yanacaq xərcləri, işçi heyəti üzrə xərclər, köhnəlmə və amortizasiya xərcləri, hava gəmilərinə və digər əsas vəsaitlərə texniki xidmət xərcləri kimi ən əhəmiyyətli xərcləri konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda ayrıca təqdim etmək məqsədilə yenidən təsnifləşdirmişdir. Rəhbərlik bu dəyişikliklərin istifadəçilər üçün konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatın aydınlığını və faydalılığını artırdığını hesab edir. Təqdimatın hesabat dövrləri üzrə ardıcıllığını təmin etmək məqsədilə, müqayisəli dövrün göstəricilərinə də müvafiq düzəlişlər edilmişdir.

Düzəliş 4. Hesabat ili ərzində Qrup müddətli və overnayt depozitlər üzrə faiz gəlirlərini, eləcə də əsasən sığorta ödənişləri, dövlət subsidiyası üzrə öhdəliyin amortizasiyası, üçüncü tərəflərdən əvəzsiz alınmış əsas vəsaitlər və üzləşmə fərqlərindən yaranan gəlirləri sair əməliyyat xərcləri yenidən təsnifləşdirmiş və bu məbləğlər üzrə qalıqlar əhəmiyyətli olduğundan onları konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda, həmçinin konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatda ayrıca təqdim etmişdir. Təqdimatın ardıcıllığını təmin etmək məqsədilə, Qrup əvvəlki dövrün göstəricilərinə də düzəlişlər etmişdir.

Qrup hesab edir ki, bu dəyişikliklər ən son maliyyə göstəriciləri ilə bağlı etibarlı və daha uyğun məlumat təmin edir. MUBS 8-ə uyğun olaraq, bu dəyişikliklər retrospektiv şəkildə tətbiq edilmiş və müqayisəli dövrün göstəriciləri müvafiq olaraq dəyişdirilmişdir.

Yuxarıda təsvir olunan səhvlərin düzəldilməsi və yenidən təsnifləşdirmələrə görə 1 yanvar 2023-cü il tarixinə üçüncü konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarında təqdim edilir.

Konsolidasiya edilmiş maliyyə hesabatlarının təsdiqlənməsindən sonra onlara dəyişikliyin edilməsi. Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatları imzalandıqdan sonra onlara ediləcək hər hansı dəyişiklik bu hesabatların buraxılışını təsdiqləmiş Qrup rəhbərliyi tərəfindən təsdiqlənməlidir.

4 Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr

Qrup konsolidasiya edilmiş maliyyə hesabatlarında tanınan məbləğlərə və aktiv və öhdəliklərin balans dəyərinə növbəti maliyyə ili ərzində təsir göstərən ehtimallar və mülahizələr irəli sürür. Həmin ehtimallar və mülahizələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edilir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik, həmçinin peşəkar ehtimallar və təxminlər irəli sürür. Konsolidasiya edilmiş maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan təxminlərə aşağıdakılar daxildir:

Əlaqəli tərəflərlə əməliyyatların ilkin tanınması – ətraflı məlumat üçün Qeyd 7-yə baxın.

GKZ-nin qiymətləndirilməsi – ətraflı məlumat üçün Qeyd 14 və 30-a baxın.

ƏDV məbləğlərinin əvəzləşdirilməsi – ətraflı məlumat üçün Qeyd 14-ə baxın.

Əsas vəsaitlərin faydalı istifadə müddətləri – ətraflı məlumat üçün Qeyd 8-ə baxın.

Əsas vəsaitlər üzrə dəyərsizləşmənin qiymətləndirilməsi – ətraflı məlumat üçün Qeyd 8-ə baxın.

İcarə öhdəliklərinin müəyyən edilməsi üçün tətbiq olunan diskont dərəcələri – ətraflı məlumat üçün Qeyd 9-a baxın.

Borc öhdəliyinin ləğv edilməsi – ətraflı məlumat üçün Qeyd 18-ə baxın.

4 Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr (davamı)

Ekoloji, Sosial və İdarəetmə (ESİ) prinsipləri - İqlim dəyişmələri və onunla əlaqəli risklərin nəzərə alınması. Qrup mütəmadi olaraq iqlim dəyişmələri ilə əlaqəli fiziki riskləri (məsələn, ekstremal hava şəraiti və temperaturun artmasının təsiri), siyasət dəyişikliklərini və dekarbonizasiya tədbirlərinin iqtisadi təsirlərini qiymətləndirir və bu risklərin Qrupun fəaliyyətinə mümkün təsirlərini təhlil edir.

5 Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi

Aşağıdakı yeni standartlar və onlara dəyişikliklər 1 yanvar 2024-cü il tarixindən qüvvəyə minmişdir:

MHBS 16-ya ("İcarələr") dəyişikliklər - Satış və geriyə icarə öhdəliyi (22 sentyabr 2022-ci ildə dərc olunub və 1 yanvar 2024-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Dəyişikliklər MHBS 15-in tələblərinə uyğun olaraq satış kimi uçota alınmalı olan satış və geriyə icarə əməliyyatlarına aiddir. Bu dəyişikliklərə əsasən satıcı-icarəyə götürən əməliyyat nəticəsində yaranan öhdəlikləri sonradan elə şəkildə qiymətləndirməlidir ki, aktiv üzərində saxladığı istifadə hüququ ilə bağlı hər hansı gəliri və ya zərəri tanımasın. Bu, hətta öhdəlik indeks və ya dərəcə ilə əlaqəli olmayan dəyişkən ödənişlər tələb etsə belə, gəlirin tanınmasının təxirə salınmasını nəzərdə tutur.

MUBS 1-ə dəyişikliklər – Öhdəliklərin qısamüddətli və ya uzunmüddətli kimi təsnifləşdirilməsi (ilkin olaraq 23 yanvar 2020-ci ildə dərc olunub və sonradan 15 iyul 2020-ci il və 31 oktyabr 2022-ci il tarixlərində dəyişikliklər edilmiş, yekun olaraq 1 yanvar 2024-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Bu dəyişikliklər hesabat dövrünün sonunda mövcud olan hüquqlardan asılı olaraq, öhdəliklərin qısamüddətli və ya uzunmüddətli kimi təsnifləşdirildiyini izah edir. Əgər müəssisə hesabat dövrünün sonunda öhdəliklərin icrasını ən azı on iki ay müddətinə təxirə salmaq üçün əsaslı hüquqa malikdirsə, o zaman öhdəliklər uzunmüddətli kimi təsnifləşdirilir. Yeni dəyişikliklər belə hüququn qeyri-şərtsiz olmasını artıq tələb etmir. 2022-ci ilin oktyabr ayında edilmiş dəyişikliklərə əsasən hesabat tarixindən sonra riayət edilməli olan xüsusi kredit şərtləri hesabat tarixində öhdəliyin cari və ya uzunmüddətli kimi təsnifləşdirilməsinə təsir etmir. Rəhbərliyin hesabat tarixindən sonrakı dövr ərzində öhdəliyin icrasını təxirə salmaq hüququnun istifadəsinə dair gözləntiləri öhdəliklərin təsnifatına təsir göstərmir. Öhdəlik hər hansı şərtin hesabat tarixində və ya ondan əvvəl pozulduğu halda qısamüddətli kimi təsnifləşdirilir (hətta kreditor bu şərtin pozulması ilə bağlı hesabat dövründən sonra rəsmi razılıq təqdim etsə belə). Kredit müqaviləsinin şərti hesabat tarixindən sonra pozularsa, kredit uzunmüddətli öhdəlik kimi təsnifləşdirilir. Bundan əlavə, dəyişikliklər müəssisənin kapitala çevirməklə ödəyə bildiyi borclar üzrə təsnifat tələblərini nəzərdə tutur. 'Ödəmə' dedikdə öhdəliyin nağd pul, özündə iqtisadi səmərəni təcəssüm etdirən digər resurslar və ya müəssisənin öz pay alətləri ilə ödənilməsi nəzərdə tutulur. Bu dəyişikliklər kapitala konvertasiya oluna bilən alətlər üçün istisnanı nəzərdə tutur, lakin bu istisna yalnız kombinə edilmiş maliyyə alətinin ayrıca komponenti şəklində pay aləti kimi təsnifləşdirilən konvertasiya seçiminin nəzərdə tutulduğu maliyyə alətlərinə aiddir.

MUBS 7 "Pul vəsaitlərinin hərəkəti haqqında hesabat" və MHBS 7-yə dəyişikliklər "Maliyyə alətləri: Açıqlamalar: Təchizatçıların maliyyələşdirmə razılaşmaları" (25 may 2023-cü ildə dərc olunub). Maliyyə hesabatlarının istifadəçilərinin maliyyələşdirmə razılaşmalarının səhv və ya yanlış açıqlanması ilə bağlı narahatlıqlarına cavab olaraq, Beynəlxalq Mühasibat Standartları Şurası (IASB) 2023-cü ilin may ayında müəssisələrdən təchizatçıların maliyyələşdirmə razılaşmaları (SFA) haqqında məlumatların açıqlanmasını tələb etmək üçün MUBS 7 və MHBS 7-yə dəyişikliklər etmişdir. Bu dəyişikliklər maliyyə hesabatlarının istifadəçilərinə həmin razılaşmaların müəssisənin öhdəliklərinə və pul axınlarına, eləcə də likvidlik riskinə məruz qalmasının təsirini qiymətləndirməyə imkan verəcək təchizatçının maliyyələşdirilməsi razılaşmaları haqqında məlumatın açıqlanmasını tələb edir. Əlavə açıqlama tələblərinin məqsədi təchizatçının maliyyə razılaşmalarının şəffaflığını artırmaqdır.

Qeyd olunan dəyişikliklər tanınma və ya qiymətləndirmə prinsiplərinə deyil, yalnız məlumatların açıqlanması tələblərinə təsir edir.

6 Yeni uçot qaydaları

1 yanvar 2025-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün məcburi xarakter daşıyan və Qrup tərəfindən vaxtından əvvəl tətbiq edilməyən bəzi yeni standartlar və onlara dair şərhlər dərc olunmuşdur.

MUBS 21-ə dəyişikliklər "Konvertasiya qabiliyyətinin olmaması" (15 avqust 2023-cü ildə dərc olunub və 1 yanvar 2025-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). 2023-cü ilin avqustunda IASB müəssisələrə iki valyuta arasında konvertasiya qabiliyyətini qiymətləndirməyə və konvertasiya qabiliyyəti olmadıqda spot məzənnəni təyin etməyə kömək göstərmək üçün MUBS 21-ə dəyişikliklər etmişdir. Bu dəyişikliklər qiymətləndirmə tarixində müəyyən məqsəd üçün başqa valyutaya konvertasiya edilə bilməyən xarici valyutada əməliyyat həyata keçirən müəssisəyə təsir edir.

MUBS 21-ə dəyişikliklər spot məzənnənin qiymətləndirilməsi ilə bağlı tələblərin təfərrüatlarını açıqlamır. Əvəzində, həmin dəyişikliklər müəssisənin qiymətləndirmə tarixində spot məzənnəni təyin edə biləcəyi mexanizmi müəyyən edir. Yeni tələblər tətbiq edilərkən müqayisəli dövrün məlumatlarına düzəliş edilməsinə icazə verilmir. Təsirə məruz qalan məbləğlərin ilkin tətbiq tarixində təxmin edilən spot məzənnə ilə konvertasiyası, həmçinin bölüşdürülməmiş mənfəətə və ya məcmu məzənnə fərqləri üzrə ehtiyata düzəlişlərin edilməsi tələb olunur.

Maliyyə alətlərinin təsnifatına və qiymətləndirilməsinə dəyişikliklər - MHBS 9 və MHBS 7-yə dəyişikliklər (30 may 2024-cü ildə dərc olunub və 1 yanvar 2026-cı il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). 30 may 2024-cü il tarixində IASB tərəfindən MHBS 9 və MHBS 7-yə aşağıdakı dəyişikliklər edilmişdir:

a) elektron pul köçürmələri sistemi vasitəsilə icra edilən müəyyən maliyyə öhdəlikləri üçün yeni istisna nəzərə alınmaqla, müəyyən maliyyə aktivlərinin və öhdəliklərinin tanınması və tanınmasının dayandırılması tarixlərini dəqiqləşdirmək;

b) maliyyə aktivlərinin yalnız əsas borc və faiz ödənişlərindən (SPPI) ibarət olub-olmadığını qiymətləndirmək üçün əlavə qaydaları aydınlaşdırmaq və əlavə etmək;

c) pul vəsaitlərinin hərəkətini dəyişdirməyə imkan verən müqavilə şərtləri olan müəyyən maliyyə alətləri üçün yeni açıqlamalar tətbiq etmək (məsələn, Ətraf mühit, Sosial və İdarəetmə (ESG) məqsədlərinə nail olmaq ilə bağlı xüsusiyyətləri olan müəyyən alətlər);

d) sair məcmu gəlirdə ədalətli dəyərlə əks etdirilən kapital alətləri (FVOCI) üçün açıqlamaları yeniləmək.

MHBS 18 "Maliyyə hesabatlarında məlumatların təqdimatı və açıqlanması (9 aprel 2024-cü ildə dərc olunub və 1 yanvar 2027-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). 2024-cü ilin aprel ayında IASB maliyyə hesabatlarında məlumatların təqdimatı və açıqlanması, xüsusilə mənfəət və ya zərər hesabatında dəyişikliklərə yönəlmiş yeni standard olan MHBS 18-i dərc etmişdir. MHBS 18 aşağıdakılarla bağlı əsas yeni anlayışlar təqdim edir.

- mənfəət və ya zərər haqqında hesabatın strukturu;
- maliyyə hesabatlarından kənarda təqdim olunan müəyyən mənfəət və ya zərər göstəriciləri (yəni, rəhbərlik tərəfindən müəyyən edilmiş fəaliyyət göstəriciləri) üçün tələb olunan açıqlamalar; və
- ümumilikdə ilkin maliyyə hesabatlarına və qeydlərə tətbiq edilən aqreqasiya və disaqreqasiya üzrə təkmilləşdirmə prinsipləri.
- MHBS 18 məhdud dəyişikliklərlə bir çox mövcud prinsipləri saxlayaraq, MUBS 1-i əvəz edəcək. Bu standart maliyyə hesabatlarında maddələrin tanınmasına və ya ölçülməsinə təsir etməyəcək, lakin müəssisələrin hesabatda göstərdiyi "əməliyyat mənfəəti və ya zərəri" maddəsini dəyişdirə bilər. Yeni standart 1 yanvar 2027-ci il və ya bu tarixdən sonra başlayan hesabat dövrləri üçün qüvvəyə minir və müqayisəli dövrün məlumatlarına da tətbiq ediləcək.

MHBS 19 "İctimaiyyət qarşısında hesabatlılıq öhdəliyi olmayan törəmə müəssisələr": Məlumat açıqlamaları (9 may 2024-cü ildə dərc olunub və 1 yanvar 2027-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). IASB törəmə müəssisələr üçün yeni MHBS Uçotu Standartı dərc etmişdir. MHBS 19 şərtlərə cavab verən törəmə müəssisələrə məlumat açıqlamalarının həcmini azaltmaqla MHBS Uçotu Standartlarını tətbiq etməyə icazə verir. MHBS 19-un tətbiqi törəmə müəssisələrin maliyyə hesabatlarının istifadəçiləri üçün məlumatların faydalılığını saxlamaqla, maliyyə hesabatlarının hazırlanması xərclərini azaldacaq. Maliyyə hesabatlarının hazırlanması üçün MHBS Uçotu Standartlarını tətbiq edən törəmə müəssisələr öz maliyyə hesabatlarının istifadəçilərinin ehtiyaclarına proporsional ola bilməyən məlumatlar təqdim edirlər. MHBS 19 aşağıdakılar vasitəsilə bu problemlərin aradan qaldırılmasını təmin edəcək:

6 Yeni uçot qaydaları (davamı)

- törəmə müəssisələrə həm ana şirkətin, həm də özlərinin maliyyə hesabatlarının istifadəçilərinin ehtiyaclarını təmin etmək imkanı yaratmaq üçün vahid mühasibat uçotunun tətbiqi;
- məlumatların açıqlanması tələblərinin azaldılması – MHBS 19 maliyyə hesabatlarının istifadəçilərinin ehtiyaclarına daha uyğun olan məlumatları açıqlamağa imkan verəcək.

MHBS 14, Tənzimlənən tariflər üzrə həyata keçirilən fəaliyyətlə bağlı təxirə salınmış ödənişlər (30 yanvar 2014-cü ildə dərc olunub). MHBS 14 Beynəlxalq Maliyyə Hesabatı Standartların ilk dəfə qəbul edən müəssisələrə MHBS Uçotu Standartlarına keçid zamanı tənzimlənən tariflər üzrə həyata keçirilən fəaliyyətə aid olan məbləğləri əvvəlki ümumi qəbul edilmiş uçot standartlarına uyğun olaraq tanımağa icazə verir. Bununla belə, bu standart MHBS Uçotu Standartlarını artıq tətbiq edən, lakin belə məbləğləri tanımayan müəssisələrlə müqayisəliliyi artırmaq məqsədilə, tariflərin tənzimlənmə effektini digər maddələrdən ayrıca təqdim olunmasını tələb edir. Bu standart maliyyə hesabatlarını artıq MHBS Uçotu Standartlarına uyğun təqdim edən müəssisələrə şamil edilmir. Bu standart IASB tərəfindən hələ müəyyən edilməmiş tarixdən qüvvəyə minəcək.

MHBS 10 və MUBS 28-ə dəyişikliklər - "İnvestor tərəfindən aktivlərin asılı və ya birgə müəssisələrə satılması və ya ötürülməsi" (11 sentyabr 2014-cü ildə dərc olunub və IASB tərəfindən müəyyən ediləcək tarixdə və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Bu dəyişikliklər investor tərəfindən aktivlərin asılı və ya birgə müəssisələrə satılması və ya ötürülməsi ilə bağlı MHBS 10 və MUBS 28-in tələbləri arasındakı uyğunsuzluğu aradan qaldırır. Dəyişikliklərin əsas nəticəsi ondan ibarətdir ki, mənfəət və zərər əməliyyatın biznesə aid olduğu halda tam tanınır. Aktivlər özündə biznesi əks etdirmədikdə, hətta bu aktivlər törəmə müəssisəyə məxsus olsa belə, mənfəət və ya zərərin yalnız bir hissəsi tanınır. 2015-ci ildə IASB bu dəyişikliklərin qüvvəyə minmə tarixini qeyri-müəyyən müddətə təxirə salmağa qərar vermişdir.

MHBS Uçotu Standartlarına illik təkmilləşdirmələr (2024-cü ilin iyul ayında dərc olunub və 1 yanvar 2026-cı il tarixindən qüvvəyə minir). MHBS 1-ə edilmiş dəyişikliyə əsasən MHBS Uçotu Standartlarına keçid zamanı hedcinq uçotu üçün "şərtlər" əvəzinə, "şərtlərə cavab verən meyarlara" uyğun gəlmədikdə hedcinq dayandırılmalıdır. Bu dəyişikliyin məqsədi MHBS 1-dəki ifadələr ilə MHBS 9-da nəzərdə tutulan hedcinq uçotu tələbləri arasındakı uyğunsuzluqdan yarana biləcək çaşqınlığı aradan qaldırmaqdır. MHBS 7, ədalətli dəyərin qiymətləndirilməsi zamanı "əhəmiyyətli müşahidə olunmayan ilkin məlumatların" nəzərə alınıb-alınmaması da daxil olmaqla, müəssisənin davamlı olaraq iştirak etdiyi maliyyə aktivlərinin tanınmasının dayandırılması zamanı yaranan hər hansı gəlir və ya zərərin açıqlanmasını tələb edir. Bu yeni ifadə MHBS 13-ə uyğunlaşdırılaraq "müşahidə edilə bilən bazar məlumatlarına əsaslanmayan əhəmiyyətli məlumatlara" istinadı əvəz etmişdir. Bundan əlavə, MHBS 7-nin tətbiqi qaydalarında bəzi nümunələr aydınlaşdırılmış və bu nümunələrin MHBS 7-də istinad edilən bütün tələbləri tamamilə əks etdirmədiyinə dair mətn əlavə edilmişdir. MHBS 16-ya edilmiş dəyişikliyə əsasən icarəyə götürən icarə öhdəliyinin MHBS 9-a uyğun olaraq yerinə yetirildiyini müəyyən etdikdə, yaranmış gəlir və ya zərəri mənfəət və ya zərərdə tanımaq üçün MHBS 9-dakı qaydaları tətbiq etməlidir. Bu dəqiqləşdirmə müəssisənin həmin dəyişikliyi ilk dəfə tətbiq etdiyi illik hesabat dövrünün əvvəlində və ya ondan sonra yerinə yetirilmiş icarə öhdəliklərinə şamil edilir. MHBS 9 və MHBS 15 arasındakı uyğunsuzluğu aradan qaldırmaq üçün ticarət debitor borcları indi ilkin olaraq "öz əməliyyat qiyməti (MHBS 15-də müəyyən edildiyi kimi)" ilə deyil, "MHBS 15 tətbiq edilməklə müəyyən edilmiş məbləğdə" tanınmalıdır. MHBS 10 müəssisənin "de-fakto agent" hesab edildiyi vəziyyətlərdə daha az qəti ifadələrdən istifadə etməsi və MHBS 10, B74-cü maddədə qeyd olunan münasibətin tərəfin de-fakto agent kimi çıxış edib-etmədiyini müəyyən etmək üçün mülahizə tələb etdiyi bir hal olduğunu aydınlaşdırmaq üçün dəyişdirilmişdir. MUBS 7-yə edilmiş düzəlişə əsasən IASB-nin 2008-ci ilin may ayında "Törəmə, birgə və ya asılı müəssisələrə investisiya qoyuluşunun dəyəri" ilə bağlı dərc etdiyi dəyişiklikdən sonra MHBS Uçotu Standartlarından çıxarılan "xərc metodu"na istinadlar silinmişdir.

MHBS 9 və MHBS 7-yə dəyişikliklər - Bərpa olunan enerjinin tədarükü müqavilələri (18 dekabr 2024-cü ildə dərc olunub və 1 yanvar 2026-cı il tarixindən qüvvəyə minir). IASB tərəfindən dərc edilmiş bu dəyişikliklər adətən enerji alqı-satqı müqaviləsi (PPA) kimi strukturlaşdırılan bərpa olunan enerjinin tədarükü müqavilələrinin maliyyə təsirlərinin hesabatlarda daha dəqiq əks etdirilməsində şirkətlərə kömək etmək məqsədi daşıyır. Mövcud uçot tələbləri bu müqavilələrin müəssisənin fəaliyyətinə təsirini lazımi səviyyədə əks etdirməyə bilər. Müəssisələrə bu müqavilələri öz maliyyə hesabatlarında daha yaxşı əks etdirmək imkanı vermək üçün IASB tərəfindən MHBS 9, Maliyyə Alətləri və MHBS 7, Maliyyə Alətləri: Açıqlamalar standartlarına xüsusi dəyişikliklər edilmişdir. Bu dəyişikliklər aşağıdakıları əhatə edir: (a) 'şəxsi istifadə' tələblərinin tətbiqini aydınlaşdırmaq; (b) bu müqavilələr hedcinq aləti kimi istifadə olunduqda, bəzi hedcinq uçotu tələblərini yumşaltmaq; və (c) investorlara bu müqavilələrin müəssisənin maliyyə nəticələrinə və pul axınlarına təsirini anlamağa kömək etmək üçün yeni açıqlama tələbləri təqdim etmək.

7 Əlaqəli tərəflərlə əməliyyatlar və qalıqlar

Mühüm mühasibat uçotu prinsipi

Tərəflər o zaman əlaqəli hesab olunur ki, onlar ümumi nəzarət altında olsun və ya tərəflərdən biri digərinə nəzarət etmək iqtidarında olsun və yaxud maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı məsələlərə dair qərar qəbul edərkən digər tərəfə əhəmiyyətli dərəcədə təsir göstərə bilsin və ya ona birgə nəzarət etsin. Əlaqəli tərəflərlə hər hansı mümkün münasibətlər nəzərdən keçirilərkən, həmin münasibətlərin mahiyyətinin onların hüquqi formasından üstünlüyü prinsipi tətbiq olunur.

Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr

Əlaqəli tərəflərlə əməliyyatların ilkin tanınması. Qrup adi fəaliyyəti gedişində əlaqəli tərəflərlə əməliyyatlar aparır. MHBS 9-a uyğun olaraq maliyyə alətləri ilkin olaraq ədalətli dəyərdə uçota alınmalıdır. Lakin həmin əməliyyatların bazar və ya qeyri-bazar faiz dərəcələrində həyata keçirilməsini müəyyən etmək məqsədilə bu cür əməliyyatlar üçün aktiv bazar mövcud olmadıqda peşəkar mülahizələrdən istifadə etmək lazım gəlir. Mülahizələrin irəli sürülməsinin əsasını əlaqəli olmayan tərəflərlə analoji əməliyyatların qiymətinin müəyyən edilməsi və effektiv faiz dərəcəsinin təhlili təşkil edir. Əlaqəli tərəflərlə əməliyyatların şərtləri haqqında məlumat bu Qeyddə açıqlanır.

Bütün əməliyyatlar müstəqil tərəflər arasında razılaşdırılmış bazar şərtləri əsasında həyata keçirilir.

31 dekabr 2024-cü il tarixinə əlaqəli tərəflərlə əməliyyatlar üzrə qalıqlar aşağıdakı kimidir:

Min Azərbaycan Manatı ilə	**Ümumi nəzarətdə olan müəssisələr**
Pul vəsaitləri və onların ekvivalentləri	261,119
Ticarət və digər debitor borcları	24,229
Borc vəsaitləri	212,162
Ticarət və digər kreditor borcları	3,409
ƏDV üzrə xalis debitor borcu	34,009
Alışlar üzrə əvəzləşdirilə bilən ƏDV	10,007
Satışlar üzrə əvəzləşdirilə bilən ƏDV	5,285

31 dekabr 2024-cü il tarixində başa çatan il üzrə əlaqəli tərəflərlə əməliyyatlardan yaranan gəlir və xərclər aşağıda göstərilir:

Min Azərbaycan Manatı ilə	**Ümumi nəzarətdə olan müəssisələr**
Daşımalar və digər xidmətlər üzrə gəlirlər	37,356
Əməliyyat xərcləri	406,270
Maliyyə xərcləri	29,073
Mənfəət vergisi	70,164
Mənfəət vergisindən başqa digər vergilər	30,492

31 dekabr 2023-cü il tarixinə əlaqəli tərəflərlə əməliyyatlar üzrə qalıqlar aşağıdakı kimidir:

Min Azərbaycan Manatı ilə	**Ümumi nəzarətdə olan müəssisələr**
Pul vəsaitləri və onların ekvivalentləri	210,493
Ticarət və digər debitor borcları	54,510
Borc vəsaitləri	2,579,740
Ticarət və digər kreditor borcları	2,003
Sair qısamüddətli öhdəliklər	19
ƏDV üzrə xalis debitor borcu	75,371
Alışlar üzrə əvəzləşdirilə bilən ƏDV	11,090
Satışlar üzrə əvəzləşdirilə bilən ƏDV	5,586

7 Əlaqəli tərəflərlə əməliyyatlar və qalıqlar (davamı)

31 dekabr 2023-cü il tarixində başa çatan il üzrə əlaqəli tərəflərlə əməliyyatlardan yaranan gəlir və xərclər aşağıda göstərilir:

Min Azərbaycan Manatı ilə	**Ümumi nəzarətdə olan müəssisələr**
Daşımalar və digər xidmətlər üzrə gəlirlər	16,851
Əməliyyat xərcləri	330,118
Maliyyə xərcləri	124,359
Mənfəət vergisi	28,846
Mənfəət vergisindən başqa digər vergilər	21,379

Əsas idarəedici heyətə ödənişlər. Əsas idarəedici heyət Şirkətin prezidenti və vitse-prezidentlərindən ibarətdir.

Əsas idarəedici heyətə ödənişlər aşağıda göstərilir:

Min Azərbaycan Manatı ilə	**2024 Xərclər**	**2023 Xərclər**
Qısamüddətli ödənişlər:		
- Əmək haqları	321	344
- Qısamüddətli mükafatlar	7	8
- Pul şəklində olmayan ödənişlər	16	16
- Dövlət Sosial Müdafiə Fonduna ayırmalar	79	85
Cəmi əsas idarəedici heyətə ödənişlər	**423**	**453**

8 Əsas vəsaitlər

Mühüm mühasibat uçotu prinsipi

Əsas vəsaitlər yığılmış amortizasiya və ehtiyac yaranarsa dəyərsizləşmə çıxılmaqla, ilkin dəyərlə uçota alınır. Əsas vəsaitlərə gələcəkdə əmlak və avadanlıq kimi istifadəsi nəzərdə tutulan tikilməkdə olan aktivlər də daxildir.

İlkin dəyər aktivin əldə olunmasına birbaşa aid edilə bilən xərcləri özündə əks etdirir. Əsas vəsaitlərlə bağlı sonrakı xərclər müvafiq olaraq aktivin balans dəyərində və ya ayrıca aktiv kimi yalnız o halda tanınır ki, həmin aktivlə bağlı gələcək iqtisadi səmərənin Qrupa daxil olması ehtimal edilsin və onun dəyəri etibarlı şəkildə ölçülə bilsin. Kiçik həcmli təmir və gündəlik xidmət xərcləri çəkildiyi dövrdə xərcə silinir. Əsas vəsaitlərin əsas hissələrinin və ya komponentlərinin əvəz edilməsi xərcləri kapitallaşdırılır və əvəz edilmiş hissələr balansdan silinir.

Rəhbərlik hər bir hesabat dövrünün sonunda əsas vəsaitlər üzrə dəyərsizləşmə əlamətlərini təhlil edir. Əgər belə əlamətlər mövcud olarsa, rəhbərlik bərpa edilə bilən dəyəri təxmin edir. Aktivin bərpa edilə bilən dəyəri onun satış üzrə məsrəfləri çıxılmaqla ədalətli dəyəri və istifadə dəyərindən daha yüksək olan dəyəridir. Balans dəyəri bərpa edilə bilən dəyərə qədər azaldılır və dəyərsizləşmə zərəri il üzrə mənfəət və ya zərərdə tanınır. Aktivin istifadə dəyərini və ya satış üzrə məsrəflər çıxılmaqla ədalətli dəyərini müəyyən etmək üçün istifadə edilmiş təxminlərdə dəyişiklik baş verdiyi təqdirdə, əvvəlki illərdə tanınmış dəyərsizləşmə zərəri geri qaytarılır.

Aktivlərin silinməsindən yaranan mənfəət və ya zərər gəlirin məbləği ilə balans dəyəri arasındakı fərq kimi müəyyən edilir və il üzrə mənfəət və ya zərərdə tanınır.

Ehtiyat hissələri və işçi xərcləri də daxil olmaqla əsaslı təmir xərcləri növbəti əsaslı təmirə qədər qalan icarə müddəti və yaxud aktivin faydalı istifadə müddəti arasında ən qısa dövr üzrə (uçuş saatları və ya uçuş dövrələri əsasında) kapitallaşdırılır və amortizasiya olunur.

Kapital qoyuluşları ilkin dəyərlə uçotda əks olunur. Aktiv təyinatı üzrə istifadə üçün hazır olan zaman kapital qoyuluşlarından əmlak və avadanlıq maddəsinin müvafiq kateqoriyasına köçürülür və Qrupun siyasətlərinə əsasən amortizasiya edilir.

8 Əsas vəsaitlər (davamı)

Amortizasiya. Əsas vəsaitlər üzrə amortizasiya düz xətt metoduna, yəni əsas vəsaitlərin təxmini faydalı istifadə müddəti ərzində aktivlərin ilkin dəyərini onların qalıq dəyərinədək azaltmaqla hesablanır:

	Faydalı istifadə müddəti
Binalar və infrastruktur	10 - 50 il
Hava gəmiləri və mühərriklər	20 - 30 il*
Texnika və avadanlıqlar	4 - 30 il
Sair aktivlər	2 - 25 il

** Hava gəmiləri və mühərriklər kateqoriyasına daxil olan əsaslı təmir xərcləri 3,000 - 15,000 uçuş saatına qədər dəyişən faydalı istifadə müddəti ərzində amortizasiya olunur.*

Aktiv faydalı istifadə müddətinin sonunda nəzərdə tutulan vəziyyətə uyğun olduqda, onun satışı ilə bağlı ehtimal olunan xərclər çıxıldıqdan sonra, Qrup tərəfindən əldə oluna biləcək qiymətləndirilmiş məbləğ aktivin qalıq dəyəridir. Aktivlərin qalıq dəyəri və faydalı istifadə müddəti hər bir hesabat dövrünün sonunda nəzərdən keçirilir və lazım olduqda dəyişdirilir.

Əsas vəsaitlərin dəyərsizləşməsi. Amortizasiya hesablanan əsas vəsaitlər və qeyri-maddi aktivlər balans dəyərinin bərpa edilə bilmədiyini göstərən hadisə və ya şərait dəyişiklikləri baş verdikdə dəyərsizləşməyə görə təhlil edilir. Dəyərsizləşmə zərəri aktivin balans dəyərinin onun bərpa edilə bilən dəyərindən artıq olan məbləğdə tanınır. Aktivin bərpa edilə bilən dəyəri onun ədalətli dəyəri və satış üzrə məsrəfləri çıxılmaqla istifadə dəyərindən daha yüksək olan dəyəridir. Dəyərsizləşməni müəyyən etmək üçün aktivlər əhəmiyyətli dərəcədə sərbəst pul vəsaitləri yaradan ən kiçik aktivlər (pul vəsaiti yaradan vahidlər) üzrə qruplaşdırılır. Qeyri-maliyyə aktivlərinin (qudvil istisna olmaqla) əvvəlki dövrlərdə dəyərsizləşməsinin qaytarılma ehtimalı hər bir hesabat tarixində təhlil edilir.

Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr

Əsas vəsaitlərin faydalı istifadə müddəti. Əsas vəsaitlərin faydalı istifadə müddətinin və qalıq dəyərinin müəyyən edilməsi oxşar aktivlər ilə bağlı mövcud təcrübəyə əsasən peşəkar mülahizələr tətbiq etməklə aparılmışdır. Belə aktivlərlə bağlı gələcək iqtisadi faydalar əsasən onların istifadəsi nəticəsində əldə ediləcəkdir. Lakin avadanlığın texniki və kommersiya baxımından köhnəlməsi və aşınması kimi digər amillər bu aktivlərlə bağlı iqtisadi faydaların azaldılmasına gətirib çıxarır. Rəhbərlik aktivlərin cari texniki vəziyyətini və bu aktivlərin Qrupa iqtisadi fayda gətirəcəyi təxmin edilən dövrü nəzərə alaraq, əsas vəsaitlərin qalan faydalı istifadə müddətini müəyyən edir. Bu zaman aşağıdakı əsas amillər nəzərə alınır: (a) aktivlərin gözlənilən istifadə müddəti; (b) istismar göstəriciləri və texniki xidmət qaydalarından asılı olan gözlənilən fiziki köhnəlmə və aşınma; və (c) bazar şərtlərindəki dəyişikliklər nəticəsində avadanlığın texnoloji və kommersiya baxımından köhnəlməsi və aşınması. Rəhbərlik əsas vəsaitlərin faydalı istifadə müddətlərini aktivlərin nəzərdə tutulan istifadəsinə və onların Qrupa iqtisadi fayda gətirəcəyi dövrə əsasən müəyyən edir. Qrup əsas vəsaitləri düz xətt metodu ilə, rəhbərliyin biznes planları və əməliyyat proqnozlarına uyğun olaraq, onların təxmin edilən faydalı istifadə müddətləri və ya uçuş dövrələri / saatları ərzində amortizasiya edir. Texnoloji yeniliklər və ya aktivlərin gələcək istifadəsi ilə bağlı şəraitdə dəyişiklik baş verdikdə, aktivlərin faktiki faydalı istifadə müddəti və ya qalıq dəyəri ilkin təxminlərdən fərqli ola bilər. Rəhbərlik əsas vəsaitlərin qalan faydalı istifadə müddətlərinin uyğunluğunu mütəmadi olaraq nəzərdən keçirir. Əsas vəsaitlərin faydalı istifadə müddətlərinə dair təxminlərdə baş verən dəyişikliklər, belə dəyişikliklərin baş verdiyi dövrdə və mümkün olduqda gələcək dövrlərdə tanınır.

Əsas vəsaitlərin təxmin edilən faydalı istifadə müddətləri rəhbərliyin təxminlərindən 10% fərqlənsəydi, 31 dekabr 2024-cü il tarixində başa çatan il üzrə amortizasiya 38,145 min AZN artar və ya 15,643 AZN azalardı (2023: 15,077 min AZN artar və ya 13,706 min AZN azalardı).

Əsas vəsaitlər üzrə dəyərsizləşmənin qiymətləndirilməsi. MUBS 36 "Aktivlərin dəyərsizləşməsi" standartına uyğun olaraq, müəssisədən hər hesabat dövrünün sonunda aktivlərin dəyərsizləşməsinə dair hər hansı əlamətin olub-olmadığını qiymətləndirməsi tələb olunur. Hava limanı, Aeronaviqasiya və AZAL Oil CGU-lar (pul vəsaiti yaradan vahidlər) üçün bərpa edilə bilən məbləğlər müvafiq fəaliyyətlər nəticəsində yaranacaq gələcək pul vəsaitlərinin hərəkətini diskontlaşdırmaqla istifadə dəyərinə, halbuki Aviaşirkət CGU üçün bərpa edilə bilən məbləğ satış dəyəri çıxılmaqla ədalətli dəyər əsasında müəyyən edilir (1-ci Səviyyə). Aviaşirkət CGU-da əvvəllər tanınmış dəyərsizləşmə və bazarda hava gəmilərinin ədalətli dəyərlərinin mümkün dəyişkənliyi səbəbindən Qrup Aviaşirkət CGU üçün dəyərsizləşmə səbəbinin olduğunu hesab edir. Digər CGUlar üçün heç bir daxili və ya xarici dəyərsizləşmə səbəbi müəyyən edilməmişdir, çünki bu CGU-ların istifadə dəyərinin hesablamalarında istifadə edilən pul vəsaitlərinin hərəkəti əvvəllər təxmin edilənlərdən və ya ondan yuxarıdır və bərpa edilməli olan əvvəllər tanınmış dəyərsizləşmə olmamışdır.

8 Əsas vəsaitlər (davamı)

Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr

Qrup hava gəmiləri, ehtiyat mühərrikləri və əlaqəli aktivləri ayrı-ayrılıqda deyil, vahid CGU kimi qiymətləndirir. Bu aktivlər müstəqil şəkildə pul axını yaratmadığı üçün Aviaşirkət CGU-su üzrə dəyərsizləşmə qiymətləndirməsi kollektiv şəkildə aparılır. Rəhbərlik müəyyən etmişdir ki, Aviaşirkət CGU-na aid əsas vəsaitlərin balans dəyəri onların satış xərcləri çıxılmaqla ədalətli dəyərindən yuxarı olmuşdur. Bu dəyər əsas komponentlərin faktiki texniki vəziyyəti nəzərə alınmaqla, bazar məlumatlarına əsasən hesablanır. Bu səbəbdən 31 dekabr 2024-cü il tarixinə əsas vəsaitlər üzrə 18,826 min AZN məbləğində dəyərsizləşmə xərci tanınmışdır (31 dekabr 2023: 16,641 min AZN). Rəhbərlik satış xərcləri üzrə təxminin (hava gəmisinin bazar dəyərinin 12.5%-i) Aviaşirkət CGU-nun bərpa edilə bilən dəyərinin müəyyən edilməsində ən həssas fərziyyə olduğunu hesab edir. Rəhbərlik 2022 və 2023-cü illərdə Qrupun donanmasına daxil olmuş hava gəmiləri üçün onların yeni alınmış vəziyyəti nəzərə alınaraq, satış xərclərinin 8% həcmində qiymətləndirilməsini daha uyğun hesab etmişdir. Bütün hava gəmiləri üçün satış xərcləri üzrə təxminlərdə 1%-lik dəyişiklik CGU üzrə əlavə 3,328 min AZN məbləğində dəyərsizləşmə və ya 3,328 min AZN məbləğində dəyərsizləşmənin qaytarılması ilə nəticələnə bilərdi (2023: 2,965 min AZN məbləğində əlavə dəyərsizləşmə və ya 2,925 min AZN məbləğində dəyərsizləşmənin qaytarılması).

8 Əsas vəsaitlər (davamı)

Əsas vəsaitlərin balans dəyəri üzrə hərəkət aşağıdakı cədvəldə göstərilir:

Min Azərbaycan Manatı ilə	Binalar və infrastruktur	Hava gəmiləri və mühərriklər	Texnika və avadanlıqlar	Digər	Kapital layihələri	Cəmi
1 yanvar 2024-cü il tarixinə ilkin dəyər	839,722	1,022,915	374,203	73,413	20,066	2,330,319
Yığılmış amortizasiya və dəyərsizləşmə	(230,169)	(389,749)	(195,395)	(46,542)	(7,222)	(869,077)
1 yanvar 2024-cü il tarixinə balans dəyəri	**609,553**	**633,166**	**178,808**	**26,871**	**12,844**	**1,461,242**
Əlavələr	267	69,957	537	1,160	109,256	181,177
Bizneslərin birləşməsi üzrə ilkin dəyər	85,159	-	27,350	11,918	-	124,427
Bizneslərin birləşməsi üzrə yığılmış amortizasiya	(21,241)	-	(13,315)	(9,938)	-	(44,494)
Silinmələr	-	(12,890)	(191)	(1,304)	-	(14,385)
Silinmiş aktivlər üzrə yığılmış amortizasiya	-	9,150	172	1,261	-	10,583
Aktivin silinməsi ilə əlaqədar tanınmanın dayandırılması üzrə ilkin dəyər	-	(23,674)	-	-	-	(23,674)
Aktivin silinməsi ilə əlaqədar tanınmanın dayandırılması üzrə yığılmış amortizasiya	-	23,674	-	-	-	23,674
Digər aktivlərin ötürülməsi	58,413	-	45,533	15,587	(119,533)	-
Amortizasiya xərci	(29,109)	(74,827)	(31,955)	(7,647)	-	(143,538)
Mənfəət və ya zərərə silinmiş dəyərsizləşmə xərci	-	(22,856)	-	-	4,030	(18,826)
31 dekabr 2024-cü il tarixinə balans dəyəri	**703,042**	**601,700**	**206,939**	**37,908**	**6,597**	**1,556,186**
31 dekabr 2024-cü il tarixinə ilkin dəyər	983,561	1,056,308	447,432	100,774	9,789	2,597,864
Yığılmış amortizasiya və dəyərsizləşmə	(280,519)	(454,608)	(240,493)	(62,866)	(3,192)	(1,041,678)
31 dekabr 2024-cü il tarixinə balans dəyəri	**703,042**	**601,700**	**206,939**	**37,908**	**6,597**	**1,556,186**

2024-cü ilin dekabr ayında Qrup 4K-AZ265 bort nömrəli hava gəmisi üzrə dəyərsizləşmə zərəri tanımış və onun balans dəyərini 11,906 min AZN-dən sıfıra endirmişdir. Eyni zamanda, həmin hava gəmisi ilə bağlı 19,222 min AZN məbləğində alınacaq sığorta ödənişi sair gəlir kimi uçota alınmışdır.

8 Əsas vəsaitlər (davamı)

Min Azərbaycan Manatı ilə	Binalar və infrastruktur	Hava gəmiləri və mühərriklər	Texnika və avadanlıqlar	Digər	Kapital layihələri	Cəmi
1 yanvar 2023-cü il tarixinə ilkin dəyər	837,142	671,597	359,102	56,153	21,945	1,945,939
Yığılmış amortizasiya və dəyərsizləşmə	(201,830)	(298,958)	(170,932)	(40,589)	(7,222)	(719,531)
1 yanvar 2023-cü il tarixinə balans dəyəri	**635,312**	**372,639**	**188,170**	**15,564**	**14,723**	**1,226,408**
Əlavələr	1,382	45,658	113	46	36,659	83,858
Silinmələr	-	(3,958)	(563)	(97)	-	(4,618)
Silinmiş aktivlər üzrə yığılmış amortizasiya	-	3,922	310	89	-	4,321
İstifadə hüquqlu aktivlərdən ötürmə	-	305,140	-	-	-	305,140
Ötürülmüş istifadə hüquqlu aktivlər üzrə yığılmış amortizasiya	-	(32,032)	-	-	-	(32,032)
Aktivlərin ötürülməsi	1,198	4,478	15,551	17,311	(38,538)	-
Amortizasiya xərci	(27,529)	(47,355)	(24,665)	(5,645)	-	(105,194)
Mənfəət və ya zərərə silinmiş dəyərsizləşmə xərci	(810)	(15,326)	(108)	(397)	-	(16,641)
31 dekabr 2023-cü il tarixinə balans dəyəri	**609,553**	**633,166**	**178,808**	**26,871**	**12,844**	**1,461,242**
31 dekabr 2023-cü il tarixinə ilkin dəyər	839,722	1,022,915	374,203	73,413	20,066	2,330,319
Yığılmış amortizasiya və dəyərsizləşmə	(230,169)	(389,749)	(195,395)	(46,542)	(7,222)	(869,077)
31 dekabr 2023-cü il tarixinə balans dəyəri	**609,553**	**633,166**	**178,808**	**26,871**	**12,844**	**1,461,242**

Qrupun yaradılması zamanı Dövlət tərəfindən torpaq sahəsi əvəzsiz olaraq və daimi istifadə hüququ ilə Qrupa verilmişdir.

8 Əsas vəsaitlər (davamı)

Qrup icarəyə verən qismində çıxış etdiyi hallarda, əməliyyat icarəsi müqavilələrinə əsasən əldə ediləcək gələcək minimal icarə ödənişləri aşağıda göstərilir:

Min Azərbaycan Manatı ilə	2024	2023
1 il	13,085,239	17,794,788
2 il	322,664	317,624
3 il	317,624	317,624
4 il	317,624	317,624
5 il	317,624	317,624
5 ildən az	378,184	695,808
Cəmi 31 dekabr tarixinə əldə ediləcək diskontlaşdırılmamış əməliyyat icarəsi ödənişləri	**14,738,959**	**19,761,092**

Əsas vəsaitlərin icarəsindən əldə olunan gəlir 17,867 min AZN təşkil etmişdir (2023: 6,018 min AZN).

İnfrastruktur əsasən Qrupun təyyarələri üçün uçuş-enmə zolaqlarından, hava gəmisi dayanacaqlarından, anqar və terminallardan ibarətdir. 31 dekabr 2024-cü il tarixinə Qrupun hava donanması 9-u icarədə və 22-si mülkiyyətində olmaqla, 31 hava gəmisindən ibarət olmuşdur (2023: 6-sı icarədə və 23-ü mülkiyyətində olmaqla, 29 hava gəmisi).

Kapital layihələri əsasən binaların və infrastruktur obyektlərinin tikintisindən ibarətdir.

31 dekabr 2024-cü il tarixinə balans dəyəri 314,083 min AZN (2023: 348,650 min AZN) olan hava gəmiləri borc öhdəlikləri üzrə təminat kimi girov qoyulmuşdur. Ətraflı məlumat üçün Qeyd 18-ə baxın.

9 İstifadə hüquqlu aktivlər və icarə öhdəlikləri

Mühüm mühasibat uçotu prinsipi

İstifadə hüquqlu aktivlər. Qrup əsasən hava gəmiləri olmaqla, müxtəlif aktivləri icarəyə götürür. İcarə müqavilələrinə icarə və qeyri-icarə komponentləri daxil edilə bilər. Qrup icarə müqavilələri üzrə ödənişləri icarə və qeyri-icarə komponentləri arasında ayrıca nisbi qiymət əsasında ayırır.

İcarə müqavilələri üzrə yaranan aktivlər ilkin olaraq cari dəyərlə qiymətləndirilir.

İstifadə hüquqlu aktivlər aşağıdakılar nəzərə alınmaqla, ilkin dəyərlə qiymətləndirilir:

- icarə öhdəliyinin ilkin qiymətləndirmə məbləği,
- icarə üzrə həvəsləndirici ödənişlər çıxılmaqla, icarə müqaviləsinin başlanma tarixindən əvvəl aparılmış bütün icarə ödənişləri,
- bütün ilkin birbaşa xərclər, və
- aktivin icarə müqaviləsinin şərtlərinə görə tələb olunan vəziyyətə qaytarılması xərcləri.

İstifadə hüquqlu aktivlər adətən onların faydalı istifadə və ya icarə müddəti ərzində (bu müddətlərdən hansı daha tez başa çatarsa) düz xətt metodu ilə amortizasiya edilir. Qrup alış imkanının istifadəsindən əsaslandırılmış şəkildə əmin olduqda, istifadə hüquqlu aktivi müvafiq aktivin faydalı istifadə müddəti ərzində amortizasiya edir. 31 dekabr 2024 və 2023-cü il tarixlərinə Qrupun alış imkanının istifadəsindən əsaslandırılmış şəkildə əmin olduğu icarə müqavilələri mövcud olmamışdır. Bu səbəbdən, istifadə hüquqlu aktivlər müvafiq aktivlərin faydalı istifadə müddəti ərzində amortizasiya olunmuşdur.

Qrup icarəyə götürülmüş hava gəmiləri üzrə əsaslı təmir və texniki baxış xərclərini, bu xərclər icarəyə götürülmüş aktivin ümumi dəyərinin əhəmiyyətli hissəsini təşkil etdikdə, istifadə hüquqlu aktivin tərkibində tanıyır. Gözlənilən təmir xərclərinə bərabər olan istifadə hüquqlu aktivin bir hissəsi müəyyən edilir və növbəti planlaşdırılmış texniki baxış və ya təmirə qədər olan müddət ərzində amortizasiya olunur. Texniki baxış və ya təmir üçün çəkilmiş faktiki xərclər yalnız gələcəkdə Qrupa iqtisadi fayda gətirəcəyi ehtimal olunduqda və bu xərclər etibarlı şəkildə ölçülə bildikdə, istifadə hüquqlu aktiv kimi kapitallaşdırılır. Belə kapitallaşdırılmış məbləğlər sonradan növbəti texniki baxış və ya təmirə qədər olan müddət ərzində amortizasiya olunur. Yeni təmir xərcləri kapitallaşdırıldıqda, əvvəlki təmirə aid balans dəyəri və yığılmış köhnəlmə ikiqat uçotun qarşısını almaq məqsədilə tanınması dayandırılır. İstifadə hüquqlu aktivin qalan hissəsi isə əsaslı təmir və texniki baxışların plan üzrə həyata keçiriləcəyi fərziyyəsinə əsasən icarə müddəti ərzində amortizasiya olunur.

9 İstifadə hüquqlu aktivlər və icarə öhdəlikləri (davamı)

İstifadə hüquqlu aktivlərin dəyərsizləşməsi. Amortizasiya hesablanan əsas vəsaitlər balans dəyərinin bərpa edilə bilmədiyini göstərən hadisə və ya şərait dəyişiklikləri baş verdikdə dəyərsizləşməyə görə təhlil edilir. Dəyərsizləşmə zərəri aktivin balans dəyərinin onun bərpa edilə bilən dəyərindən artıq olan məbləğdə tanınır. Aktivin bərpa edilə bilən dəyəri onun satış xərcləri çıxılmaqla istifadə dəyəri və ədalətli dəyərindən daha yüksək olan dəyəridir. Dəyərsizləşməni müəyyən etmək üçün aktivlər əhəmiyyətli dərəcədə sərbəst pul vəsaitləri yaradan ən kiçik aktivlər (pul vəsaiti yaradan vahidlər) üzrə qruplaşdırılır. Qeyri-maliyyə aktivlərinin əvvəlki dövrlərdə dəyərsizləşməsinin qaytarılma ehtimalı hər bir hesabat tarixində təhlil edilir.

İcarə öhdəlikləri. İcarə müqaviləsi üzrə yaranan öhdəliklər ilkin olaraq cari dəyərlə qiymətləndirilir. İcarə öhdəliklərinə aşağıdakı icarə ödənişlərinin xalis cari dəyəri daxildir:

- icarə üzrə alınacaq həvəsləndirici ödənişlər çıxılmaqla, sabit ödənişlər (mahiyyətcə sabit ödənişlər daxil olmaqla);
- ilkin olaraq icarə müddətinin başlanma tarixinə mövcud olan indeks və ya dərəcələrdən istifadə etməklə qiymətləndirilən indeks və ya dərəcələrdən asılı olan dəyişkən icarə ödənişləri;
- zəmanətli son qalıq dəyəri üzrə ödənilməsi gözlənilən məbləğlər;
- Qrupun əsaslandırılmış şəkildə əmin olduğu halda alış imkanının istifadə ediləcəyi qiyməti; və
- icarə müddəti ərzində Qrup icarəni ləğvetmə imkanını istifadə edərsə, icarənin ləğv edilməsi ilə bağlı cərimə ödənişləri.

İcarə ödənişləri icarə müqaviləsində nəzərdə tutulan faiz dərəcəsi ilə diskontlaşdırılır. Bu faiz dərəcəsinin müəyyən edilməsi mümkün olmadıqda (bu, adətən Qrupun icarə müqavilələri ilə bağlı baş verir), Qrupun borc kapitalı üzrə artan faiz dərəcəsi istifadə edilir. Borc kapitalı üzrə artan faiz dərəcəsi Qrupun istifadə hüquqlu aktivin dəyərinə bərabər dəyərdə aktiv əldə etməsi üçün oxşar iqtisadi mühitdə eyni müddət, təminat və şərtlərlə zəruri olan vəsaitlərin cəlb edilməsi zamanı ödəməli olduğu faiz dərəcəsidir.

Borc kapitalı üzrə artan faiz dərəcəsini müəyyən etmək üçün Qrup mümkün olduqda, üçüncü tərəfdən əldə edilmiş son maliyyələşmədən istifadə edir. İcarə ödənişləri əsas borc və maliyyə xərclərinə bölüşdürülür. Maliyyə xərcləri hər bir dövr üçün öhdəliyin qalığı üzrə daimi olaraq müntəzəm faiz dərəcəsini təmin etmək üçün ümumi icarə müddətində mənfəət və ya zərərdə tanınır.

Hava gəmiləri, avadanlıqlar və nəqliyyat vasitələrinin qısamüddətli icarəsi, eləcə də bütün azdəyərli aktivlərin icarəsi ilə bağlı ödənişlər düz xətt metoduna əsasən mənfəət və ya zərərdə xərc kimi tanınır. Qısamüddətli icarələrə 12 aydan çox olmayan icarə müqavilələri daxildir. Azdəyərli aktivlər əsasən dəyəri 5,000 AZN-dən çox olmayan avadanlıq və kiçik ofis mebellərindən ibarətdir.

Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr

İcarə öhdəliklərinin qiymətləndirilməsində istifadə edilən diskon dərəcələri. İcarə müqaviləsində nəzərdə tutulan faiz dərəcəsinin müəyyən edilməsi mümkün olmadıqda, Qrup diskont dərəcəsinin hesablanması zamanı əsas kimi borc kapitalı üzrə artan faiz dərəcəsindən istifadə edir.

Borc kapitalı üzrə artan faiz dərəcəsini müəyyən edərkən Qrup tərəfindən üçüncü tərəfdən əldə edilmiş son maliyyələşdirmə əsas götürülür.

31 dekabr 2024-cü il tarixinə diskont dərəcəsində 10% artım və azalma olarsa, icarə öhdəlikləri 924 min AZN artar və ya azalardı (2023: 1,445 min AZN).

Rəhbərlik müəyyən etmişdir ki, Aviaşirkət CGU-na aid istifadə hüquqlu aktivlərin balans dəyəri onların satış xərcləri çıxılmaqla ədalətli dəyərindən yuxarı olmuşdur. Bu dəyər əsas komponentlərin faktiki texniki vəziyyəti nəzərə alınmaqla, bazar məlumatlarına əsasən hesablanır. Bu səbəbdən 31 dekabr 2024-cü il tarixinə istifadə hüquqlu aktivlər üzrə 406 min AZN məbləğində dəyərsizləşmə xərci tanınmışdır (31 dekabr 2023: 1,979 min AZN). Rəhbərlik satış xərcləri üzrə təxminin (hava gəmisinin bazar dəyərinin 12.5%-i) Aviaşirkət CGU-nun bərpa edilə bilən dəyərinin müəyyən edilməsində ən həssas fərziyyə olduğunu hesab edir. Rəhbərlik 2022 və 2023-cü illərdə Qrupun donanmasına daxil olmuş hava gəmiləri üçün onların yeni alınmış vəziyyəti nəzərə alınaraq, satış xərclərinin 8% həcmində qiymətləndirilməsini daha uyğun hesab etmişdir. Bütün hava gəmiləri üçün satış xərcləri üzrə təxminlərdə 1%-lik dəyişiklik CGU üzrə əlavə 3,328 min AZN məbləğində dəyərsizləşmə və ya 3,328 min AZN məbləğində dəyərsizləşmənin qaytarılması ilə nəticələnə bilərdi (2023: 2,965 min AZN məbləğində əlavə dəyərsizləşmə və ya 2,925 min AZN məbləğində dəyərsizləşmənin qaytarılması).

Hava gəmiləri üzrə orta icarə müddəti 10 ildir (2023: 10 il).

9 İstifadə hüquqlu aktivlər və icarə öhdəlikləri (davamı)

Min Azərbaycan Manatı ilə	**Cəmi**
1 yanvar 2023-cü il tarixinə balans dəyəri	**519,170**
Əlavələr	104,536
Əsas vəsaitlərə ötürmə	(305,140)
Ötürülmüş aktivlər üzrə yığılmış amortizasiya	32,032
Əsaslı təmirin tanınmasının dayandırılması üzrə ilkin dəyər	(1,200)
Əsaslı təmirin tanınmasının dayandırılması üzrə yığılmış amortizasiya	1,227
Amortizasiya xərci	(45,486)
Dəyərsizləşmə xərci	(1,979)
31 dekabr 2023-cü il tarixinə balans dəyəri	**303,160**
Əlavələr	112,138
Əsaslı təmirin tanınmasının dayandırılması üzrə ilkin dəyər	(1,391)
Əsaslı təmirin tanınmasının dayandırılması üzrə yığılmış amortizasiya	1,356
Amortizasiya xərci	(60,152)
Dəyərsizləşmə xərci	(406)
Digər	(378)
31 dekabr 2024-cü il tarixinə balans dəyəri	**354,327**

Qrup icarə öhdəliklərini aşağıdakı kimi tanımışdır:

Min Azərbaycan Manatı ilə	**31 dekabr 2024**	**31 dekabr 2023**
Qısamüddətli icarə öhdəlikləri	117,985	55,562
Uzunmüddətli icarə öhdəlikləri	77,998	123,038
Cəmi icarə öhdəlikləri	**195,983**	**178,600**

2024-cü il ərzində maliyyə xərclərinin 15,240 min AZN (2023: 36,575 min AZN) məbləğində hissəsi faiz xərclərindən ibarət olmuşdur.

2024-cü ildə icarə müqavilələri üzrə cəmi ödənişlər 106,896 min AZN (2023: 335,920 min AZN) təşkil etmişdir.

10 Qeyri-maddi aktivlər

Min Azərbaycan Manatı ilə	2024	2023
1 yanvar tarixinə ilkin dəyər	21,061	17,446
Yığılmış amortizasiya	(13,649)	(10,698)
1 yanvar tarixinə balans dəyəri	**7,412**	**6,748**
Əlavələr	9,926	3,615
Biznеslərin birləşməsi üzrə ilkin dəyər	100	-
Biznеslərin birləşməsi üzrə yığılmış amortizasiya	(70)	-
Amortizasiya xərci	(2,386)	(2,951)
31 dekabr tarixinə balans dəyəri	**14,982**	**7,412**
31 dekabr tarixinə ilkin dəyər	31,087	21,061
Yığılmış amortizasiya	(16,105)	(13,649)
31 dekabr tarixinə balans dəyəri	**14,982**	**7,412**

11 Verilmiş avanslar

Mühüm mühasibat uçotu prinsipi

Kapital xərcləri / uzunmüddətli aktivlərin alınması üçün verilmiş avanslar müvafiq aktivin xarakterinə görə uzunmüddətli aktivlər kimi təsnifləşdirilir. Belə avanslar ilkin olaraq maya dəyəri ilə ölçülür və aşağıdakılardan ibarətdir:

- Hava gəmilərinin alınması: hava gəmilərinin gələcəkdə təhvil verilməsi üçün istehsalçılara ödənilmiş avanslar;
- Təmir və texniki xidmət müqavilələri: hava gəmilərinin optimal vəziyyətdə saxlanılması üçün uzunmüddətli texniki xidmət müqavilələri üzrə ödənilmiş avanslar;
- Texnologiya və infrastruktur: yeni bron sistemləri və ya hava limanı zalları kimi uzunmüddətli infrastruktur təkmilləşdirmələrinə yatırımlar.

Verilmiş avansların təsnifatı aktivin gözlənilən alışı və istifadəsi vaxtına əsaslanır. Müvafiq aktivin təhvil verilməsi və ya tamamlanmasından sonra avans müvafiq aktiv kateqoriyasına yenidən təsnifləşdirilir.

Şərtlərə cavab verən aktivlərin alınması və ya tikintisi ilə birbaşa əlaqəli olan borclar üzrə məsrəflər, o cümlədən belə uzunmüddətli aktivlər üçün avans ödənişləri aktivin dəyərinin bir hissəsi kimi kapitallaşdırılır. Borclar üzrə məsrəflərin kapitallaşdırılması xərclər və borclar üzrə məsrəflər çəkildikdə və aktivin təyinatı üzrə istifadəyə və ya satışa hazır vəziyyətə gətirilməsi ilə bağlı zəruri işlər görüldükdə başlayır. Aktiv nəzərdə tutulan istifadəyə və ya satışa hazır olduqda kapitallaşdırma başa çatır. Borclar üzrə bütün digər məsrəflər mənfəət və ya zərərdə xərc kimi tanınır.

Min Azərbaycan Manatı ilə	2024	2023
Verilmiş uzunmüddətli avanslar	202,186	165,438
Çıxılsın: verilmiş uzunmüddətli avansların dəyərsizləşməsi	-	(158)
Cəmi 31 dekabr tarixinə verilmiş avanslar	**202,186**	**165,280**

Verilmiş uzunmüddətli avanslar üzrə qalıqlar əsasən hava gəmiləri və təlim avadanlığı ilə bağlı xarici tədarükçülərə verilmiş avanslardan ibarətdir. Rəhbərlik gələcəkdə malların və xidmətlərin geri qaytarılması və ya əldə edilməsi ehtimalı əsasında vəsaitlərin qaytarıla bilməyən hissəsini hər dövrün sonunda qiymətləndirir.

31 dekabr 2024 və 2023-cü il tarixlərinə hava gəmilərinin alınması və mühərriklərin əsaslı təmiri ilə bağlı Qrupun avans ödənişlər etdiyi əsas tərəflərə Airbus, Boeing və GE Engine Services MMC daxildir.

12 Sair uzunmüddətli aktivlər

Min Azərbaycan Manatı ilə	2024	2023
Ödənilmiş uzunmüddətli depozitlər	19,119	10,838
Əhəmiyyətli ehtiyat hissələri	13,453	15,639
Səhmlərə investisiyalar	515	515
Digər	297	49
Cəmi 31 dekabr tarixinə sair uzunmüddətli aktivlər	**33,384**	**27,041**

13 Mal-material ehtiyatları

Mühüm mühasibat uçotu prinsipi

Mal-material ehtiyatları maya dəyəri və mümkün xalis satış dəyərindən daha az olan dəyərdə tanınır. Mal-material ehtiyatlarının maya dəyəri FIFO ("ilk mədaxil, ilk məxaric) metodu ilə, yanacaq ehtiyatları və istehlak olunan ehtiyat hissələri isə orta çəkili dəyər metodu ilə müəyyən edilir. Mal-material ehtiyatlarının maya dəyərinə borc vəsaitləri üzrə məsrəflər istisna olmaqla, xammal, birbaşa işçi qüvvəsi və əlaqəli dolayı xərclər daxildir. Mümkün xalis satış dəyəri işin başa çatdırılma və satış xərcləri çıxılmaqla, adi fəaliyyət gedişində təxmin edilən satış qiymətidir

Min Azərbaycan Manatı ilə	2024	2023
Ehtiyat hissələri	119,701	88,756
Yanacaq	14,151	11,342
Mal-material ehtiyatları üzrə ehtiyat ayırmaları	(33,456)	(29,893)
Cəmi 31 dekabr tarixinə mal-material ehtiyatları	**100,396**	**70,205**

14 Ticarət və digər debitor borcları

Mühüm mühasibat uçotu prinsipi

İlkin tanınma. Müştərilərlə əməliyyatlar nəticəsində yaranan ticarət debitor borcları əhəmiyyətli maliyyələşdirmə komponentini ehtiva etmədiyi halda, ilkin olaraq MHBS 15-də müəyyən edilmiş əməliyyat qiymətləri ilə tanınır. İlkin tanınma zamanı ədalətli dəyər ən yaxşı olaraq əməliyyat qiyməti ilə sübut edilir.

İlkin tanınma zamanı gəlir və ya zərər yalnız ədalətli dəyər ilə əməliyyat qiyməti arasında fərq olduqda qeydə alınır. Əməliyyat qiyməti eyni maliyyə aləti ilə aparılan digər müşahidə oluna bilən cari bazar əməliyyatları və ya əsas məlumat kimi yalnız müşahidə edilə bilən bazarların məlumatlarını istifadə edən qiymətləndirmə modeli ilə sübut edilir. İlkin tanınmadan sonra amortizasiya olunmuş dəyərlə təsnifləşdirilən ticarət və digər debitor borcları üzrə gözlənilən kredit zərərləri üçün ehtiyat tanınır və bu da aktivin ilkin tanınmasından dərhal sonra zərərin tanınması ilə nəticələnir.

Təsnifləşdirmə və sonrakı dövrdə qiymətləndirmə - qiymətləndirmə kateqoriyaları. Qrup ticarət və digər debitor borclarını amortizasiya olunmuş dəyərlə təsnifləşdirir. Ticarət və digər debitor borclarının təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi müvafiq aktivlər portfelinin idarə olunması üçün Qrupun biznes modelindən və aktiv üzrə pul axınlarının xüsusiyyətindən asılıdır.

Silinmə. Ticarət və digər debitor borclarını bərpa etmək üçün Qrupun bütün praktiki imkanları tükəndikdə və Qrup belə aktivlərin bərpasına dair gözləntilərin əsaslandırılmadığı qənaətinə gəldikdə, ticarət və digər debitor borcları tam və ya qismən silinir. Aktivlərin silinməsi tanınmanın dayandırılmasını nəzərdə tutur. Qrup müqaviləyə əsasən ödənilməli məbləğləri bərpa etməyə cəhd etdikdə, lakin həmin məbləğlərin bərpası ilə bağlı əsaslandırılmış gözləntiləri olmadıqda, barəsində hələ də məcburi bərpa tədbirləri görülən maliyyə aktivlərini silə bilər.

14 Ticarət və digər debitor borcları (davamı)

Verilmiş avanslar. Verilmiş avanslar dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla maya dəyərində qeydə alınır. Verilmiş avanslar üzrə mal və ya xidmətlərin bir ildən sonra əldə edilməsi nəzərdə tutulduqda, yaxud bu avanslar ilkin uçot zamanı uzunmüddətli aktiv kimi təsnifləşdiriləcək aktivə aid olduqda uzunmüddətli aktiv kimi təsnifləşdirilir. Aktivin alınması üçün verilmiş avanslar Qrup bu aktiv üzərində nəzarəti əldə etdikdə və həmin aktivlə bağlı gələcək iqtisadi səmərənin Qrupa daxil olacağı ehtimal edildikdə aktivin qalıq dəyərinə köçürülür. Verilmiş digər avanslar onların aid olduğu mal və ya xidmətlər əldə edildikdə mənfəət və ya zərərə silinir. Verilmiş avanslarla bağlı aktivlər, mal və ya xidmətlərin əldə edilməməsi gözlənildikdə, həmin avansların qalıq dəyəri balansdan silinir və müvafiq dəyərsizləşmə zərəri il üzrə mənfəət və ya zərərdə tanınır.

Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr

ƏDV məbləğlərinin əvəzləşdirilməsi. Vergi orqanından debitor borca çevrilmiş ƏDV məbləğləri (alışlar üzrə ƏDV-nin hesab-fakturaların ödənilməsi və mal və xidmətlərin təqdim edilməsi nəticəsində əvəzləşdirilmiş hissəsi) Qrupun gələcək vergi öhdəliklərinin ödənilməsinə yönəldilməsi üçün istifadə edilə bilən avans ödənişi kimi qiymətləndirilir. Rəhbərlik hesab edir ki, dövlətdən geri alınacaq ƏDV məbləğləri bərpa edilə və gələcək vergi öhdəliklərinin ödənilməsinə yönəldilə bilər. Belə vergi aktivlərini gələcək vergi öhdəlikləri ilə əvəzləşdirmək üçün Qrupun vergi orqanlarından icazə alması tələb olunmur və buna görə də hesab edilir ki, vergi öhdəlikləri yarandığı zaman vergi aktivləri ilə əvəzləşəcək. Nəticədə bu vergi aktivləri on iki ay ərzində əhəmiyyətli dərəcədə geri qayıdır və bərpa olunur. Vergi orqanından hələ debitor borca çevrilməmiş ƏDV məbləğləri ("alınmış və ödənilmiş mallara və xidmətlərə tətbiq edilən əvəzləşdirilə bilən ƏDV") rəhbərlik tərəfindən təhlil edilmiş və 31 dekabr 2024-cü il tarixinə belə məbləğlərin 40,049 min AZN-lik hissəsi şübhəli qalıqlar kimi təsnifləşdirilmişdir (31 dekabr 2023: 39,909 min AZN). Əvvəlki ilə uyğun olaraq, Qrup rəhbərliyi hesab edir ki, bu ƏDV qalıqları üzrə müvafiq kreditor borcları pul formasında deyil, xalis şəkildə ödəniləcək və bu da mövcud vergi qanunvericiliyinə əsasən belə ƏDV qalıqlarının əvəzləşdirilə bilməsini istisna edir.

Min Azərbaycan Manatı ilə	**2024**	**2023**
Ticarət debitor borcları	213,372	209,834
Digər maliyyə debitor borcları	13,050	8,338
Çıxılsın: kredit zərərləri üzrə ehtiyat ayırmaları	(16,848)	(11,856)
Ticarət və digər debitor borclarına daxil olan cəmi maliyyə aktivləri	**209,574**	**206,316**
Verilmiş avanslar və gələcək dövrlərin xərcləri, xalis	109,510	71,503
Əvəzləşdirilə bilən ƏDV	10,007	11,090
ƏDV üzrə xalis debitor borcu	34,009	75,371
Cəmi 31 dekabr tarixinə ticarət və digər debitor borcları	**363,100**	**364,280**

Kredit zərərləri üzrə ehtiyat çıxılmaqla, ticarət debitor borclarının 62,486 min AZN məbləğində hissəsi (2023: 29,362 min AZN) əsasən ABŞ dolları olmaqla, xarici valyutadadır.

Qrup gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi üçün MHBS 9-da nəzərdə tutulan sadələşdirilmiş yanaşma tətbiq edir. Bu yanaşma bütün ticarət debitor borcları üçün bütöv müddət üzrə GKZ ehtiyatının istifadəsini nəzərdə tutur.

GKZ-nin qiymətləndirilməsi üçün ticarət debitor borcları kredit riskinin ümumi xüsusiyyətlərinə və vaxtı keçmiş günlərin sayına əsasən qruplaşdırılmışdır.

GKZ dərəcələri müştərilərin hər bir balans tarixinə qədər 24 ay ərzində ödəniş profillərinə və bu dövr ərzində baş vermiş müvafiq tarixi kredit zərərlərinə əsasən müəyyən edilir. Əvvəlki dövrlər üzrə kredit zərərlərinin səviyyəsinə müştərilərin debitor borclarını qaytarmaq imkanına təsir edən makroiqtisadi amillərə dair mövcud və proqnoz məlumatlar nəzərə alınmaqla düzəliş edilir. Rəhbərlik zərər səviyyəsinin müəyyən edilməsi zamanı gələcək makroiqtisadi amilləri nəzərə alan təhlillər aparmışdır. Lakin bu düzəlişlərin təsiri əhəmiyyətli olmadığından, GKZ üzrə ehtiyata əhəmiyyətli dərəcədə təsir göstərməmişdir.

14 Ticarət və digər debitor borcları (davamı)

Ticarət debitor borcları üzrə kredit zərərləri üçün ehtiyat ayırmaları aşağıdakı cədvəldə təqdim edilən ehtiyat matrisinə uyğun olaraq müəyyən edilir.

Ümumi dəyərin %-i nisbətində (Min AZN ilə)	31 dekabr 2024 Zərər dərəcəsi, %	Ümumi balans dəyəri	Bütöv müddət üçün GKZ	Xalis balans dəyəri	31 dekabr 2023 Zərər dərəcəsi, %	Ümumi balans dəyəri	Bütöv müddət üçün GKZ	Xalis balans dəyəri
Ticarət debitor borcları								
- qısamüddətli	*0*	119,744	(397)	119,347	*0*	101,488	(15)	101,473
- 30 gündən az gecikdirilmiş	*1*	38,860	(342)	38,518	*0*	33,298	(9)	33,289
- 30 - 90 gün gecikdirilmiş	*1*	26,806	(401)	26,405	*0*	25,455	(28)	25,427
- 91 - 180 gün gecikdirilmiş	*6*	22,349	(1,431)	20,918	*1*	2,197	(11)	2,186
- 181 - 360 gün gecikdirilmiş	*58*	10,341	(5,955)	4,386	*2*	8,875	(183)	8,692
- 360 gündən çox gecikdirilmiş	*100*	8,322	(8,322)	-	*100**	46,859	(11,610)	35,249
Cəmi		**226,422**	**(16,848)**	**209,574**		**218,172**	**(11,856)**	**206,316**

**360 gündən çox gecikdirilmiş borclar üzrə 100% ehtiyat yaradılmışdır, lakin 2023-cü ildə Naxçıvan Beynəlxalq Hava Limanının debitor borcları üzrə 35,249 min AZN məbləğində GKZ ehtiyatı hesabat tarixindən sonra həmin hava limanı üzərində nəzarətin Qrupa keçməsi ilə əlaqədar olaraq qaytarılmışdır (Qeyd 1-ə baxın).*

Hesabat dövrünün əvvəli və sonu arasındakı müddətdə sadələşdirilmiş GKZ modelinə əsasən ticarət debitor borcları üzrə kredit zərərləri üçün ehtiyat ayırmalarında dəyişikliklər aşağıdakı cədvəldə göstərilir:

Min Azərbaycan Manatı ilə	2024	2023
1 yanvar tarixinə ticarət debitor borcları üzrə kredit zərərləri üçün ehtiyat ayırmaları	**11,856**	**10,746**
Yeni yaradılmış	9,195	3,063
Bərpa edilmiş	(834)	(1,953)
Kredit zərərləri üzrə ehtiyatın reallaşdırılması	(3,368)	-
Cəmi dövr ərzində mənfəət və ya zərərdə tanınmış kredit zərərləri üçün ehtiyat ayırmaları	8,361	1,110
31 dekabr tarixinə ticarət debitor borcları üzrə kredit zərərləri üçün ehtiyat ayırmaları	**16,849**	**11,856**

15 Borc qiymətli kağızlara investisiyalar

Mühüm mühasibat uçotu prinsipi

İlkin tanınma. Mənfəət və ya zərərdə ədalətli dəyərlə qiymətləndirilən (FVTPL) borc qiymətli kağızlara investisiyalar ilkin olaraq ədalətli dəyərlə tanınır. Bütün digər borc qiymətli kağızlara investisiyalar əməliyyat xərcləri də nəzərə alınmaqla, ilkin olaraq ədalətli dəyərlə tanınır. İlkin tanınma zamanı ədalətli dəyər ən yaxşı olaraq əməliyyat qiyməti ilə sübut edilir. İlkin tanınma zamanı gəlir və ya zərər yalnız ədalətli dəyər ilə əməliyyat qiyməti arasında fərq olduqda qeydə alınır. Əməliyyat qiyməti eyni maliyyə aləti ilə aparılan digər müşahidə oluna bilən cari bazar əməliyyatları və ya əsas məlumat kimi yalnız müşahidə edilə bilən bazarların məlumatlarını istifadə edən qiymətləndirmə modeli ilə sübut edilir. İlkin tanınmadan sonra amortizasiya olunmuş dəyərlə və sair məcmu gəlirdə ədalətli dəyərlə (FVOCI) təsnifləşdirilən borc qiymətli kağızlara investisiyalar üzrə GKZ üçün ehtiyat tanınır və bu da aktivin ilkin tanınmasından dərhal sonra zərərin tanınması ilə nəticələnir.

Təsnifləşdirmə və sonrakı dövrdə qiymətləndirmə - qiymətləndirmə kateqoriyaları. Qrup borc qiymətli kağızlara investisiyaları FVOCI kateqoriyasında təsnifləşdirir. Borc maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi müvafiq aktivlər portfelinin idarə olunması üçün Qrupun biznes modelindən və aktiv üzrə pul axınlarının xüsusiyyətindən asılıdır.

15 Borc qiymətli kağızlara investisiyalar (davamı)

Təsnifləşdirmə və sonrakı dövrdə qiymətləndirmə - pul axınlarının xüsusiyyətləri. Biznes model müqavilə üzrə pul axınlarının əldə edilməsi və ya müqavilə üzrə pul axınlarının əldə edilməsi və maliyyə aktivlərinin satılması üçün aktivlərin saxlanılmasını nəzərdə tutduqda, Qrup pul axınlarının yalnız əsas borc və faiz ödənişlərindən ibarət olub-olmadığını qiymətləndirir (SPPI təhlili). Asılı törəmə alətlərdən ibarət investisiyalar üzrə pul axınlarının SPPI meyarına uyğun olub-olmadığını müəyyən etmək üçün belə aktivlər məcmu şəkildə nəzərdən keçirilir. Belə bir qiymətləndirmə apararkən Qrup müqavilə üzrə pul axınlarının əsas kredit razılaşmasının şərtlərinə uyğunluğunu, yəni faizlərə yalnız kredit riski üzrə ödənişlərin daxil olmasını, pulun zaman dəyərini, əsas kredit razılaşması üzrə digər riskləri və mənfəət marjasını nəzərə alır.

Müqavilə şərtləri əsas kredit sazişinin şərtlərinə uyğun olmayan risklərə və ya dəyişkənliyə məruz qalmanı nəzərdə tutduqda, həmin maliyyə aktivi FVTPL kateqoriyasında təsnifləşdirilir. SPPI təhlili aktivin ilkin tanınması zamanı həyata keçirilir və sonradan yenidən qiymətləndirilmir.

Min Azərbaycan Manatı ilə	**31 dekabr 2024**	**31 dekabr 2023**
FVOCI kateqoriyasında təsnifləşdirilən borc qiymətli kağızları	10,000	-
Cəmi borc qiymətli kağızlara investisiyalar	**10,000**	**-**

31 dekabr 2024-cü il tarixinə Qrupun borc qiymətli kağızları üzrə investisiyalarına satış opsionları formasında asılı törəmə alətlər daxildir.

31 dekabr 2024-cü il tarixinə borc qiymətli kağızlarına investisiyaların qiymətləndirmə kateqoriyaları və növləri üzrə təhlili aşağıdakı cədvəldə göstərilir:

Min Azərbaycan Manatı ilə	**FVOCI kateqoriyasında təsnifləşdirilən borc qiymətli kağızları**
Korporativ istiqrazlar	10,000
Cəmi 31 dekabr 2024-cü il tarixinə borc qiymətli kağızlara investisiyalar (ədalətli dəyəri)	**10,000**

16 Pul vəsaitləri və onların ekvivalentləri

Mühüm mühasibat uçotu prinsipi

Pul vəsaitləri və onların ekvivalentləri. Pul vəsaitləri və onların ekvivalentlərinə kassa və banklardakı tələbli depozitlər daxildir. Pul vəsaitləri və onların ekvivalentləri aşağıdakı səbəblərə görə amortizasiya olunmuş dəyərlə qeydə alınır: (i) müqavilə üzrə pul axınlarını əldə etmək məqsədilə saxlanılır və həmin pul axınları yalnız əsas borc və faiz ödənişlərindən ibarətdir, və (ii) FVTPL kateqoriyasında təsnifləşdirilmir.

Min Azərbaycan Manatı ilə	**2024**	**2023**
Kassa	250	94
Banklardakı cari hesab qalıqları	264,620	215,888
Cəmi 31 dekabr tarixinə pul vəsaitləri və onların ekvivalentləri	**264,870**	**215,982**

31 dekabr 2024-cü il tarixinə kredit riskinin ödəmə qabiliyyəti dərəcələrinə əsasən pul vəsaitləri və onların ekvivalentlərinin kredit keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir. Qrupun kredit riskinin təsnifatı sistemi Qeyd 30-da təsvir edilir.

Min Azərbaycan Manatı ilə	**Banklardakı cari hesab qalıqları**
- Ən yüksək dərəcə	453
- Yüksək dərəcə	261,739
- Orta dərəcə	2,369
- Defolt	59
Cəmi pul vəsaitləri və onların ekvivalentləri, kassa istisna olmaqla	**264,620**

16 Pul vəsaitləri və onların ekvivalentləri (davamı)

31 dekabr 2023-cü il tarixinə kredit riskinin ödəmə qabiliyyəti dərəcələrinə əsasən pul vəsaitləri və onların ekvivalentlərinin kredit keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir. Qrupun kredit riskinin təsnifatı sistemi Qeyd 30-da təsvir edilir.

Min Azərbaycan Manatı ilə	**Banklardakı cari hesab qalıqları**
- Ən yüksək dərəcə	669
- Yüksək dərəcə	214,557
- Orta dərəcə	598
- Defolt	64
Cəmi pul vəsaitləri və onların ekvivalentləri, kassa istisna olmaqla	**215,888**

17 Nizamnamə kapitalı

Nizamnaməyə əsasən Qrupun elan edilmiş nizamnamə kapitalı 31 dekabr 2024 və 31 dekabr 2023-cü il tarixlərinə hər birinin nominal dəyəri 0.002 AZN olan 411,987,235 ədəd adi səhmdən ibarət olmaqla 823,975 AZN təşkil etmişdir. Adi səhmə malik olan səhmdarlar vaxtaşırı elan edilən dividendləri almaq və Qrupun yığıncaqlarında hər bir səhm üzrə bir səsvermə hüququna malikdirlər.

Səhmdar qoyuluşu

2023-cü il ərzində Qrupa əsaslı təmir işlərinin həyata keçirilməsi və gələcəkdə təhvil veriləcək hava gəmilərinin alınması məqsədilə dövlət tərəfindən ümumilikdə 125,475 min AZN məbləğində vəsait daxil olmuşdur.

18 Borc vəsaitləri

Mühüm mühasibat uçotu prinsipi

Tanınma və qiymətləndirmə. Borc vəsaitləri ilkin olaraq əməliyyat xərcləri çıxılmaqla ədalətli dəyərlə, sonradan isə ilkin tanınma zamanı FVTPL kateqoriyasında ölçülən maliyyə alətləri kimi təsnifləşdirilmədiyi halda, effektiv faiz metodu ilə amortizasiya olunmuş dəyərlə uçota alınır.

Tanınmanın dayandırılması. Maliyyə öhdəliyinin tanınması öhdəlik icra edildikdə (yəni, müqavilə üzrə öhdəlik yerinə yetirildikdə, ləğv edildikdə və ya icra müddəti başa çatdıqda) dayandırılır.

Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr

Borc öhdəliyinin ləğv edilməsi. Qrup əvvəlki dövrlərdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi qarşısında yaranmış 2,354,858 min AZN məbləğində öhdəliyin ləğv edilməsini mənfəət və zərər hesabatında deyil, birbaşa olaraq kapitalda dəyişikliklər haqqında hesabatda kapital qoyuluşu kimi tanımışdır. Bu yanaşma Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 fevral 2024-cü il tarixli, 75s nömrəli Sərəncamına əsaslanır. Həmin sərəncama uyğun olaraq, müvafiq öhdəlik Qrupun kapitalına transfer edilmişdir. Rəhbərlik MHBS standartlarına əsaslanaraq peşəkar mühakimə irəli sürmüş və bu borcun qarşılıqlı razılaşma və ya ödəniş müqabilində ləğv edilməsi kimi deyil, səhmdar qismində çıxış edən dövlət tərəfindən kapital qoyuluşu kimi qiymətləndirilməli olduğunu müəyyən etmişdir. Bu səbəbdən, borcun ləğv edilməsi iqtisadi mahiyyətin hüquqi formadan üstünlüyü prinsipinə uyğun olaraq kapital əməliyyatı kimi uçota alınmışdır.

Min Azərbaycan Manatı ilə	**2024**	**2023**
Müddətli kreditlər	232,216	2,603,746
Cəmi borc vəsaitləri	**232,216**	**2,603,746**

18 Borc vəsaitləri (davamı)

Qrupun borc vəsaitləri aşağıdakı valyutalarda ifadə olunmuşdur:

Min Azərbaycan Manatı ilə	2024	2023
Valyutalar:		
- AZN	-	624,167
- ABŞ dolları	209,610	1,391,890
- Avro	20,053	31,784
Hesablanmış faizlər	2,553	555,905
Cəmi 31 dekabr tarixinə borc vəsaitləri	**232,216**	**2,603,746**

31 dekabr 2024-cü il tarixinə ABŞ dolları və Avroda olan müddətli kreditlər üzrə effektiv orta illik faiz dərəcəsi müvafiq olaraq 7.3% və 1.6% təşkil etmişdir (31 dekabr 2023: AZN - 7.2%, ABŞ dolları - 5.1%, Avro - 1.6%). 2024-cü il üzrə dəyişkən faiz dərəcələri 3 aylıq SOFR + 1.8%, dövr üzrə sabit illik faiz dərəcələri isə 0.75% - 1.5% aralığında olmuşdur. 2023-cü il üzrə dəyişkən faiz dərəcələri 3 aylıq USD LIBOR + illik 2.2% və 3 aylıq SOFR +1.8%, dövr üzrə sabit illik faiz dərəcələri isə 0.75% - 8% aralığında dəyişmişdir.

31 dekabr 2024-cü il tarixinə Qrupun ümumi borc öhdəliklərinin 212,162 min AZN məbləğində hissəsi üzrə xüsusi maliyyə şərtləri mövcud olmuşdur (31 dekabr 2023: 235,827 min AZN). Həmin borc öhdəlikləri üzrə təminat kimi qalıq dəyəri 314,083 min AZN (2023: 348,650 min AZN) olan hava gəmiləri üçüncü tərəflərə girov qoyulmuşdur. Xüsusi maliyyə şərtləri barədə ətraflı məlumat Qeyd 27-də açıqlanır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 fevral 2024-cü il tarixli 75s nömrəli Sərəncamına əsasən, Maliyyə Nazirliyi qarşısında yaranmış 2,354,858 min AZN məbləğində borc öhdəliyinin Qrupun kapitalına transferi nəzərdə tutulmuşdur.

19 Qazanılmamış gəlir

Bu müqavilə öhdəlikləri hesabat tarixinə satılmış, lakin istifadə edilməmiş aviabiletlərin dəyəri ilə bağlı sərnişin daşımaları üzrə müştərilər qarşısında öhdəliklərin əsas məbləğindən ibarətdir.

Qrup müştərilərlə bağlanmış müqavilələrdən irəli gələn aşağıdakı öhdəlikləri tanımışdır:

Min Azərbaycan Manatı ilə	31 dekabr 2024	31 dekabr 2023
İlin əvvəlində qazanılmamış gəlir	**77,945**	**60,487**
Əlavələr	1,028,115	830,674
Tanınmış gəlir	(1,020,845)	(813,216)
İlin sonunda qazanılmamış gəlir	**85,215**	**77,945**

20 Təxirə salınmış gəlir

Mühüm mühasibat uçotu prinsipi

Bonus proqramına ("FFP") aid gəlirlər Qrupun bonus xallarının əvəzini ödəmək məqsədilə ödənişsiz əsasda və yaxud endirimli xidmətlər göstərməklə öhdəliklərini yerinə yetirdikdə və ya bonus xallarının vaxtı bitdikdə tanınır.

Təxirə salınmış gəlir bonus xallarının əvəzinin ehtimal edilən ödənmə müddətləri əsasında qısa və uzun müddətli öhdəliklər kimi təsnifləşdirilir. Qrup yığılmış bonus xallarını alqı-satqı sövdələşməsi çərçivəsində ayrıca müəyyən edilən komponent kimi uçotda tanıyır. Bölünən ödənişlərin dəyəri onların müstəqil satış qiyməti əsasında verilmiş bonuslara tətbiq edilir və öhdəlik (təxirə salınmış gəlir) kimi konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda tanınır. Bir fərdi bonus milinin müstəqil satış qiyməti gələcəkdə Bonus proqramının iştirakçısına təqdim olunması gözlənilən xidmətlərin ədalətli dəyərinin təqribidir.

Min Azərbaycan Manatı ilə	**31 dekabr 2024**	**31 dekabr 2023**
İlin əvvəlinə təxirə salınmış gəlir	**7,453**	**25,617**
İl ərzində hesablanmış	8,579	8,413
İl ərzində müddəti başa çatmış	(493)	(18,157)
İl ərzində əvəzi ödənilmiş	(3,829)	(8,420)
İlin sonunda təxirə salınmış gəlir	**11,710**	**7,453**

21 Maliyyələşdirmə fəaliyyətindən yaranan öhdəliklərdə dəyişikliklər

Aşağıdakı cədvəldə maliyyələşdirmə fəaliyyətindən yaranan öhdəliklərin təhlili və təqdim olunan hər bir dövr üzrə Qrupun maliyyələşdirmə fəaliyyətindən yaranan öhdəliklərin hərəkəti göstərilir. Bu öhdəliklər konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatda maliyyələşdirmə fəaliyyəti kimi qeydə alınır:

	31 dekabr 2024-cü il tarixində başa çatan il				31 dekabr 2023-cü il tarixində başa çatan il			
Min Azərbaycan Manatı ilə	**Bank kreditləri**	**Əlaqəli tərəflərdən alınmış borclar**	**İcarə öhdəlikləri**	**Cəmi**	**Bank kreditləri**	**Əlaqəli tərəflərdən alınmış borclar**	**İcarə öhdəlikləri**	**Cəmi**
1 yanvar tarixinə maliyyələşdirmə fəaliyyətindən yaranan öhdəliklər	**23,972**	**2,579,774**	**178,600**	**2,782,346**	**25,815**	**2,297,714**	**396,572**	**2,720,101**
Pul axınları								
Alınmış borclar	-	-	-	-	-	232,900	-	232,900
Əsas borc üzrə ödənişlər	(2,633)	(23,326)	(91,656)	(117,615)	(2,757)	(72,040)	(299,345)	(374,142)
Faiz ödənişləri	(266)	(15,859)	(15,240)	(31,365)	(400)	-	(36,575)	(36,975)
Qeyri-pul axınları								
Hesablanmış faizlər	266	26,521	15,240	42,027	400	124,113	36,575	161,088
Yeni icarə müqavilələri	-	-	109,038	109,038	-	-	82,365	82,365
Məzənnə fərqi üzrə düzəlişlər	(1,286)	(86)	-	(1,372)	904	229	-	1,133
Borc öhdəliyinin ləğv edilməsi	-	(2,354,858)	-	(2,354,858)	-	-	-	-
Digər	-	-	-	-	10	(3,142)	(992)	(4,124)
31 dekabr tarixinə maliyyələşdirmə fəaliyyətindən yaranan öhdəliklər	**20,053**	**212,166**	**195,982**	**428,201**	**23,972**	**2,579,774**	**178,600**	**2,782,346**

Digər dəyişikliklərə kreditlər və borc vəsaitləri, o cümlədən icarə öhdəlikləri üzrə hesablanmış və ödənilmiş faizlər (xalis) daxildir.

22 Ticarət və digər kreditor borcları

Mühüm mühasibat uçotu prinsipi

Tanınma və qiymətləndirmə. Ticarət kreditor borcları qarşı tərəfin müqavilə üzrə öz öhdəliklərini yerinə yetirdiyi zaman hesablanır və ilkin olaraq ədalətli dəyərlə, sonradan isə effektiv faiz metoduna əsasən amortizasiya olunmuş dəyərlə tanınır.

Tanınmanın dayandırılması. Ticarət kreditor borclarının tanınması öhdəlik icra edildikdə (yəni, müqavilə üzrə öhdəlik yerinə yetirildikdə, ləğv edildikdə və ya icra müddəti başa çatdıqda) dayandırılır.

Min Azərbaycan Manatı ilə	**2024**	**2023**
Ticarət kreditor borcları	116,209	95,053
Əlaqəli tərəflərə ödənilməli məbləğlər	3,409	2,003
Cəmi amortizasiya olunmuş dəyərlə təsnifləşdirilən ticarət və digər kreditor borclarına daxil olan maliyyə öhdəlikləri	***119,618***	***97,056***
İşçilərlə bağlı hesablanmış öhdəliklər	28,024	11,042
Alınmış avanslar	14,651	14,632
Satışlar üzrə əvəzləşdirilə bilən ƏDV	5,285	5,586
Digər öhdəliklər	5,019	2,242
Cəmi digər öhdəliklər	***52,979***	***33,502***
Cəmi 31 dekabr tarixinə ticarət və digər kreditor borcları	**172,597**	**130,558**

Ticarət və sair kreditor borcları əsasən təchizatçıların Qrupa göstərdiyi təmir və texniki qulluq, yerüstü xidmətlər, göyərtədə qidalanma və sair xidmətlərdən ibarətdir.

2024 və 2023-cü illər üzrə Qrupun əsas təchizatçılarına SOCAR "Azneft" İB (yanacaq), AJ Walter Aviation Ltd. (ehtiyat hissələri), GA Telesis MMC (ehtiyat hissələri), USA Aerospace Holding Co. (ehtiyat hissələri), Silk Way Group (təyyarələrə texniki xidmət), ASG Business Aviation Group (yerüstü xidmətlər, göyərtədə qidalanma, təmir və texniki qulluq), Silk Rovv Travel MMC (satış və marketinq), İpək Yolu Sığorta ASC (sığorta), Azərişıq ASC (elektrik enerjisi) və SITA (rabitə) daxildir.

Alınmış avanslar əsasən Qrup tərəfindən hava gəmilərinə texniki xidmətlərin göstərilməsinə görə xarici aviaşirkətlər tərəfindən ödənilmiş vəsaitlərdir.

31 dekabr 2024 və 2023-cü il tarixlərinə digər öhdəliklər işçilərin sosial vergilər üzrə yaranan öhdəliklərdən ibarətdir.

23 Daşımalar və digər xidmətlər üzrə gəlirlər

Mühüm mühasibat uçotu prinsipi

Gəlirin tanınması

Gəlir əməliyyat qiymətinin məbləğində tanınır. Əməliyyat qiyməti vəd verilmiş mal və xidmətlər üzrə nəzarətin alıcıya ötürülməsi müqabilində üçüncü tərəflərin adından alınan məbləğlər istisna olmaqla, Qrup tərəfindən əldə ediləcəyi gözlənilən ödənişlərdir.

Sərnişin daşımaları üzrə gəlir. Aviabilet satışlarından daxil olan gəlir hava daşımaları xidmətləri göstərilən zaman daşımalardan daxil olan gəlir kimi hesaba alınır. Satılmış və etibarlı olan, lakin hesabat tarixinə hələ istifadə edilməmiş aviabiletlərin dəyəri konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda ayrıca sətirdə (qazanılmamış gəlir kimi) qısamüddətli öhdəliklər maddəsində əks olunur. Bu hesab Qrupun müvafiq hava daşımaları xidmətlərini göstərdiyi zaman və ya sərnişin biletə görə geri ödəmə tələb etdiyi zaman, yaxud da bu tələb etmə hüququnu itirdiyi zaman azaldılır.

23 Daşımalar və digər xidmətlər üzrə gəlirlər (davamı)

Sərnişin daşımalarından gəlirlərə, həmçinin Qrupun müəyyən aviaşirkətlərlə bağlamış olduğu kod-şerinq müqavilələrindən daxil olan gəlirlər də daxildir. Bu müqavilələr əsasında Qrup və digər aviaşirkətlər bir-birinin reyslərinə biletlər satır ("kod-şerinq müqaviləsi"). Kod-şerinq müqavilələri üzrə digər aviaşirkətlərin reyslərinin bilet satışından daxil olan gəlir Qrupun tutduğu komissiya məbləğində uçota alınır və satılan biletdən istifadə edilmədiyi təqdirdə geri qaytarılma ehtimalı nəzərə alınmaqla tanınır. Kod-şerinq müqaviləsi əsasında Qrupun biletlərinin digər aviaşirkətlər tərəfindən satışından daxil olan gəlir hava daşımaları xidmətlərinin göstərildiyi an tam məbləğdə daşımalar üzrə gəlirlər hesabında Qrupun konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabata daxil edilir.

Biletin yenidən buraxılması üzrə gəlir – Qrupun göstərdiyi hər bir xidmət haqqının ayrıca şərtləri var (xidmət haqqı əvəzi ödənilən və ya əvəzi ödənilməyən ola bilər). Bu o deməkdir ki, sərnişinlərin öz bronlarını dəyişdirdiyi, reyslərini ləğv etdiyi və ya əvəzləyici biletlər aldığı təqdirdə, bütün bunlar üçün xidmət haqqı tətbiq oluna bilər. Dəyişdirmə xidmətinə fərdi qaydada baxılmır, çünki müştəri reys götürmədən bu imtiyazdan faydalana bilmir – bron zamanı dəyişdirmə xidmətlərinin ayırd edilməsi mümkün deyil və xidmət üzrə öhdəliyinin bir hissəsi kimi seçilmiş reys üzrə sərnişinə yer təqdim edilir. Dəyişdirmə xidməti reysdən əvvəl göstərilsə də, sərnişin uçuş bileti almayana qədər onunla bağlı imtiyazlardan istifadə edilməsi mümkün deyil. Nəticədə, dəyişdirmə üçün xidmət haqqı səyahət tarixində bilet satışı ilə birlikdə gəlir kimi tanınır.

Biletlərin istifadə edilməməsi – Müəyyən bilet növləri, müştərilərin, həqiqətən uçuş etməməsi halında, ödənilən məbləğin geri qaytarılmasını tələb etməyə imkan verir. Müştərilərlə Müqavilələrdən əldə edilmiş gəlirlər haqqında MHBS 15-də müəyyən edilir ki, istifadə olunmayan bu məbləğlər üçün gəlirin tanınma vaxtı müəssisənin istifadə olunmayan bilet məbləğini tanımaq hüququ haqda gözləntisindən asılıdır. Müəssisənin istifadə olunmayan biletlər üçün gəlir əldə etmək hüququ yarandıqda, bu məbləğ müştərinin əməl etdiyi hüquq modelinə mütənasib şəkildə gəlir kimi tanınır. Əks halda, müəssisə bütöv ödəniş məbləğini müştərinin öz qalan hüquqlarını yerinə yetirmək ehtimalı olmadıqda gəlir kimi tanımalıdır.

Bonus proqramı – Qrup sərnişinlər üçün "AZAL Miles" adlı loyallıq proqramı tətbiq edir. Proqramın şərtlərinə əsasən qazanılmış bonus milləri sərnişinlərə ödənişsiz uçuşlar etmək, üst xidmət kateqoriyasından yararlanmaq və yaxud bonusları proqram tərəfdaşlarının xidmətlərində istifadə etmək imtiyazları qazandırır. MHBS 15-ə əsasən, yığılmış, lakin istifadə olunmamış bonus milləri əhəmiyyətli hüquq kimi təxirə salınır. 15 saylı MHBS standartı əməliyyat qiymətinin imzalanma zamanı müqavilədə vəd edilən ayrı məhsul və ya xidmət üçün müvafiq müstəqil satış qiymətləri əsasında hər bir müqavilə öhdəlikləri arasında bölüşdürülməsini tələb edir. Qrupun qrafik üzrə reysləri üçün biletin müstəqil satış qiyməti sərnişinin bonus proqramının iştirakçısı olub-olmamasından asılı olmayaraq Qrup tərəfindən satış zamanı həmin istiqamət üzrə müəyyən olunmuş tarifdir. Bir fərdi bonus milinin müstəqil satış qiyməti gələcəkdə Bonus proqramının iştirakçısına təqdim olunacaq xidmətlərin ədalətli dəyərinin təqribidir. Gəlirin bonus milləri ilə bağlı olan və "AZAL Miles" proqramı əsasında Qrupun reyslərindən yığılmış hissəsi təxirə salınmış qısamüddətli və uzunmüddətli gəlir kimi, müvafiq olaraq Qrupun konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatında qısamüddətli və uzunmüddətli öhdəliklərdə əks olunur.

Gəlir ancaq "AZAL Miles" iştirakçılarına xidmət göstərildikdən sonra və ya belə xidmətləri əldə etmək hüquqlarının müddəti bitdikdə tanınır.

Biletləri satan agentlərə ödənilməli komissiyaların uçotu – Qrup MHBS 15-ə uyğun olaraq, müştəri ilə müqavilə əldə etmək üçün çəkilən xərcləri kapitallaşdırmamağa imkan verən praktiki metoddan istifadə edir və biletlərin satışı üzrə agentlərə ödənilməli komissiyaları konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda biletlərin satıldığı dövrdə əməliyyat xərclərində tanıyır. Belə ki, Qrupun hazırkı tariflərinə əsasən sərnişin daşıması öhdəliklərinin yerinə yetirilməsi dövrü bir ildən çox olmur.

Yük daşımaları. Yük daşımaları üzrə gəlir daşıma xidmətləri göstərildiyi anda tanınır.

Aeronaviqasiya, yanacaqdoldurma, hava limanı və aviasiya təhlükəsizliyi və digər gəlirlər. Aeronaviqasiya, yanacaqdoldurma, hava limanı və aviasiya təhlükəsizliyi və digər xidmətlər göstərildiyi anda endirimlər və vergilər çıxılmaqla tanınır.

23 Daşımalar və digər xidmətlər üzrə gəlirlər (davamı)

Qrup malların və xidmətlərin ötürülməsindən dövr ərzində və müəyyən zaman anında gəlir əldə edir:

Min Azərbaycan Manatı ilə	2024	2023
Qrafik üzrə sərnişin daşımaları	1,091,399	724,397
Yanacaqdoldurma xidmətləri	286,121	221,934
Hava limanı və aviasiya təhlükəsizliyi xidmətləri	273,140	235,923
Aeronaviqasiya xidmətləri	166,424	122,758
Çarter sərnişin daşımaları	92,908	122,870
Yük daşımaları	20,718	12,424
Digər gəlirlər	23,823	26,837
Cəmi daşımalar və digər xidmətlər üzrə gəlir	**1,954,533**	**1,467,143**

Gəlirlərin tanınma müddəti (hər bir gəlir axını üzrə) aşağıda göstərilir:

Min Azərbaycan Manatı ilə	2024	2023
Müəyyən zaman anında	1,840,283	1,344,499
Dövr ərzində	114,250	122,644
Cəmi daşımalar və digər xidmətlər üzrə gəlir	**1,954,533**	**1,467,143**

24 Sair əməliyyat xərcləri

Min Azərbaycan Manatı ilə	Qeyd	2024	2023 (düzəliş edilmiş)
Yerüstü xidmətlər		103,512	93,197
Azərbaycandan kənarda aeronaviqasiya və hava limanı xidmətləri		80,209	58,845
Kommersiya xidmətləri və komissiyalar		78,314	46,564
Xarici hava limanlarında sərnişinlərlə bağlı yığımlar		59,254	37,845
Göyərtədə qidalanma və içki xidmətləri		44,659	32,140
Sərnişinlərə xidmətlər		34,805	6,439
Uzunmüddətli aktivlərin dəyərsizləşməsi	8,9,29	26,893	18,620
Mənfəət vergisindən başqa digər vergilər		25,421	22,563
Konsaltinq xərcləri		21,376	22,021
Rabitə xərcləri		20,104	6,397
Ezamiyyə xərcləri		14,164	10,161
Elektrik enerjisi xərcləri		9,991	7,158
Sığorta xərcləri		8,875	9,322
İnventarlar üzrə ehtiyat		3,563	13,000
Verilmiş avanslar üzrə dəyərsizləşmə ehtiyatında dəyişiklik		-	520
Əvəzləşdirilə bilən ƏDV qalığı üzrə dəyərsizləşmə ehtiyatında dəyişiklik		(140)	(1,184)
Digər xərclər		93,362	65,478
Cəmi sair əməliyyat xərcləri		**624,362**	**449,086**

İşçi heyəti üzrə xərclərin 43,033 min AZN (2023: 29,431 min AZN) hissəsini sosial sığorta ayırmaları təşkil edir.

Auditorun xidmət haqqı. 31 dekabr 2024-cü il tarixinə Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarının audit yoxlaması və qeyri-audit xidmətləri üçün illik xidmət haqqı müvafiq olaraq ƏDV çıxılmaqla 374,000 AZN və 331,500 AZN (31 dekabr 2023: müvafiq olaraq ƏDV çıxılmaqla 407,000 AZN və sıfır) təşkil edir.

25 Maliyyə xərcləri

Min Azərbaycan Manatı ilə	2024	2023
Kreditlər və borc vəsaitləri üzrə faiz xərcləri	25,272	124,513
İcarə öhdəlikləri üzrə faiz xərcləri	15,240	36,575
Cəmi mənfəət və ya zərərdə tanınmış maliyyə xərcləri	**40,512**	**161,088**

26 Mənfəət vergisi

Mühüm mühasibat uçotu prinsipi

Mənfəət vergisi. Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarında mənfəət vergisi qüvvədə olan və ya hesabat dövrünün sonuna qüvvəyə minmiş qanunvericiliyin tələblərinə uyğun olaraq əks etdirilir. Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisindən ibarət olub, il üzrə mənfəət və ya zərərdə tanınır. Lakin həmin və ya başqa dövrdə sair məcmu gəlirdə və ya birbaşa kapitalda tanınan əməliyyatlara aid olan vergilər sair məcmu gəlirdə və ya birbaşa kapitalda tanınır.

Vergiyə cəlb edilən mənfəət və ya zərər konsolidasiya edilmiş maliyyə hesabatları müvafiq vergi bəyannamələrinin təqdim edilməsindən əvvəl təsdiqləndiyi halda təxmini göstəricilərə əsasən hesablanır. Mənfəət vergisindən başqa digər vergilər əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi öhdəlik metodundan istifadə etməklə, aktiv və öhdəliklərin vergi bazası və maliyyə hesabatlarının hazırlanması məqsədləri üçün onların balans dəyəri arasında yaranan keçmiş illərin vergi zərəri və bütün müvəqqəti fərqlər üçün hesablanır. İlkin tanınma zamanı istisna hal olaraq, əgər əməliyyat maliyyə mənfəəti və vergiyə cəlb edilən mənfəətə təsir göstərmirsə və əməliyyat həyata keçirilən anda bərabər məbləğdə vergi bazasını artıran və azaldan müvəqqəti fərqlərə səbəb olmursa, aktiv və öhdəliyin ilkin qeydə alınması nəticəsində yaranan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi hesablanmır (müəssisələrin birləşməsi halları istisna olmaqla). Təxirə salınmış vergi qalıqları qüvvədə olan və ya hesabat dövrünün sonunda qüvvəyə minmiş vergi dərəcələrinə əsasən müvəqqəti fərqlərin qaytarılacağı və ya keçmiş illərdən yığılmış vergi zərərlərinin istifadə ediləcəyi dövrdə tətbiq edilməli vergi dərəcələrindən istifadə etməklə hesablanır.

Gəlirdən çıxılan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi aktivləri və keçmiş illərin vergi zərərləri müvəqqəti fərqlərin geri qaytarılması, kifayət qədər vergi tutulan gələcək gəlirlərin yaranması və bu gəlirlər üzrə çıxılmaların istifadə edilməsi ehtimalını nəzərə alaraq tanınır.

Təxirə salınmış vergi aktiv və öhdəlikləri cari vergi aktivləri və vergi öhdəliklərinin əvəzləşdirilməsi üçün qanunvericilikdə nəzərdə tutulan hüquq mövcud olduqda, eləcə də təxirə salınmış vergi aktiv və öhdəlikləri vergiyə cəlb edilən eyni və ayrı-ayrı şəxslər tərəfindən eyni vergi orqanına ödənilmiş vergiyə aid olduqda və bu zaman hesablaşmaları əvəzləşdirmə yolu ilə aparmaq niyyəti mövcud olduğu halda əvəzləşdirilə bilər. Təxirə salınmış vergi aktiv və öhdəlikləri yalnız Qrupun ayrı-ayrı müəssisələri arasında əvəzləşdirilir.

Qeyri-müəyyən vergi mövqeləri. Qrupun qeyri-müəyyən vergi mövqeləri rəhbərlik tərəfindən hər bir hesabat dövrünün sonunda yenidən qiymətləndirilir. Rəhbərlik vergi orqanları tərəfindən Qrupun vergi mövqeyinin mübahisələndirildiyi halda əlavə vergi öhdəliklərinin yaranmasını ehtimal edərsə, vergi öhdəlikləri nəzərə alınmır. Bu cür qiymətləndirmə qüvvədə olan və ya hesabat dövrünün sonunda qüvvəyə minmiş vergi qanunvericiliyinin təfsirinə və bu məsələlərə dair hər hansı məhkəmə və ya digər qurumların məlum qərarlarına əsasən aparılır. Mənfəət vergisi istisna olmaqla, cərimələr, penyalar və vergilər üzrə öhdəliklər hesabat dövrünün sonunda öhdəliklərin yerinə yetirilməsi üçün zəruri olan xərclərə dair rəhbərliyin ən yaxşı təxminləri əsasında uçota alınır. Faiz və cərimələr istisna olmaqla, qeyri-müəyyən vergi mövqeləri üzrə düzəlişlər mənfəət vergisi xərci kimi qeydə alınır. Faiz və cərimələr ilə bağlı qeyri-müəyyən vergi mövqeləri üzrə düzəlişlər müvafiq olaraq xalis maliyyə xərcləri və sair gəlirlər/(zərərlərin) tərkibində qeyd alınır.

26 Mənfəət vergisi (davamı)

(a) Mənfəət vergisi xərcinin komponentləri

Mənfəət vergisi xərci aşağıdakı komponentlərdən ibarətdir:

Min Azərbaycan Manatı ilə	2024	2023
Cari vergilər	69,119	6,532
Əvvəlki illər üzrə mənfəət vergisinin yenidən qiymətləndirilməsi	4,137	(762)
Təxirə salınmış vergilər	(3,092)	23,076
İl üzrə mənfəət vergisi xərci	**70,164**	**28,846**

31 dekabr 2024-cü il tarixinə Qrupun 9,716 min AZN məbləğində növbəti illərə keçirilə bilən vergi zərəri mövcuddur (2023: 25,540 min AZN). 31 dekabr 2023-cü il tarixində başa çatan il ərzində 47,552 min AZN məbləğində növbəti illərə keçirilə bilən vergi zərəri vergidən əvvəlki mənfəət ilə kompensasiya edilmişdir.

Növbəti illərə keçirilə bilən vergi zərərinin kompensasiya müddəti aşağıdakı kimidir:

Min Azərbaycan Manatı ilə	2024	2023
Son kompensasiya tarixləri:		
- 31 dekabr 2024	-	3,012
- 31 dekabr 2025	-	9,373
- 31 dekabr 2026	-	3,635
- 31 dekabr 2027	859	5,075
- 31 dekabr 2028	4,445	4,445
- 31 dekabr 2029	4,412	-
31 dekabr tarixinə növbəti illərə keçirilə bilən vergi zərəri	**9,716**	**25,540**

(b) Mənfəət vergisi xərci ilə mənfəət və ya zərərin qanunvericiliklə müəyyən edilmiş müvafiq vergi dərəcəsinə olan hasilinin üzləşdirilməsi

2024-cü il ərzində Qrupa tətbiq edilən mənfəət vergisi dərəcəsi 20% (2023: 20%) təşkil etmişdir. Gözlənilən və faktiki tətbiq edilən vergi xərclərinin üzləşdirilməsi aşağıda göstərilir.

Min Azərbaycan Manatı ilə	2024	2023
Vergidən əvvəlki mənfəət	**286,830**	**145,444**
Qanunvericiliklə müəyyən edilmiş 20% dərəcə ilə hesablanmalı olan vergi məbləği:	57,366	29,089
Vergi məqsədləri üçün çıxılmayan xərclərin və ya vergiyə cəlb edilməyən gəlirlərin vergi effekti:		
- Vergidən azad olunan mənfəət	(3,823)	-
- Gəlirdən çıxılmayan xərclər	16,044	1,810
Əvvəlki illərdə cari vergilər üzrə az/(çox) hesablanmış ehtiyat	4,136	(762)
Əvvəlki illər üzrə tanınmamış növbəti illərə keçirilə bilən vergi zərəri və onların istifadəsi	(3,559)	(1,291)
İl üzrə mənfəət vergisi xərci	**70,164**	**28,846**

26 Mənfəət vergisi (davamı)

(c) Müvəqqəti fərqlərin növləri üzrə təxirə salınmış vergilərin təhlili

MHBS Uçotu Standartları və ölkənin yerli vergi qanunvericiliyi arasındakı fərqlər nəticəsində maliyyə hesabatlarının hazırlanması və mənfəət vergisinin hesablanması məqsədilə aktiv və öhdəliklərin balans dəyəri arasında müvəqqəti fərqlər yaranır. Bu müvəqqəti fərqlər üzrə hərəkətlərin vergi effekti aşağıda göstərilir:

Min Azərbaycan Manatı ilə	1 yanvar 2024	Mənfəət və ya zərərdə (xərc)/gəlir kimi tanınmışdır	31 dekabr 2024
Vergi bazasını azaldan/(artıran) müvəqqəti fərqlərin vergi effekti			
Əsas vəsaitlər	(64,090)	(1,539)	(65,629)
İstifadə hüquqlu aktivlər	(48,395)	448	(47,947)
Qeyri-maddi aktivlər	(245)	50	(195)
Sair uzunmüddətli aktivlər	(41)	-	(41)
Ticarət və digər debitor borcları	2,559	1,283	3,842
İstehlak olunan ehtiyat hissələri və mal-material ehtiyatları	8,438	813	9,251
Pul vəsaitləri və onların ekvivalentləri	43	(43)	-
Sair qısamüddətli aktivlər	77	199	276
Kreditlər və borc vəsaitləri	(137)	137	-
İcarə öhdəlikləri	214	158	372
Ticarət və digər kreditor borcları	3,919	1,386	5,305
Qazanılmamış gəlir	(3,099)	(1,181)	(4,280)
Təxirə salınmış gəlir	1,491	557	2,048
Sair qısamüddətli öhdəliklər	264	824	1,088
Təxirə salınmış xalis vergi aktivi/(öhdəliyi)	**(99,002)**	**3,092**	**(95,910)**
Tanınmış təxirə salınmış vergi aktivi	17,005	5,854	22,181
Tanınmış təxirə salınmış vergi öhdəliyi	(116,007)	(2,763)	(118,092)
Təxirə salınmış xalis vergi aktivi/(öhdəliyi)	**(99,002)**	**3,092**	**(95,910)**

Qrupun mövcud strukturu nəzərə alınmaqla, ayrı-ayrı Qrup müəssisələrinin vergi zərərləri və cari vergi aktivləri digər Qrup müəssisələrinin cari vergi öhdəlikləri və vergiyə cəlb olunan mənfəəti ilə əvəzləşdirilə bilməz və buna görə də, konsolidasiya edilmiş vergi zərəri yarandıqda belə, vergi hesablana bilər. Bu səbəbdən, təxirə salınmış vergi aktiv və öhdəlikləri yalnız eyni vergi ödəyicisinə aid olduqda qarşılıqlı şəkildə əvəzləşdirilir.

26 Mənfəət vergisi (davamı)

31 dekabr 2023-cü il tarixində başa çatan il üçün bu müvəqqəti fərqlər üzrə hərəkətlərin vergi effekti aşağıda göstərilir:

Min Azərbaycan Manatı ilə	1 yanvar 2023	Mənfəət və ya zərərdə (xərc)/gəlir kimi tanınmışdır	31 dekabr 2023
Vergi bazasını azaldan/(artıran) müvəqqəti fərqlərin vergi effekti			
Əsas vəsaitlər	(51,817)	(12,273)	(64,090)
İstifadə hüquqlu aktivlər	(41,306)	(7,089)	(48,395)
Qeyri-maddi aktivlər	(236)	(9)	(245)
Sair uzunmüddətli aktivlər	1,770	(1,811)	(41)
Ticarət və digər debitor borcları	2,847	(288)	2,559
İstehlak olunan ehtiyat hissələri və mal-material ehtiyatları	3,156	5,282	8,438
Pul vəsaitləri və onların ekvivalentləri	43	-	43
Sair qısamüddətli aktivlər	-	77	77
Kreditlər və borc vəsaitləri	(135)	(2)	(137)
İcarə öhdəlikləri	442	(228)	214
Ticarət və digər kreditor borcları	3,318	601	3,919
Qazanılmamış gəlir	598	(3,697)	(3,099)
Təxirə salınmış gəlir	5,123	(3,632)	1,491
Sair qısamüddətli öhdəliklər	271	(7)	264
Təxirə salınmış xalis vergi öhdəliyi	**(75,926)**	**(23,076)**	**(99,002)**
Tanınmış təxirə salınmış vergi aktivi	17,568	(563)	17,005
Tanınmış təxirə salınmış vergi öhdəliyi	(93,494)	(22,513)	(116,007)
Təxirə salınmış xalis vergi öhdəliyi	**(75,926)**	**(23,076)**	**(99,002)**

27 Təəhhüdlər və şərti öhdəliklər

Mühüm mühasibat uçotu prinsipi

Şərti vergi öhdəlikləri. Azərbaycan Respublikasının hesabat dövrünün sonunda qüvvədə olan vergi qanunvericiliyi Qrupun əməliyyatları və fəaliyyəti ilə bağlı müxtəlif şərhlərə məruz qalır. Nəticə etibarilə, vergi qanunvericiliyinə dair rəhbərliyin mövqeləri və bu mövqeləri əsaslandıran rəsmi sənədlər vergi orqanları tərəfindən mübahisələndirilə bilər. Vergi yoxlamaları yoxlamanın keçirildiyi il də daxil olmaqla, vergi ödəyicisinin 2023-cü və 2024-cü təqvim illərindən çox olmayan fəaliyyətini əhatə edə bilər. Müəyyən hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər.

Qrup Azərbaycanda hava nəqliyyatı ilə sərnişin daşıma xidmətləri göstərir. Yerli vergi qanunvericiliyində belə xidmətləri tənzimləyən xüsusi müddəalar nəzərdə tutulmadığından, rəhbərlik bu xidmətlərə dair ümumi müddəalar tətbiq edir və müvafiq vergi yanaşmasının müəyyən edilməsində peşəkar mühakimə yürüdür. Azərbaycan Respublikasında vergi sistemi inkişaf mərhələsindədir və tətbiqetmə praktikası dəyişə bilər. Rəhbərlik qüvvədə olan qanunvericilik, rəsmi qərarlar və məhkəmə təcrübəsinin mövcud şərhinə əsasən hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarında tanınmış vergi öhdəliklərinin düzgün olduğunu hesab edir. Bununla belə, vergi orqanlarının yoxlamasından sonra yekun vergi yanaşması rəhbərliyin mühakiməsindən fərqli ola bilər. Nəticədə yaranacaq düzəlişlər vergi orqanının qərarının verildiyi dövrdə tanınacaq ki, bu da konsolidasiya edilmiş maliyyə hesabatlarına təsir göstərə bilər.

Kapital məsrəfləri ilə bağlı öhdəliklər. Qrup Boeing və AIRBUS şirkətləri ilə səkkiz ədəd Boeing 787-9 Dreamliner və on iki ədəd Airbus NEO (A320neo və A321neo) hava gəmisinin satın alınması ilə bağlı razılaşma əldə etmişdir. Razılaşdırılmış ödəniş cədvəllərinə uyğun olaraq, Qrup hava gəmilərinin təhvil verilməsindən əvvəl ödənişlər etməyi öhdəsinə götürmüşdür. Airbus NEO hava gəmilərinin 2028 və 2030-cu illərdə, Boeing 787-9 Dreamliner hava gəmilərinin isə beşinin 2030-cu ilədək, qalanlarının isə 2030-cu ildən sonra təhvil verilməsi planlaşdırılır. Əldə edilmiş razılaşmalara uyğun olaraq, 2023-cü ildə hava gəmiləri təhvil verilməmişdən əvvəl ödənişlər həyata keçirilmişdir. Bundan əlavə, Qrup səkkiz ədəd Airbus hava gəmisinin (A320neo və A321neo modelləri) uzunmüddətli icarəsi ilə bağlı müqavilələr bağlamışdır və onların 2025 və 2026-cı illərdə təhvil verilməsi nəzərdə tutulur.

27 Təəhhüdlər və şərti öhdəliklər (davamı)

Qrupun təchizatçıları ilə olan müqavilə şərtləri ona hava gəmilərinin alış qiymətini açıqlamağa icazə vermir.

Təminat kimi girov qoyulmuş və məhdudlaşdırılmış aktivlər. 31 dekabr 2024-cü il tarixinə balans dəyəri 314,083 min AZN (31 dekabr 2023: 348,650 min AZN) olan altı hava gəmisi yuxarıda qeyd olunan üç ədəd icarəyə götürülmüş Airbus A320-271N hava gəmisi üzrə icarə öhdəliklərinin yenidən maliyyələşdirilməsi məqsədilə Qrupun borc öhdəlikləri (Qeyd 18) üzrə təminat kimi girov qoyulmuşdur. Bu borc öhdəlikləri üzrə xüsusi maliyyə şərtlərində borc məbləğinin müvafiq hava gəmilərinin bazar dəyərinə nisbəti əsasında faizlə hesablanması nəzərdə tutulur. Qrup 31 dekabr 2024 və 2023-cü il tarixlərinə qeyd olunan xüsusi maliyyə şərtlərinə riayət etmişdir.

Ətraf mühitin mühafizəsi ilə bağlı məsələlər. Azərbaycan Respublikasında ətraf mühitin mühafizəsi ilə bağlı qanunvericilik təkmilləşdirilir və ona əməl olunması ilə bağlı dövlət orqanlarının mövqeyi davamlı olaraq yenidən nəzərdən keçirilir. Qrup ətraf mühitin mühafizəsi ilə bağlı öhdəliklərini mütəmadi olaraq qiymətləndirir. Belə öhdəliklər müəyyən edildikcə dərhal uçota alınır. Mövcud qanunvericilik və normativ aktlardakı dəyişikliklər nəticəsində yarana bilən, eləcə də məhkəmə praktikası nəticəsində kifayət qədər dəqiqliklə qiymətləndirilə bilməyən potensial öhdəliklər əhəmiyyətli ola bilər. Rəhbərlik hesab edir ki, ətraf mühitin mühafizəsi haqqında qüvvədə olan qanunvericiliyə əməl olunması üzrə mövcud nəzarət sistemi şəraitində ətraf mühitə zərər vurulması ilə bağlı artıq əhəmiyyətli öhdəliklər mövcud deyil.

28 Əsas törəmə, asılı və birgə müəssisələr

Mühüm mühasibat uçotu prinsipi

Konsolidasiya edilmiş maliyyə hesabatları. Qrup (i) investisiya obyektinin gəlirlərinə əhəmiyyətli təsir göstərən müvafiq funksiyaları idarə etmək səlahiyyətinə malik olduqda (ii) investisiya obyektində iştirakından yaranan dəyişən gəlirlər ilə əlaqədar risklərə məruz qaldıqda və ya belə gəlirləri əldə etmək hüququna malik olduqda və (iii) investorun gəlirlərinə təsir göstərmək məqsədilə investisiya obyektinin üzərində öz səlahiyyətlərindən istifadə etmək imkanına malik olduqda belə müəssisələr Qrupun nəzarəti altında olan törəmə müəssisələr sayılır. Qrupun digər müəssisə üzərində səlahiyyətlərini müəyyən edərkən əsaslı hüquqların mövcudluğu və təsiri, o cümlədən potensial səsvermə hüquqları nəzərə alınır. Hüquq o halda əsaslı olur ki, belə hüquq sahibi investisiya obyektinin fəaliyyətinin əhəmiyyətli hissəsi ilə bağlı qərar qəbul etdiyi zaman belə hüququ praktiki olaraq icra etmək imkanına malik olsun.

Qrup hətta investisiya obyektinin səsvermə hüquqlarının çox hissəsinə malik olmadıqda belə, investisiya obyekti üzərində səlahiyyətlərə malik ola bilər. Belə hallarda, Qrup investisiya obyekti üzərində real səlahiyyətlərə malik olub-olmadığını müəyyən etmək məqsədilə digər səsvermə hüquqlu şəxslərin hüquqlarının həcmi və bölüşdürülmə dərəcəsi ilə əlaqədar öz səsvermə hüququnun həcmini qiymətləndirməlidir. Törəmə müəssisələrin əməliyyatları üzrə nəzarət Qrupa keçdiyi tarixdən (alış tarixi) belə müəssisələr konsolidasiya edilmiş maliyyə hesabatlarına daxil edilir və nəzarətin itirildiyi tarixdən konsolidasiya edilmiş maliyyə hesabatlarından çıxarılır.

Qrupdaxili şirkətlər arasındakı əməliyyatlar, bu əməliyyatlar üzrə qalıqlar, eləcə də Qrup şirkətləri arasında həyata keçirilən əməliyyatlar üzrə reallaşdırılmamış gəlirlər konsolidasiya edilmiş maliyyə hesabatlarında əks etdirilmir. Bundan əlavə, reallaşdırılmamış zərərlər də çəkilmiş xərclər bərpa edilmədiyi halda maliyyə hesabatlarından çıxarılır. Şirkət və onun törəmə müəssisələri Qrupun siyasətinə uyğun olaraq vahid uçot siyasəti tətbiq edir.

Xarici valyutanın çevrilməsi. Qrupun konsolidasiya edilmiş müəssisələrinin əməliyyat valyutası həmin müəssisələrin fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutası hesab edilir. Şirkətin və onun törəmə müəssisələrinin əməliyyat valyutası, eləcə də Qrupun təqdimat valyutası Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan manatıdır (AZN). Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarındakı məbləğlər Qrupun təqdimat valyutası olan Azərbaycan manatı ilə əks olunmuşdur.

Qrup şirkətləri. Hər bir Qrup müəssisəsinin əməliyyat nəticələri və maliyyə vəziyyəti (bu müəssisələrdən heç birinin əməliyyat valyutası hiperinflyasiya iqtisadiyyatlı ölkələrin valyutası deyil) aşağıdakı şəkildə təqdimat valyutasına çevrilir:

(i) təqdim edilmiş hər bir maliyyə vəziyyəti haqqında hesabat üzrə aktiv və öhdəliklər müvafiq hesabat dövrünün sonunda qüvvədə olan məzənnə ilə çevrilir;

(ii) gəlir və xərclər orta məzənnə ilə yenidən qiymətləndirilir (həmin orta məzənnə əməliyyat tarixinə məzənnələrin məcmu təsirinə əsaslı şəkildə yaxın olmadığı halda, gəlir və xərclər əməliyyat tarixinə qüvvədə olan məzənnə ilə çevrilir);

28 Əsas törəmə, asılı və birgə müəssisələr (davamı)

(iii) kapital komponentləri ilkin dəyərlə çevrilir; və

(iv) bütün məzənnə fərqləri sair məcmu gəlirdə tanınır.

Xarici müəssisə üzərində nəzarət itirildikdə, əvvəlki dövrlərdə sair məcmu gəlirdə tanınmış məzənnə fərqləri silinmədən yaranan gəlir və ya zərərin bir hissəsi kimi il üzrə mənfəət və ya zərərə yenidən təsnifləşdirilir. Törəmə müəssisə üzərindəki nəzarət itirilmədən qismən satıldıqda, yığılmış məzənnə fərqlərinin müvafiq hissəsi kapitalda nəzarət olunmayan iştirak payına yenidən təsnifləşdirilir.

Xarici müəssisənin alınması nəticəsində yaranan qudvil və ədalətli dəyər üzrə düzəlişlər həmin müəssisənin aktiv və öhdəliyi kimi tanınır və ilin sonuna olan məzənnə ilə çevrilir. Nəticədə yaranan bütün məzənnə fərqləri sair məcmu gəlirdə əks etdirilir.

31 dekabr 2024-cü il tarixinə xarici valyuta qalıqlarının çevrilməsində istifadə olunan rəsmi valyuta məzənnələri aşağıdakı kimi olmuşdur: 1 ABŞ dolları = 1.7000 AZN, 1 Avro = 1.7724 AZN, 1 Rus rublu = 0.016318 AZN, 1 Hindistan rupisi = 0.0199 AZN, 1 İngilis funt sterlinqi = 2.1382 AZN (2023: 1 ABŞ dolları = 1.7000 AZN, 1 Avro = 1.8766 AZN, 1 Rus rublu = 0.000188 AZN, 1 Hindistan rupisi = 0.0204 AZN, 1 İngilis funt sterlinqi = 2.1643 AZN). Gəlir və xərclərin çevrilməsində istifadə olunan rəsmi orta valyuta məzənnələri aşağıdakı kimi olmuşdur: 1 ABŞ dolları = 1.7000 AZN, 1 Avro = 1.8394 AZN, 1 Rus rublu = 0.002415 AZN, 1 Hindistan rupisi = 0.0203 AZN, 1 İngilis funt sterlinqi = 2.1738 AZN (2023: 1 ABŞ dolları = 1.7000 AZN, 1 Avro = 1.8394 AZN, 1 Rus rublu = 0.0002 AZN, 1 Hindistan rupisi = 0.0206 AZN, 1 İngilis funt sterlinqi = 2.1162 AZN).

Törəmə, asılı və birgə müəssisələrin silinməsi. Qrupun bu müəssisələr üzərində nəzarəti və ya əhəmiyyətli təsiri itirildikdə, həmin müəssisələrdəki iştirak payı nəzarətin itirildiyi tarixdə ədalətli dəyərlə yenidən qiymətləndirilir və balans dəyərindəki dəyişiklik mənfəət və ya zərərdə tanınır. Ədalətli dəyər mövcud iştirak paylarının sonrakı dövrlərdə asılı və birgə müəssisə və ya maliyyə aktivləri kimi uçotu üçün ilkin balans dəyəri hesab edilir. Bundan əlavə, həmin müəssisə ilə bağlı əvvəlki dövrdə sair məcmu gəlirdə tanınmış məbləğlər Qrupun müvafiq aktiv və öhdəlikləri birbaşa satması kimi uçota alınır. Bu, əvvəlki illərdə sair məcmu gəlirdə tanınmış məbləğlərin mənfəət və zərərə yenidən təsnifləşdirilməsinə səbəb ola bilər.

Asılı müəssisədəki iştirak payı azaldıldıqda, lakin əhəmiyyətli təsir saxlanıldıqda, uyğun olduqda əvvəlki dövrdə sair məcmu gəlirdə tanınmış məbləğlərin proporsional hissəsi mənfəət və ya zərərə yenidən təsnifləşdirilir.

Adı	Fəaliyyət növü	Səsvermə hüquqlu səhmlərdə payı	İştirak payı	Qeydiyyat ölkəsi
Törəmə müəssisələr:				
Milli Aviasiya Akademiyası	Tədris mərkəzi	100%	100%	Azərbaycan
Füzuli Beynəlxalq Hava Limanı	Hava limanı	100%	100%	Azərbaycan
Naxçıvan Beynəlxalq Hava Limanı	Hava limanı	100%	100%	Azərbaycan
Silkrow Travel MMC	Turizm agentliyi	100%	100%	Azərbaycan

29 Bizneslərin birləşməsi

Mühüm mühasibat uçotu prinsipi

Bizneslərin birləşməsi. Ümumi nəzarətdə olan tərəflərdən əldə edilən müəssisələr istisna olmaqla, Qrup tərəfindən törəmə müəssisələrin alınması alış metodu ilə uçota alınır. Bizneslərin birləşməsi zamanı əldə edilmiş müəyyən edilə bilən aktivlər və qəbul edilmiş öhdəliklər və şərti öhdəliklər nəzarət olunmayan iştirak payının həcmindən asılı olmayaraq, alış tarixində onların ədalətli dəyəri ilə qiymətləndirilir.

Əldə edilmiş müəssisə üçün ödənilən məbləğ təqdim edilmiş aktivlərin, buraxılmış səhmlərin və qəbul edilmiş və ya yaranmış öhdəliklərin ədalətli dəyərində, o cümlədən şərti ödənişlər üzrə razılaşmalar nəticəsində yaranmış aktiv və öhdəliklərin ədalətli dəyərində qiymətləndirilir. Bu zaman məsləhət, hüquq, qiymətləndirmə və digər peşəkar xidmətlər kimi xərclər nəzərə alınmır. Səhmlərin buraxılması ilə bağlı yaranmış əməliyyat xərcləri kapitaldan çıxılır; bizneslərin birləşməsi zamanı borc qiymətli kağızların buraxılması ilə bağlı yaranmış əməliyyat xərcləri borcun balans dəyərindən çıxılır və alışla bağlı bütün digər əməliyyat xərcləri xərc kimi tanınır.

29 Bizneslərin birləşməsi (davamı)

Ümumi nəzarətdə olan tərəflərdən törəmə müəssisələrin əldə edilməsi. Ümumi nəzarətdə olan tərəflərdən törəmə müəssisələrin əldə edilməsi qalıq dəyəri metodu ilə uçota alınır. Ümumi nəzarət çərçivəsində ötürülən törəmə müəssisənin aktiv və öhdəlikləri, ötürən tərəfin müəyyən etdiyi qalıq dəyəri ilə tanınır. Aktivləri ötürən tərəf törəmə müəssisənin MHBS Uçotu Standartlarına uyğun hazırlanmış maliyyə məlumatlarının konsolidasiya edildiyi ən yüksək hesabat verən subyekt hesab olunur. Aktivləri ötürən tərəfin ilkin alışları zamanı yaranan qudvil də hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarında tanınır. Aktivləri ötürən tərəfin qudvili daxil olmaqla, xalis aktivlərin balans dəyəri ilə alış üçün ödənilmiş məbləğ arasındakı fərq hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarında kapitalda sair ehtiyatlara düzəliş kimi uçota alınır (31 dekabr 2024: 43,855 min AZN).

2024-cü ildə Naxçıvan Beynəlxalq Hava Limanının əldə edilməsi ilə bağlı hər hansı ödəniş həyata keçirilməmişdir.

Əldə edilmiş aktiv və öhdəliklər haqqında məlumat aşağıda göstərilir:

Min Azərbaycan Manatı ilə	**Qalıq dəyəri**
Pul vəsaitləri və onların ekvivalentləri	42
Əsas vəsaitlər	78,986
Qeyri-maddi aktivlər	30
Mal-material ehtiyatları	1,081
Ticarət və digər debitor borcları	678
Ticarət və digər kreditor borcları	(1,121)
Sair qısamüddətli öhdəliklər	(35,980)

Alış tarixindən 31 dekabr 2024-cü il tarixinə qədər olan dövr üçün əldə edilmiş törəmə müəssisə tərəfindən Qrupa 8,469 min AZN məbləğində gəlir və 28,531 min AZN məbləğində mənfəət yönəldilmişdir.

Kənar tərəflərdən törəmə müəssisələrin əldə edilməsi. 31 mart 2024-cü il tarixində Qrup "Silkrow Travel" MMC-nin (turizm agentliyi) səhmlərinin 100%-ni əldə etmiş və səhmdarların ümumi yığıncağında səs çoxluğu hüququ qazanmaqla, bu müəssisə üzərində nəzarəti əldə etmişdir. Əldə edilmiş törəmə müəssisənin miqyas iqtisadiyyatı vasitəsilə Qrupun fəaliyyətinin səmərəliliyini artıracağı gözlənilir.

Satınalma tarixinə Qrup tərəfindən ödənilmiş ümumi alış məbləğinin ədalətli dəyəri və onun komponentləri aşağıdakı kimidir:

Min Azərbaycan Manatı ilə	**31 mart 2024**
Ödənilmiş məbləğ	50
Cəmi ötürülmüş ödəniş məbləği	**50**
Cəmi ödəniş məbləği	**50**

29 Bizneslərin birləşməsi (davamı)

Əldə edilmiş aktiv və öhdəliklər, eləcə də yaranan qudvil haqqında məlumat aşağıdakı cədvəldə təqdim edilir:

Min Azərbaycan Manatı ilə	**Aid edilən ədalətli dəyər**
Pul vəsaitləri və onların ekvivalentləri	5,585
Əsas vəsaitlər	947
Sair uzunmüddətli aktivlər	221
İstehlak olunan ehtiyat hissələri və mal-material ehtiyatları	91
Ticarət və digər debitor borcları	14,170
Ticarət və digər kreditor borcları	(28,331)
Sair qısamüddətli öhdəliklər	(290)
Törəmə müəssisənin müəyyən edilə bilən xalis aktivlərinin ədalətli dəyəri	**(7,607)**
Alış zamanı yaranan qudvil	7,657
Cəmi ödəniş məbləği	**(50)**
Çıxılsın: Əldə edilmiş törəmə müəssisənin pul vəsaitləri və onların ekvivalentləri	5,585
Alış zamanı daxil olan pul vəsaitləri və onların ekvivalentləri	**5,535**

Qudvil artması gözlənilən əhəmiyyətli sinerji effektlərini əks etdirir. Bununla belə, qudvil gələcək dövrlərdə vergi məqsədləri üçün gəlirdən çıxılmayacaq. Alış tarixində tanınmış qudvil məbləği hesabat dövrünün sonunda tam olaraq dəyərsizləşmişdir.

Alış tarixindən 31 dekabr 2024-cü il tarixinə qədər olan dövr üçün əldə edilmiş törəmə müəssisə tərəfindən Qrupa 3,268 min AZN məbləğində gəlir və 9,179 min AZN məbləğində zərər yönəldilmişdir.

30 Maliyyə risklərinin idarə edilməsi

Qrup daxilində risklərin idarə edilməsi funksiyası maliyyə, əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirilir. Maliyyə risklərinə bazar riski (o cümlədən valyuta, faiz dərəcəsi və digər qiymət riskləri), kredit riski və likvidlik riski daxildir. Maliyyə risklərinin idarə edilməsi funksiyasının əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd bu risklərin azaldılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

Kredit riski. Maliyyə aləti ilə əməliyyat aparan bir tərəfin müqavilə öhdəliyini yerinə yetirməməsi nəticəsində digər tərəfə maliyyə zərəri vurularsa, Qrup kredit riskinə məruz qalır.

Kredit riski ticarət debitor borcları, müqavilə aktivləri, pul vəsaitləri və onları ekvivalentləri, eləcə də Qrupun qarşı tərəflərlə həyata keçirdiyi digər əməliyyatlar nəticəsində yaranır ki, bu da maliyyə aktivlərinin və balansdan kənar kredit öhdəliklərinin yaranmasına səbəb olur.

Qrupun məruz qaldığı kredit riskinin maksimal səviyyəsi konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda maliyyə aktivlərinin balans dəyərində əks etdirilir. Təqdim edilmiş maliyyə zəmanətləri, kreditlərin verilməsi ilə bağlı öhdəliklər, istifadə edilməmiş kredit xətləri və ixrac/idxal akkreditivləri üçün maksimal kredit riski öhdəliyin məbləğinə bərabərdir.

Kredit riskinin idarə edilməsi. Kredit riski Qrupun fəaliyyəti üçün yeganə əhəmiyyətli riskdir. Buna görə, rəhbərlik kredit riskinin idarə edilməsinə xüsusi diqqət yetirir.

Kredit riskinin bazar şəraitindən, gələcək pul axınlarından və zamandan asılı olaraq dəyişməsinə görə risklərin idarə edilməsi məqsədilə qiymətləndirilməsi mürəkkəb prosesdir və modellərin istifadəsini tələb edir. Aktivlər portfeli üzrə kredit riskinin qiymətləndirilməsi defoltun baş vermə ehtimalına, müvafiq zərər əmsallarına və kontragentlər arasında defolt vəziyyətlərinin korrelyasiyası ilə bağlı əlavə təxminləri tələb edir.

30 Maliyyə risklərinin idarə edilməsi (davamı)

Kredit riskinin təsnifatı sistemi. Kredit riskinin qiymətləndirilməsi və kredit riskinin səviyyəsinə görə maliyyə alətlərinin təsnifləşdirilməsi məqsədilə, Qrup beynəlxalq reytinq agentliklərinin (Standard & Poor's - "S&P", Fitch, Moody's) müəyyən etdiyi risklərin təsnifatına əsaslanan yanaşmadan istifadə edir. Daxili və xarici kredit reytinqlərinin PD intervallarına görə müəyyən edilmiş vahid şkala üzrə uzlaşdırılması aşağıdakı cədvəldə göstərilir:

Vahid şkala üzrə ödəmə qabiliyyəti dərəcələri	Kənar beynəlxalq reytinq agentliklərinin müvafiq reytinqləri (S&P)	Müvafiq PD intervalı
Ən yüksək dərəcə	AAA dan BB+ dək	0,01% – 0,5%
Yüksək dərəcə	BB dən B+ dək	0,51% – 3%
Orta dərəcə	B, B-	3% – 10%
Xüsusi monitorinq tələb edir	CCC+ dən CC- dək	10% – 99,9%
Defolt	C, D-I, D-II	100%

Vahid şkala üzrə kredit riskinin hər bir səviyyəsi üçün müəyyən ödəmə qabiliyyəti dərəcələri təyin olunur:

- *Ən yüksək dərəcə* – aşağı kredit riski olan yüksək keyfiyyətli aktivlər;
- *Yüksək dərəcə* – orta kredit riski olan kifayət qədər keyfiyyətli aktivlər;
- *Orta dərəcə* – qənaətbəxş kredit riski olan orta keyfiyyətli aktivlər;
- *Xüsusi monitorinq tələb edir* – daha ətraflı monitorinq və bərpaedici idarəetmə tələb edən kreditləşdirmə mexanizmləri; və
- *Defolt* – defolt hadisəsi baş vermiş kreditləşdirmə mexanizmləri.

Reytinq modelləri müntəzəm olaraq rəhbərlik tərəfindən nəzərdən keçirilir və faktiki defolt məlumatları əsasında fərqlər təhlil edilir və zərurət yarandıqda yenilənir. Qrup istifadə edilən metoddan asılı olmayaraq, müntəzəm olaraq reytinqlərin düzgünlüyünü təsdiqləyir, modellərin proqnozlaşdırılma imkanını hesablayır və qiymətləndirir.

Kontragentlərə kənar reytinqlər S&P, Moody's və Fitch kimi müstəqil beynəlxalq reytinq agentlikləri tərəfindən təyin edilir. Bu reytinqlər ictimaiyyətə açıqdır. Belə reytinqlər və müvafiq PD intervalları maliyyə alətlərinə tətbiq edilir.

GKZ-nin qiymətləndirilməsi. GKZ gələcək pul axınlarındakı azalmaların ehtimal ilə ölçülmüş cari dəyərinin qiymətləndirilməsidir (yəni, müəyyən müddət ərzində çəki qismində müvafiq defolt riskləri istifadə olunmaqla kredit zərərlərinin orta çəkisidir). GKZ-nin qiymətləndirilməsi obyektiv olub, mümkün nəticələrin miqyasını qiymətləndirməklə müəyyən edilir. GKZ-nin qiymətləndirilməsi Qrup tərəfindən istifadə olunan dörd parametr əsasında həyata keçirilir: defolt ehtimalı ("PD"), defolta məruz qalan dəyər ("EAD"), defolt baş verəcəyi halda itirilməsi gözlənilən məbləğ ("LGD") və diskont dərəcəsi ("DR").

EAD - hesabat dövründən sonra kredit qalığının məbləğində gözlənilən dəyişiklikləri nəzərə alaraq, gələcək defolt tarixində kredit qalığının qiymətləndirilməsi, o cümlədən əsas borc və faizlərin ödənilməsi və kredit öhdəlikləri üzrə vəsaitlərin gözlənilən istifadəsidir. PD - müəyyən müddət ərzində defoltun baş vermə ehtimalının qiymətləndirilməsidir. LGD - defolt baş verdiyi zaman yaranan zərərin qiymətləndirilməsidir. Bu, müqavilə üzrə ödənilməli gələcək pul axınları ilə borcalanın, həmçinin təminatın satışından əldə etməsi gözlənilən pul axınları arasındakı fərqə əsaslanır. Adətən bu göstərici EAD-nin faiz nisbəti kimi ifadə edilir. Gözlənilən zərərlər hesabat dövrünün sonuna cari dəyərə diskontlaşdırılır. Diskont dərəcəsi maliyyə aləti üzrə ilkin effektiv faiz dərəcəsi və ya onun təxmini dəyəridir.

Qrup ticarət debitor borcları üzrə defolt ehtimalını bitmə tarixinədək qalan müddət əsasında müəyyənləşdirir. Bu məqsədlə, hesab-fakturalar ödəniş müddəti hələ çatmamış hesab-fakturalardan başlayaraq, gecikdirilmiş günlər (DPD) üzrə səbətlərə bölünür. Ödəniş müddətləri ilə bağlı müxtəlif məlumatların daxil edilməsi və PD-nin bitmə tarixinədək qalan müddət ərzində hesablanması üçün ödəniş tarixindən əvvəlki DPD səbətləri də qiymətləndirməyə daxil edilməlidir. Keçid dərəcələri son üç il üzrə aylıq müşahidələrin orta göstəricisi kimi hesablanır.

30 Maliyyə risklərinin idarə edilməsi (davamı)

Gözlənilən kredit zərərləri maliyyə alətinin *bitmə tarixinədək qalan müddət* əsasında modelləşdirilir. Maliyyə alətinin *bitmə tarixinədək qalan müddəti* gözlənilən hər hansı qabaqcadan ödənişlər nəzərə alınmaqla, borc alətinin müqavilə üzrə qalan müddətinə bərabərdir. Kreditlərin verilməsi ilə bağlı öhdəliklər və maliyyə zəmanəti müqavilələri üçün bu, Qrupun kredit vermək üçün cari müqavilə öhdəliyinə malik olduğu müddət ərzində müqavilə ilə müəyyən edilmiş müddətdir.

"Bitmə tarixinədək qalan müddət üzrə gözlənilən kredit zərərləri" modelində maliyyə alətinin qalan müddəti ərzində bütün mümkün defolt hadisələrinin baş verməsi nəticəsində yaranan zərərlər qiymətləndirilir. *"12 aylıq gözlənilən kredit zərərləri"* modeli hesabat dövründən sonra 12 ay ərzində və ya bitmə tarixinə bir ildən az qalmış maliyyə alətinin qalan müddəti ərzində hesablanır və *bitmə tarixinədək* qalan müddət üzrə gözlənilən kredit zərərlərinin bir hissəsini təşkil edir.

Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərliyin GKZ ilə bağlı təxminləri adətən tənzimləmə məqsədləri üçün istifadə olunan bütöv dövr üçün təxminlərə deyil, müəyyən zaman anındakı təxminlərə əsaslanır. Bu təxminlərin hesablanmasında *proqnoz məlumatlar* nəzər alınır. Buna görə də, GKZ-lər kredit riskinə təsir edən əsas makroiqtisadi göstəricilər üzrə ehtimalla ölçülmüş dəyişiklikləri əks etdirir.

Alınmış və ya yaranmış kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri (POCI) üzrə GKZ-nin modelləşdirməsi aşağıdakılar istisna olmaqla eyni qaydada aparılır: (a) ümumi balans dəyəri və diskont dərəcəsi müqavilə üzrə pul axınları əsasında deyil, aktivin ilkin tanınması zamanı bərpa edilə bilən pul axınları əsasında müəyyən edilir və (b) GKZ daim bütöv müddət üçün hesablanır. POCI aktivləri ilkin tanınma zamanı dəyərsizləşmiş maliyyə aktivləri (məsələn, əvvəlki biznes birləşməsi zamanı əldə edilmiş dəyərsizləşmiş kreditlər) hesab olunur.

Standartın tələblərinə əsasən, MHBS 9-un məqsədləri üçün tətbiq edilən defolt anlayışı Qrupun daxili risklərin idarə edilməsi təcrübələrinə uyğun olmalıdır. Nəticədə, defolt bir hesab-faktura səviyyəsində müəyyən edilir və vaxtı keçmiş günlərin sayına əsasən tanınır. Müvafiq ticarət debitor borcları seqmenti üçün hesab-faktura üzrə ödəniş günlərinin sayı 30 və 60 gündən artıq olarsa bu, defolt hadisəsi hesab edilir və sonra 3-cü Mərhələyə təsnifləşdirilir. Qrupda debitor borcları üzrə standart əməliyyat prosesləri müştərilərin keyfiyyət qiymətləndirilməsini (hər hansı monitorinq tədbirləri mövcud deyil, potensial keyfiyyət amilləri qarşı tərəflərin sayının çox olması və onlarla uzunmüddətli əlaqələrə görə avtomatik olaraq müəyyən qarşı tərəflə müqavilənin ləğvinə səbəb olmur) nəzərdə tutmadığına görə heç bir əlavə meyar nəzərə alınmır.

Qrup yalnız ödənişi gecikdirdikdən sonra defolt vəziyyətinə düşə bilər. Hesab-fakturalarda fərqli ödəniş tarixləri olduğuna görə defolt anlayışı müxtəlif debitor borcları seqmentləri arasında dəyişir. Təqdim edildiyi tarixdən etibarən 30 gün ərzində ödənilməli olan hesab-fakturalar ödəmə tarixindən 90 gün sonra defolt hesab edilir və bu, hesabatlarda 120 gün ərzində tam ehtiyatın yaradılmasına səbəb olur. Eyni qaydada, təqdim edildiyi tarixdən etibarən 60 gün ərzində ödənilməli olan hesab-fakturalar ödəmə tarixindən 90 gün sonra defolt hesab edilir və nəticədə Qrupun hesabatlarında 150 gün ərzində tam ehtiyat yaradılır.

Məlumatların açıqlanması məqsədilə, Qrup defolt anlayışını dəyərsizləşmiş aktivlər anlayışına tam uyğunlaşdırmışdır. Yuxarıda qeyd edilən defolt anlayışı Qrupun bütün növ maliyyə aktivlərinə tətbiq edilir.

Ümumiyyətlə, GKZ aşağıdakı kredit riski parametrlərinin hasilinə bərabərdir: effektiv faiz dərəcəsindən istifadə etməklə cari dəyərə diskontlaşdırılan EAD, PD və LGD. GKZ hər bir fərdi kredit qalığını və ya ümumi seqmentin bütöv müddəti ərzində hər bir növbəti il üçün kredit riski parametrlərini proqnozlaşdırmaqla müəyyən edilir. Bu üç komponentin hasili tapılır və bərpa ehtimalını (yəni, maliyyə aktivinin əvvəlki ayda ödənilməsi və ya defolt olması) nəzərə alaraq onlara düzəliş edilir. Bu, hər bir gələcək dövr üçün GKZ-nin hesablanmasını effektiv şəkildə təmin edir və sonradan hesabat tarixinə geri diskontlaşdırılaraq toplanır. GKZ-nin hesablanmasında istifadə edilən diskont dərəcəsi ilkin effektiv faiz dərəcəsini və ya onun təxmini dəyərini əks etdirir.

Xarici reytinqlər əsasında qiymətləndirmə prinsipləri. Bəzi maliyyə alətləri üzrə beynəlxalq reytinq agentlikləri tərəfindən dərc edilmiş kredit reytinqləri mövcuddur ki, bu da defolt ehtimalı (PD) və defolt baş verəcəyi halda itirilməsi gözlənilən məbləğ (LGD) kimi kredit riski parametrlərini qiymətləndirmək üçün istifadə olunur.

30 Maliyyə risklərinin idarə edilməsi (davamı)

GKZ modellərinə daxil edilmiş proqnoz məlumatlar. Aşağıdakıları nəzərə alaraq:

1) Debitor borcları üzrə PD və LGD göstəriciləri son 24 aylıq məlumatlara əsasən hesablanır və bu səbəbdən cari makroiqtisadi mühit mahiyyətcə hesablama prosesində əks olunur;
2) Yaxın gələcəkdə gözlənilən makroiqtisadi mühit PD və LGD göstəricilərinin hesablanmasında istifadə edilən mövcud makroiqtisadi mühitə uyğun gəlir;
3) Qrupun ticarət debitor borclarının ödəmə müddəti adətən 12 aydan az olduğundan, rəhbərlik zərər dərəcələrinin hesablanmasında proqnoz makroiqtisadi amilləri nəzərə alır.

Bazar riski. Qrup bazar risklərinə məruz qalır. Bazar riskləri bazardakı ümumi və spesifik dəyişikliklərə məruz qalan (a) xarici valyuta (b) faiz dərəcələri və (c) səhmlər üzrə açıq mövqelər ilə əlaqədar yaranır. Rəhbərlik qəbul edilə bilən risklərin səviyyəsi üzrə limitlər müəyyən edir və bu limitlərə hər gün nəzarət edir. Buna baxmayaraq, belə yanaşmadan istifadə edilməsi bazarda daha əhəmiyyətli dəyişikliklərin baş verdiyi halda, müəyyən edilmiş limitlərdən artıq zərərlərin yaranmasının qarşısını almır.

Valyuta riski. Rəhbərlik hər bir valyuta üzrə və ümumilikdə risklərin səviyyəsi ilə əlaqədar günün sonunda, həmçinin bir gün ərzində limitlər müəyyən edir və bu limitlərə gündəlik nəzarət edir.

Hesabat dövrünün sonuna Qrupun məruz qaldığı valyuta riski üzrə ümumi təhlil aşağıdakı cədvəldə əks olunur:

	31 dekabr 2024			31 dekabr 2023		
Min Azərbaycan Manatı ilə	**Monetar maliyyə aktivləri**	**Monetar maliyyə öhdəlikləri**	**Xalis mövqe**	**Monetar maliyyə aktivləri**	**Monetar maliyyə öhdəlikləri**	**Xalis mövqe**
AZN	338,971	63,775	275,196	321,923	942,872	(620,949)
ABŞ dolları	120,290	451,403	(331,113)	80,376	1,904,182	(1,823,806)
Avro	12,261	29,883	(17,622)	10,976	41,863	(30,887)
Digər	42,922	2,756	40,166	9,023	3,770	5,253
Cəmi	**514,444**	**547,820**	**(33,373)**	**422,298**	**2,892,687**	**(2,470,389)**

Bütün digər dəyişənlər sabit qalmaqla, hesabat dövrünün sonuna Qrupun müvafiq müəssisələrinin əməliyyat valyutasına tətbiq edilən məzənnələrdəki mümkün dəyişikliklərin mənfəət və ya zərərə təsiri aşağıdakı cədvəldə əks etdirilir:

	31 dekabr 2024	31 dekabr 2023
Min Azərbaycan Manatı ilə	**Mənfəət və ya zərərə təsir**	**Mənfəət və ya zərərə təsir**
ABŞ dollarının 10% möhkəmlənməsi (2023: 10% möhkəmlənməsi)	(33,111)	(182,381)
ABŞ dollarının 10% zəifləməsi (2023: 10% zəifləməsi)	33,111	182,381
Avronun 10% möhkəmlənməsi (2023: 10% möhkəmlənməsi)	(1,762)	(3,089)
Avronun 10% zəifləməsi (2023: 10% zəifləməsi)	1,762	3,089
Digər valyutaların 10% möhkəmlənməsi (2023: 10% möhkəmlənməsi)	4,017	525
Digər valyutaların 10% zəifləməsi (2023: 10% zəifləməsi)	(4,017)	(525)

Risk yalnız Qrupun müvafiq müəssisəsinin əməliyyat valyutasından fərqli valyutalarda olan pul qalıqları üçün hesablanmışdır.

Faiz dərəcəsi riski. Qrup bazar faiz dərəcələrinin mövcud səviyyələrindəki dəyişikliklərin onun maliyyə vəziyyətinə və pul vəsaitlərinin hərəkətinə təsiri ilə əlaqədar riskə məruz qalır. Belə dəyişikliklər faiz marjasının artmasına, lakin faiz dərəcələri üzrə gözlənilməz dəyişikliklər baş verdikdə marjaların azalmasına və ya zərərin yaranmasına gətirib çıxara bilər. Rəhbərlik faiz dərəcələrinin dəyişməsinin qəbul edilə bilən səviyyəsi üzrə limitlər müəyyən edir və bu limitlərə hər gün nəzarət edir.

Dəyişkən faiz dərəcələrinin artması aşağıda qeyd edildiyi kimi 31 dekabr 2024 və 31 dekabr 2023-cü il tarixlərinə mənfəət və ya zərər və kapitalı aşağıda göstərilmiş məbləğ qədər azalda bilərdi. Bu təhlil hesabat dövrünün sonuna baş verməsi Qrup tərəfindən kifayət qədər mümkün hesab edilən faiz dərəcələrinin dəyişkənliyinə əsaslanır.

30 Maliyyə risklərinin idarə edilməsi (davamı)

Təhlillərdə bütün digər dəyişən göstəricilərin, xüsusilə də valyuta məzənnələrinin sabit qalması ehtimal edilir.

	Mənfəət və ya (zərər) / kapital	
	31 dekabr 2024	31 dekabr 2023
ABŞ dolları ilə 3 aylıq SOFR və LIBOR-da 0.2% artım (2023: ABŞ dolları ilə 3 aylıq LIBOR-da + 0.2% artım)	(775)	(2,908)
Pul vəsaitlərinin hərəkətinin həssaslığı	**(775)**	**(2,908)**

Dəyişkən faiz dərəcələrinin azalması nəticəsində mənfəət və ya zərər və kapital eynilə yuxarıdakı cədvəldə göstərilmiş məbləğlərdə arta bilərdi.

Likvidlik riski. Likvidlik riski maliyyə öhdəliklərinin yerinə yetirilməsində Qrupun çətinliklərlə üzləşəcəyi riskdir. Qrup mövcud olan nağd pul vəsaitlərindən gündəlik istifadə zərurəti ilə bağlı risklə qarşılaşır. Likvidlik riski rəhbərlik tərəfindən idarə edilir. Rəhbərlik hər ay pul vəsaitlərinin hərəkətləri üzrə proqnozlara nəzarət edir.

Qrup əsasən borc vəsaitləri, icarə öhdəlikləri, eləcə də ticarət və digər kreditor borclardan ibarət olan davamlı maliyyələşdirmə bazasını saxlamağa çalışır. Qrup likvidliklə bağlı gözlənilməz tələbləri tez və lazımi qaydada yerinə yetirmək üçün diversifikasiya olunmuş likvid aktivlər portfelinə vəsait yatırır. Qrupun likvidlik portfeli pul vəsaitləri və onların ekvivalentlərindən (Qeyd 16), ticarət və digər debitor borclarından (Qeyd 14), müddətli depozitlərdən və borc qiymətli kağızlara investisiyalardan ibarətdir. Rəhbərliyin təxminlərinə görə likvidlik portfelindəki pul vəsaitləri və onların ekvivalentləri likvidliklə bağlı gözlənilməz tələblərin yerinə yetirilməsi üçün bir gün ərzində nağd pula çevrilə bilər.

Likvidlik mövqeyinə hər gün nəzarət olunur və mütəmadi olaraq Xəzinədarlıq Departamenti tərəfindən standart və daha əlverişsiz bazar şərtlərini əhatə edən müxtəlif ssenarilər əsasında likvidlik üzrə həssaslıq testləri aparılır.

Aşağıdakı cədvəldə 31 dekabr 2024-cü il tarixinə öhdəliklər müqavilə üzrə ödəmə müddətlərinə görə təsnifləşdirilir. Cədvəldə göstərilən məbləğlərə müqavilə üzrə diskontlaşdırılmamış pul axınları, o cümlədən ümumi icarə öhdəlikləri (gələcək maliyyə məsrəflərinin çıxılmasından əvvəl) və kreditlərlə bağlı ümumi öhdəliklər daxildir. Belə diskontlaşdırılmamış pul axınları konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatdakı məbləğlərdən fərqlənir, belə ki, konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda göstərilən məbləğlər diskontlaşdırılmış pul axınlarına əsasən hesablanır.

Ödənilməli məbləğ sabit olmadığı hallarda, cədvəldə göstərilən məbləğlər hesabat dövrünün sonuna mövcud olan şərtlərə istinadən müəyyən edilir. Xarici valyuta ilə ödənişlər hesabat dövrünün sonuna olan spot məzənnədən istifadə etməklə çevrilir.

31 dekabr 2024-cü il tarixinə maliyyə öhdəliklərinin ödəmə müddətlərinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

Min Azərbaycan Manatı ilə	Tələb edilənədək və 1 aydan az	1 - 3 ay	3 - 12 ay	1 - 5 il	5 ildən çox	Cəmi
Öhdəliklər						
Borc vəsaitləri (Qeyd 18)	12,085	-	30,424	141,446	114,311	298,266
İcarə öhdəlikləri (Qeyd 9)	2,645	21,314	95,183	82,333	-	201,475
Ticarət kreditor borcları (Qeyd 22)	65,506	54,112	-	-	-	119,618
Əsas məbləğ və faiz üzrə gələcək ödənişlər daxil olmaqla, cəmi gələcək ödənişlər	**80,236**	**75,426**	**125,607**	**223,779**	**114,311**	**619,359**

30 Maliyyə risklərinin idarə edilməsi (davamı)

31 dekabr 2023-cü il tarixinə maliyyə öhdəliklərinin ödəmə müddətlərinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

Min Azərbaycan Manatı ilə	1 ilə qədər	1 - 5 il	5 ildən çox	Cəmi
Öhdəliklər				
İcarə öhdəlikləri (Qeyd 9)	65,655	135,757	-	201,412
Borc vəsaitləri (Qeyd 18)	3,047	11,830	10,422	25,299
Əlaqəli tərəflərdən alınmış borclar (Qeyd 18)	1,840,783	761,753	138,060	2,740,596
Ticarət kreditor borcları (Qeyd 22)	97,296	-	-	97,296
Əsas məbləğ və faiz üzrə gələcək ödənişlər daxil olmaqla, cəmi gələcək ödənişlər	**2,006,781**	**909,340**	**148,482**	**3,064,603**

31 Kapitalın idarə edilməsi

Kapitalın idarə olunmasında Qrupun məqsədi fəaliyyətin fasiləsizliyini təmin etməklə maraqlı tərəflərin maraqlarını qorumaq və kapital xərclərini azaltmağa imkan verən optimal kapital strukturunu saxlamaqdır. Kapital strukturunun saxlanılması və ya dəyişdirilməsi məqsədilə Qrup kapitalı səhmdara geri qaytarmaqla və ya aktivləri satmaqla borcu azalda bilər. 31 dekabr 2024-cü il tarixinə Qrupun idarə etdiyi məcmu kapitalın həcmi 2,128,570 min AZN (2023: (486,806 min AZN)) təşkil etmişdir. Qrup idarə etdiyi məcmu kapitalın konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda göstərilən kapitaldan ibarət olduğunu hesab edir.

32 Ədalətli dəyər haqqında açıqlamalar

Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyyələrinə görə təhlil edilir: (i) 1-ci səviyyəyə oxşar aktiv və öhdəliklər üçün fəal bazarlarda kotirovka olunan qiymətlərlə qiymətləndirmələr (təshih edilməmiş) (ii) 2-ci səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni, qiymətlər) və ya dolayısı ilə (yəni, qiymətlərdən yaranan) müşahidə edilə bilən ilkin əhəmiyyətli məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları vasitəsilə əldə edilən qiymətləndirmələr və (iii) 3-cü səviyyəyə müşahidə edilən bazar məlumatlarına əsaslanmayan qiymətləndirmələr (müşahidə edilməyən ilkin məlumatlar) daxildir. Maliyyə alətlərini ədalətli dəyərlə qiymətləndirmə iyerarxiyalarına bölmək üçün rəhbərlik peşəkar mülahizələr irəli sürür. Ədalətli dəyərlə qiymətləndirmə üçün əhəmiyyətli dərəcədə düzəlişlər tələb edən müşahidə edilə bilən məlumatlardan istifadə edildikdə, bu qiymətləndirmə 3-cü Səviyyəyə aid edilir. İstifadə edilən məlumatların əhəmiyyətliliyi bütövlükdə ədalətli dəyərin qiymətləndirilməsi ilə ölçülür.

Daimi ədalətli dəyər qiymətləndirmələri. Daimi ədalətli dəyər qiymətləndirmələri konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda hər bir hesabat dövrünün sonunda mühasibat uçotu standartları ilə tələb edilən və ya icazə verilən qiymətləndirmələrdir. Daimi ədalətli dəyər qiymətləndirmələrinin aid edildiyi ədalətli dəyər iyerarxiyalarının səviyyəsi aşağıda göstərilir:

	2024				2023			
Min Azərbaycan Manatı ilə	Səviyyə 1	Səviyyə 2	Səviyyə 3	Cəmi	Səviyyə 1	Səviyyə 2	Səviyyə 3	Cəmi
MALİYYƏ AKTİVLƏRİ								
Borc qiymətli kağızlara investisiyalar								
- Korporativ istiqrazlar	-	10,000	-	10,000	-	-	-	-
CƏMİ 31 DEKABR TARİXİNƏ DAİMİ ƏDALƏTLİ DƏYƏRLƏ QİYMƏTLƏNDİRİLƏN AKTİVLƏR	**-**	**10,000**	**-**	**10,000**	**-**	**-**	**-**	**-**

32 Ədalətli dəyər haqqında açıqlamalar (davamı)

31 dekabr 2024-cü il tarixinə qiymətləndirmə modeli və ədalətli dəyərin qiymətləndirilməsi üzrə Səviyyə 2 üçün istifadə edilən ilkin məlumatlar aşağıda təsvir edilir:

Min Azərbaycan Manatı ilə	Ədalətli dəyər	Qiymətləndirmə modeli	İstifadə edilən ilkin məlumatlar
AKTİVLƏRİN ƏDALƏTLİ DƏYƏRİ			
MALİYYƏ AKTİVLƏRİ			
Borc qiymətli kağızlara investisiyalar			
- Korporativ istiqrazlar	10,000	Pul axınlarının diskontlaşdırılması	Borc kapitalı üzrə artan faiz dərəcəsi
CƏMİ SƏVİYYƏ 2 ÜZRƏ DAİMİ ƏDALƏTLİ DƏYƏR QİYMƏTLƏNDİRMƏLƏRİ	**10,000**	-	-

31 dekabr 2024-cü il tarixində başa çatan il ərzində Səviyyə 2 üçün daimi ədalətli dəyər qiymətləndirmələri üzrə modellərdə heç bir dəyişiklik olmamışdır (2023: dəyişiklik olmamışdır).

Ədalətli dəyərlə qiymətləndirilməyən, lakin ədalətli dəyəri açıqlanan aktiv və öhdəliklər. Ədalətli dəyərlə qiymətləndirilməyən, lakin ədalətli dəyəri açıqlanan aktiv və öhdəliklər üzrə ədalətli dəyər iyerarxiyasının səviyyəsi 31 dekabr 2024-cü il tarixində başa çatan il üçün Səviyyə 2, 31 dekabr 2023-cü il tarixində başa çatan il üçün isə Səviyyə 3 olaraq müəyyən edilmişdir. 31 dekabr 2024-cü il tarixinə aktiv və öhdəliklərin ədalətli dəyəri təxminən onların ədalətli dəyərinə bərabər olmuşdur. 31 dekabr 2023-cü il tarixinə uzunmüddətli borcların ədalətli dəyəri onların balans dəyərindən 14,175 min AZN aşağı olmuşdur. Ədalətli dəyər iyerarxiyasının 3-cü Səviyyəsində ədalətli dəyərin qiymətləndirilməsi pul vəsaitlərinin diskontlaşdırılması yanaşmasından istifadə etməklə həyata keçirilmişdir. Fəal bazar qiyməti olmayan dəyişkən faizli maliyyə alətlərinin ədalətli dəyəri onların balans dəyərinə bərabərdir. Fəal bazar qiyməti olmayan sabit faizli maliyyə alətlərinin ədalətli dəyəri analoji kredit riskinə və ödəmə müddətinə malik olan yeni alətlər üçün mövcud faiz dərəcələrini tətbiq etməklə diskont edilmiş gələcək pul vəsaitlərinin hərəkəti metoduna əsaslanır.

Amortizasiya olunmuş dəyərlə qeydə alınan maliyyə aktivləri. Dəyişkən faizli maliyyə alətlərinin ədalətli dəyəri onların balans dəyərinə bərabərdir. Sabit faiz dərəcəli maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri analoji kredit riskinə və ödəmə müddətinə malik olan yeni alətlər üçün mövcud faiz dərəcələrini tətbiq etməklə pul axınlarının diskontlaşdırılması metoduna əsaslanır. İstifadə edilmiş diskont dərəcələri qarşı tərəfin kredit riskindən asılıdır.

Amortizasiya olunmuş dəyərlə uçota alınan öhdəliklər. Öhdəliklərin ədalətli dəyərləri qiymətləndirmə modellərindən istifadə olunmaqla müəyyən edilmişdir. Müəyyən edilmiş ödəmə müddətinə malik olan sabit faizli maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri analoji kredit riskinə və yerdə qalan ödəmə müddətinə malik yeni alətlər üçün cari faiz dərəcələrini tətbiq etməklə diskont edilmiş pul vəsaitlərinin hərəkətinə əsaslanır. 31 dekabr 2024-cü il tarixinə amortizasiya olunmuş dəyərlə tanınan öhdəliklərin balans dəyəri təxminən onların ədalətli dəyərinə bərabər olmuşdur. 31 dekabr 2023-cü il tarixinə uzunmüddətli borcların ədalətli dəyəri onların balans dəyərindən 14,175 min AZN aşağı olmuşdur.

33 Maliyyə alətlərinin qiymətləndirmə kateqoriyaları üzrə təqdim edilməsi

Mühüm mühasibat uçotu prinsipi

MHBS 9 "Maliyyə alətləri" standartına uyğun olaraq, maliyyə aktivləri aşağıdakı kateqoriyalara təsnifləşdirilir: (a) FVTPL kateqoriyasında qiymətləndirilən maliyyə aktivləri; (b) FVOCI kateqoriyasında qiymətləndirilən borc alətləri; (c) FVOCI kateqoriyasında qiymətləndirilən pay alətləri və (d) amortizasiya olunmuş dəyərlə ölçülən maliyyə aktivləri. FVTPL kateqoriyasında qiymətləndirilən maliyyə aktivləri iki alt-kateqoriyaya bölünür: (i) FVTPL kateqoriyasında məcburi qaydada qiymətləndirilən aktivlər və (ii) ilkin tanınma zamanı həmin kateqoriyaya aid edilmiş aktivlər.

31 dekabr 2024-cü il tarixinə maliyyə aktivlərinin növləri ilə yuxarıda qeyd edilən qiymətləndirmə kateqoriyalarının üzləşdirilməsi aşağıdakı cədvəldə göstərilir:

Min Azərbaycan Manatı ilə	**FVOCI kateqoriyasında qiymətləndirilən borc alətləri**	**Amortizasiya olunmuş dəyərlə qiymətləndirilən aktivlər**	**Cəmi**
AKTİVLƏR			
Pul vəsaitləri və onların ekvivalentləri	-	264,870	264,870
Müddətli depozitlər	-	30,000	30,000
Borc qiymətli kağızlara investisiyalar			
- Korporativ istiqrazlar	10,000	-	10,000
Sair maliyyə aktivləri:			
- Ticarət debitor borcları	-	213,372	213,372
- Məhdudiyyət qoyulmuş pul vəsaitləri	-	810	810
- *Digər*	-	12,240	12,240
CƏMİ MALİYYƏ AKTİVLƏRİ	**10,000**	**521,292**	**531,292**

31 dekabr 2023-cü il tarixinə maliyyə aktivlərinin növləri ilə yuxarıda qeyd edilən qiymətləndirmə kateqoriyalarının üzləşdirilməsi aşağıdakı cədvəldə göstərilir:

Min Azərbaycan Manatı ilə	**FVOCI kateqoriyasında qiymətləndirilən borc alətləri**	**Amortizasiya olunmuş dəyərlə qiymətləndirilən aktivlər**	**Cəmi**
AKTİVLƏR			
Pul vəsaitləri və onların ekvivalentləri	-	215,982	215,982
Sair maliyyə aktivləri:			
- Ticarət debitor borcları	-	209,834	209,834
- *Digər*	-	8,338	8,338
CƏMİ MALİYYƏ AKTİVLƏRİ	**-**	**434,154**	**434,154**

31 dekabr 2024 və 31 dekabr 2023-cü il tarixlərinə Qrupun bütün maliyyə öhdəlikləri amortizasiya olunmuş dəyərlə uçota alınmışdır.

34 Hesabat tarixindən sonra baş vermiş hadisələr

Yeni səhmdar. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 7 noyabr tarixli Fərmanı ilə "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi" (AZCON) publik hüquqi şəxsi yaradılmışdır. AZCON-un əsas fəaliyyət istiqamətləri onun idarəetməsinə verilmiş dövlət müəssisələrinin, dövlət payı olan təsərrüfat cəmiyyətlərinin və publik hüquqi şəxslərin mütərəqqi korporativ idarəetmə prinsiplərinə uyğun idarə olunmasını, eləcə də rəqabət qabiliyyətinin və maliyyə dayanıqlılığının yaxşılaşdırılmasını təmin etməkdir.

Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 15 yanvar tarixli Fərmanı ilə təsdiq edilmiş AZCON-un Nizamnaməsinə əsasən, AZCON nəqliyyat və kommunikasiya sektorunda fəaliyyət göstərən dövlət müəssisələrinin yeganə səhmdarıdır və dövlət adından çıxış edir. "Azərbaycan Hava Yolları" QSC AZCON-un idarəetməsinə verilmiş dövlət müəssisələrindən biridir.

Yeni törəmə müəssisə. 25 fevral 2025-ci il tarixində Qrup tamamilə dövlət mülkiyyətində olan "AZƏRAERONAVİQASİYA AFEZCO" törəmə müəssisəsini Ələt Azad İqtisadi Zonasında qeydiyyatdan keçirmişdir.

Müddətli depozitlər. 5 fevral 2025-ci il tarixində Qrup "Azərbaycan Beynəlxalq Bankı" ASC-də 6 ay müddətinə, illik 8% nominal faiz dərəcəsi ilə 50,000 min AZN məbləğində depozit yerləşdirmişdir.

1 avqust 2025-ci il tarixində Qrup ilə "Azərbaycan Beynəlxalq Bankı" ASC arasında depozitin müddəti bitdiyi tarixdən etibarən onun növbəti 6 ay müddətinə uzadılmasına dair əlavə saziş imzalanmış və depozit üzrə illik nominal faiz dərəcəsi 7% müəyyən edilmişdir.

Borc vəsaitləri. Hesabat tarixindən sonrakı dövrdə Qrup banklar qarşısında olan öhdəlikləri üzrə 32,968 min AZN əsas borc və 13,471 min AZN faiz ödənişi həyata keçirmişdir.

Verilmiş borclar. 8 dekabr 2025-ci il tarixində Qrup öz əlaqəli tərəfi olan "Bakı Gəmiqayırma" MMC ilə borc müqaviləsi bağlamışdır. Müqaviləyə əsasən, 15 dekabr 2025-c il tarixində Qrup borcalana 31 yanvar 2028-ci il tarixinədək tam şəkildə qaytarılmaq şərtilə 5,000 min ABŞ dolları məbləğində faizsiz borc vermişdir.

Donanmanın genişləndirilməsi. Hesabat tarixindən sonrakı dövrdə lizinq müqavilələri əsasında təhvil alınmış iki yeni "Airbus A320-251N" tipli hava gəmisinin hesabına Qrupun donanmasındakı hava gəmilərinin sayı 33-ə çatdırılmışdır.

Yeni hava gəmiləri üzrə icarə müqavilələri. 10 sentyabr 2025-ci il tarixində Qrup ilə "Avolon Leasing Ireland 3 Limited" şirkəti arasında təhvil verilməsi 2026-cı ilin dekabr – 2027-ci ilin mart ayları aralığında planlaşdırılan üç yeni "Airbus A321-200NX tipli" hava gəmisinin icarəsinə dair əməliyyat lizinqi müqavilələri bağlanmışdır.